RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 87 (8403) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyev növbəti qlobal təşəbbüsü ilə tarix yazdı

## Dövlətimizin başçısı Bakıdan dünyaya çağırış etdi: "Yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik"

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Zirvə görüşünün iştirakçılarını salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Zirvə görüşünün iştirakçıları. Mən sizi səmimiyyətlə salamlayıram. Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşü qlobal pandemiyaya - koronavirus xəstəliyinə qarşı mübarizəyə həsr olunmuşdur.

Zirvə görüşünün gündəliyi üzv dövlətlərlə razılaşdırılmışdır. Etiraz yoxdursa, Zirvə görüşünün gündəliyi qəbul olunur.

Mən Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19-la mübarizəyə həsr olunan onlayn Zirvə görüşünü açıq elan edirəm.

Dövlətimizin başçısı Zirvə görüşündə giriş nitqi söylədi.

### Prezident İlham Əliyevin giriş nitqi

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli BMT Baş Assambleyasının sədri.

Hörmətli beynəlxalq təşkilatların rəhbərləri.

Zati-aliləri.

Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, Hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdür.

Təqdirəlayiq haldır ki, Qoşulmama Hərəkatının bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəkləmişdir. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşdur.

Zirvə görüşündə iştirakına görə Təmas Qrupuna daxil olan dövlətlərə təşəkkürümü bildirirəm.

Mən, eyni zamanda, Zirvə görüşünə qatılan BMT Baş Assambleyasının sədrinə, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoruna və Afrika İttifaqının Komissiyasının sədrinə öz minnətdarlığımı ifadə etmək istərdim.

*Ardı 2-ci səh.*

## Azərbaycanın özü qədər əbədi



### Ulu Öndər Heydər Əliyevin idarəçilik meyarları: *təcrübəyə söykənən müasirlik və gələcəyə aparan təşəbbüskarlıq*

Ulu Öndər Heydər Əliyevin çoxşaxəli və zəngin irsinin öyrənilməsi zaman keçdikcə daha da aktuallaşır. Bu böyük şəxsiyyətin dövlət idarəçiliyində zəngin tarixi təcrübəyə, müasirliyə söykənən və gələcəyə aparan təşəbbüskarlıq meyarları ayrıca təhlil olunmağa layiqdir. Çünki mükəmməl dövlət idarəçiliyi bütün dövrlər və bütün cəmiyyətlər üçün, xüsusilə müstəqilliyini və dövlətçiliyini uzun illərdən sonra bərpa edən, gənc və sürətli inkişaf yoluna qədəm qoyan dövlətlər üçün həmişə vacib məsələlərdən biri olmuşdur.

Heydər Əliyev özünün keçdiyi bənzərsiz həyat yolunda qazandığı misilsiz təcrübəni, tarixi prosesləri dərindən dərk edərək onlardan əldə etdiyi nəticələri xalqının və millətinin inkişafına, qurduğu dövlətin tərəqqisinə yönəltməyi bacaran müdrik siyasi xadim və rəhbər idi. Çox güclü şəxsiyyət və müdrik siyasətçi olan Heydər Əliyevin zamanın sınağından çıxmış ümumi prinsip və meyarlarla yanaşı, dövlət idarəetməsində tətbiq etdiyi öz prinsipləri və meyarları var idi. Bu meyarlar təcrübədə özünü doğrultmuş meyarlar idi və bütövlükdə onları işgüzarlıq, prinsipiallılıq, cəsarətlilik, vətənə, dövlətə, xalqa sədaqət, milli-mənəvi dəyərlərə dərin hörmət, ümumi mənafeləri hər şeydən üstün tutmaq meyarları kimi səciyyələndirmək olar.

*Ardı 6-cı səh.*

## İlham Əliyev daha bir ilkə imza atdı

### Prezident Qoşulmama Hərəkatının üzv dövlətlərinə Azərbaycanın koronavirusla mübarizə sahəsindəki təcrübəsini bölüşməyə hazır olduğunu bəyan etdi

Dünən Prezident İlham Əliyev daha bir beynəlxalq ilkə imza atdı. Hər zaman qətiyyətli qərarları, qlobal təşəbbüsləri ilə örnək olan cənab İlham Əliyev Türk Şurasından sonra, üzvlərinin sayına görə BMT Baş Assambleyasından sonra dünyada ikinci ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşünü təşkil etdi. Videokonfrans vasitəsilə keçirilən görüş koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusuna həsr olunmuşdu.

*Ardı 9-cu səh.*

## COVID-19-a cavab olaraq Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşünün BƏYANNAMƏSİ

***4 may 2020-ci il***

2020-ci il mayın 4-də COVID-19 pandemiyasının misli görünməmiş təsirləri ilə mübarizədə qlobal səylərə səmərəli töhfə vermək məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri zati-aliləri cənab İlham Əliyevin təşəbbüsü ilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda COVID-19-a cavab olaraq Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşündə videokonfrans formatında görüşən biz - dövlət və hökumət başçıları

1. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin və Qoşulmama Hərəkatının təsis sənədlərinin məqsədlərinə, prinsiplərinə və müddəalarına güclü sadiqliyimizi bir daha bildiririk.
2. BMT Baş Assambleyasının "2019-cu ilin koronavirus xəstəliyi ilə mübarizədə qlobal həmrəylik" adlı A/RES/74/270 və "COVID-19-a qarşı dərman, peyvənd və tibbi avadanlıqlara qlobal əlçatanlığı təmin etmək üçün beynəlxalq əməkdaşlıq" adlı A/RES/74/274 nömrəli qətnamələrin qəbulunu alqışlayırıq.
3. COVID-19 pandemiyası ilə mübarizədə BMT Baş katibinin planlarına və təşəbbüslərinə tam dəstək ifadə edirik.
4. 2020-ci ilin 25 mart tarixli "COVID-19 pandemiyası" və 2020-ci ilin 9 aprel tarixli "Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və onun Baş direktoruna dəstək" adlı Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun kommunikelərini xatırladırıq.
5. Bəşəriyyət üçün ciddi problem olan və birlik, həmrəylik və yenilənmiş çoxtərəfli əməkdaşlığa əsaslanmaqla qlobal reaksiya tələb edən COVID-19-un sürətlə yayılmasından ciddi narahatlıq ifadə edirik.

*Ardı 4-cü səh.*



## 250 milyon dollardan artıq sərmayə

### Avropa Yenidənqurma və İnkişaf Bankı Prezident İlham Əliyevin müəllifi olduğu müxtəlif layihələrə investisiya yatırmağı planlaşdırır

**"Ötən bir neçə ay Azərbaycanın gözəl hekayəsi sayıla bilər. Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz. Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsinin vacibliyini nəzərə alaraq, böhran vaxtı qeyri-neft sektorunun xüsusilə yaxşı göstəriciləri də qeyd olunmalıdır. Çox gözəl bir hekayədir və gün gələcək Azərbaycanla müqayisə aparılacaq".**

*Ardı 10-cu səh.*

## Zamanın tələbi

### İlham ƏLİYEV: "Haqq da, xalq da bizim tərəfimizdədir"

Bu gün dünyanın aparıcı KİV-ni izləyəndə, liderlərin önəm verdiyi problemlərə diqqət yetirəndə ana mövzunun koronavirus pandemiyası olduğunu, bütün səylərin bu istiqamətə yönəldiyini görürük. Bəşəriyyət öz tarixində böyük təhlükə ilə üzləşmişdir və hamı onun həlli yollarını axtarır.

Belə mürəkkəb məqamda Azərbaycan Prezidentinin atdığı qətiyyətli və soyuqqanlı addımlar hər bir ölkə vətəndaşında əminlik yaradır, nikbin gələcəyə ümid doğurur və hamını səfərbərliyə alır. Bu baxımdan dövlət başçısının mayın 1-də yeni Baş prokuror Kamran Əliyevi videoformatda qəbul etməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidenti keçirdiyi bütün qəbullarda və digər tədbirlərdə yeni vəzifə təyinatı alan yüksək çinli məmurlara tövsiyələrini vermək və tələblərini bildirməklə yanaşı, həm də dövlətin siyasi və iqtisadi kursunun mahiyyətini məmurdan tutmuş sıravi vətəndaşadək hamıya açıqlayır, dəmir iradə ilə islahatlara sadiqliyini bəyan edir.

Sonuncu videoformat qəbulunda Prezident İlham Əliyev prokurorluq orqanlarında genişmiqyaslı islahatların ölkəmizin dayanıqlı inkişafına və daha da güclənməsinə xidmət etdiyini vurğuladı: "Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var".

Dövlət başçısı islahatların bir məqsədə səmtlənməsinə yox, geniş spektrdə aparılmasına üstünlük verir. Azərbaycan onilliklər boyu islahatlara davam edən və bu islahatları bütün istiqamətlərdə dərinləşdirən dövlət kimi uğurlarını tərənnüm edə, qazanılan nailiyyətləri ilə öyünə bilərdi. Lakin İlham Əliyev bu dəfə də yeni yanaşma nümayiş etdirməklə proseslərin daha qətiyyət və inamla, amma fərqli bir tərzdə müxtəlif istiqamətlərdə davam etdiriləcəyini bildirir. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoqun baş tutduğunu, bütün əsas siyasi qüvvələrin bu dialoqa qoşulduğunu vurğulayır: "Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır.

*Ardı 10-cu səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# İlham Əliyev növbəti qlobal təşəbbüsü ilə tarix yazdı

## *Dövlətimizin başçısı Bakıdan dünyaya çağırış etdi:* "Yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik"




*Əvvəli 1-ci səh.*

BMT Baş katibi cənab Antonio Quterreşə və Avropa İttifaqının ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti cənab Cozef Borelə videomüraciətinə görə təşəkkürümü bildirirəm.

2019-cu il oktyabr ayının 25-26-da Qoşulmama Hərəkatının Bakıda XVIII Zirvə görüşü keçirildi. Zirvə görüşündə qəbul olunmuş Bakı Bəyannaməsi və Bakı Yekun Sənədində beynəlxalq hüququn prinsipləri öz əksini tapdı. Eyni zamanda, bu sənədlərdə 65 illiyi bu günlərdə qeyd edilən Bandunq prinsiplərində yer alan dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olundu. 120 üzv dövlətin yekdil dəstəyi ilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm.

Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaqdır.

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlamış və praktiki fəaliyyətə başlamışdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya vermişdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir.

COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik.

BMT Baş katibi Antonio Quterreş tərəfindən koronavirusa qarşı mübarizə məqsədilə qlobal humanitar cavab planının elan edilməsini, BMT Baş Assambleyasında müvafiq qətnamələrin qəbul olunmasını və Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq. Təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət müraciətimiz əsasında mart ayında ölkəmizə səfər edərək vəziyyətlə tanış olmuşdur. Azərbaycana göstərdiyi dəstəyə və Zirvə görüşümüzdə iştirakına görə doktor Tedros Adhanom Qebreyesusa təşəkkürümü bildirirəm. Bu, Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə görüşüdür. Sədri olduğumuz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının mənim təşəbbüsüm ilə aprelin 10-da COVID-19-a qarşı Zirvə görüşü keçirilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru həmin Zirvə görüşündə də iştirak etdi və dəyərli tövsiyələrini verdi.

Qoşulmama Hərəkatının "Ümumdünya Səhiyyə Təşkilatı və onun Baş direktoruna dəstək" adlı 9 aprel tarixli bəyanatını məmnuniyyətlə qeyd etmək istərdim.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru tərəfindən martın 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Azərbaycan dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar könüllü maliyyə yardımı ayırdı.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçirmişdir. Mənim sərəncamımla ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır.

Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir.

Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılmışdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir.

Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün 20-dən artıq xəstəxana ayrılmışdır. Virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, bəzi tibb avadanlığı və ləvazimatlar Azərbaycana gətirilmişdir. Testlərin aparılması üçün ölkədə 23 laboratoriya fəaliyyət göstərir. İndiyə kimi ölkə üzrə 160 mindən artıq test keçirilmişdir.

Daxili tələbatı ödəmək üçün qısa müddət ərzində qoruyucu və digər tibbi ləvazimatların istehsalına başlanmışdır.

Beləliklə, həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınmışdır. Son üç həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir daha həkimlərimizin peşəkarlığının şahidi olmuşuq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır.

Əhali arasında virusa yoluxma sürətinin aşağı düşməsini, xəstələrin sağalma dinamikasını nəzərə alaraq xüsusi karantin rejimindən çıxış planı mərhələli şəkildə həyata keçirilir. Xüsusi karantin rejimi mayın 31-nə qədər uzadılsa da, tətbiq edilən bir sıra məhdudiyyətlər aprelin 27-si və mayın 4-dən etibarən yumşaldılıb.

Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün 3.5 milyard manatdan artıq və ya 2 milyard dollardan çox sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur.

Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq iki ay ərzində vəsait ödənilir.

İşsiz şəxslərin sosial müdafiəsi üçün ilin sonuna qədər 90 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulur.

Banklar tərəfindən sahibkarlara yeni verilən kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir.

Pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üçün vergi güzəştləri və vergi tətilləri ediləcəkdir.

Bütün bunlar atılan addımların yalnız bir hissəsidir. Ümumiyyətlə, dövlətin həyata keçirdiyi tədbirlərə vətəndaşlarımız tərəfindən çox yüksək qiymət verilir.

Hörmətli həmkarlar, pandemiya şəraitində ölkələrimiz arasında ticarətin açıq saxlanılması və beynəlxalq yükdaşımaların fasiləsiz olaraq həyata keçirilməsi vacibdir. Azərbaycan artıq Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilmişdir. Onlarla ölkəni birləşdirən Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynamışdır. Pandemiya dövründə də Azərbaycan etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə maneəsiz tranzit daşımalarını təmin edir.

Eyni zamanda, tibb mütəxəssislərinin təcrübə mübadiləsi, virusa qarşı mübarizədə əldə edilmiş təcrübənin, məlumatların, elmi biliklərin bölüşülməsi, ehtiyacı olan ölkələrə yardım göstərilməsi mühüm əhəmiyyət kəsb edir.

Zirvə görüşünün təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcəkdir. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim ediləcəkdir.

Pandemiyaya qarşı mübarizədə ən çox yardıma ehtiyacı olan Qoşulmama Hərəkatı üzv dövlətlərini dəstəkləmək üçün Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına əlavə olaraq 5 milyon dollar ianə ayırır. Bu vəsait bizimlə razılaşdırılmaqla ən çox yardıma ehtiyacı olan Afrika, Asiya və Latın Amerikası regional qruplarından olan üzv ölkələr üçün nəzərdə tutulur.

120 ölkəni özündə birləşdirən Qoşulmama Hərəkatı BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycanın sədrliyi dövründə birgə səylərimizlə Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunu, beynəlxalq aləmdə oynadığı rolunu artırmaq əzmindəyik. Ölkələr arasında dostluq, həmrəylik və qarşılıqlı dəstək xüsusi rol oynayır.

Razılığınız olarsa, qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxış edə bilərik.

Hamımız üçün bu çətin dövrdə mən bir daha bütün dövlətləri dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə dəvət edirəm.

Diqqətinizə görə minnətdaram.

* * *

**Prezident İlham ƏLİYEV:** İndi isə sözü BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bandeyə verirəm.

### Ticani Məhəmməd-Bandenin çıxışı

- Hörmətli Sədr, nazirlər, xanımlar və cənablar.

Mən cənab Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm ki, bu gün bu cür mühüm tədbirə evsahibliyi edir.

Mən öz yaxınlarını itirənlərə dərin hüznlə başsağlığı verirəm və xəstəlikdən əziyyət çəkənlərə tezliklə sağalmalarını arzulayıram.

Mən bu xəstəliklə mübarizənin ön cəbhəsində vuruşan səhiyyə işçilərinə və digər şəxslərə əhalinin sağlam və təhlükəsiz qalması üçün gördükləri işə görə təşəkkür edirəm.

Bu gün üzərimizə düşən səlahiyyətlərdən çıxış edərək bildirmək istəyirəm ki, biz pandemiyanı məğlub etmək üçün verdiyi mühüm dəstəyə və göstərdiyi xidmətlərə görə Ümumdünya Səhiyyə Təşkilatının, Qoşulmama Hərəkatının üzv dövlətlərinin, vətəndaş cəmiyyəti və özəl sektorun səylərini alqışlamalıyıq. BMT-nin COVID-19 qlobal humanitar cavab tədbirləri planına da maliyyə dəstəyi verilməlidir.

Zati-aliləri, bu gün COVID-19 bütün dünyada milyardlarla insanı təhlükə ilə üz-üzə qoydu. Bu gün Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, həmin insanlar 3,4 trilyon ABŞ dolları məbləğində gəlirlərini itiriblər.

Qlobal səhiyyə sistemi bu gün çox ağır təzyiq altındadır və təbii ki, beynəlxalq səfərlər də dayandırılıbdır. Heç bir ölkə qarşıya çıxan bu çətinliyi, bu maneəni təkbaşına aradan qaldıra bilməz. Biz BMT olaraq çox böyük məmnunluqla bu cür təşəbbüsləri dəstəkləyirik və istəyirik ki, COVID-19 virusunun yayılmasının qarşısını alaq. Biz, həmçinin istəyirik ki, bütün dövlətlər, millətlər arasında olan qeyri-bərabərsizlik aradan qaldırılsın. Bunun üçün biz daha güclü və dayanıqlı sistem yaratmalıyıq. Eyni zamanda, biz görürük ki, inkişafda olan bir sıra ölkələrin borcları çox kəskin şəkildə artır. Bunlardan irəli gələrək bildirmək istəyirik ki, biz cari böhranın lap ortasındayıq. Bir çox ölkələr, həmçinin öz həllini tapmayan silahlı münaqişələrdən əziyyət çəkir, münaqişələr dayandırılmalıdır. Biz bununla bağlı BMT-nin Baş katibi adından qlobal miqyasda atəşkəsin təmin edilməsi üçün çağırış etmişik. Biz beynəlxalq əməkdaşlığı gücləndirməliyik.

Bu böhrana gəldikdə, görürük ki, biz məhz Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı onillik tədbirlər planını tam həyata keçirməliyik. Biz verdiyimiz bu vədlərdən heç zaman geri çəkilə bilmərik. Əlimizdən gələni etməliyik ki, 2030-cu ilə olan Gündəliyi icra edək və Əddis-Əbəbə tədbirlər planının maliyyələşdirilməsi, onun icrası üçün çalışmalıyıq. Biz bununla bağlı çoxtərəfli səylərimizi nümayiş etdirməliyik.

Zati-aliləri, həmçinin Birləşmiş Millətlər Təşkilatı olaraq bildiririk ki, Qoşulmama Hərəkatı da müxtəlif cavab tədbirləri görməyə başladı. Bilirik ki, insanlar və ölkələr arasında etimadın artırılması üçün təşkilatın üzv dövlətləri bir çox mühüm işlər görməyə başlamışlar. Biz artıq yeni erada yaşayırıq, vəziyyət əvvəlki kimi deyil. Ölkələr bu gün anlayırlar ki, onlar çox böyük çətinliklər qarşısındadırlar. Bütün bunlar bizim ümumi vəzifəmizin icrası üçün vacibdir. Biz birgə işləməyə çalışmalıyıq və elə etməliyik ki, bu və ya digər əhalinin spesifik ehtiyaclarına cavab verək. Biz buna məhz çoxtərəfli əməkdaşlıq sayəsində nail ola bilərik. Yalnız belə olan halda biz prosesləri əlaqələndirə və mövcud şəraitə görə təcrid olunmuş insanlara bu yolla yardım edə bilərik.

Zati-aliləri, 2030-cu ilin Gündəliyinin icrasında təhsilə də xüsusi önəm verilir. Biz çalışmalıyıq bir işçi planı tərtib edək və orada səmərəli mexanizmlər olsun ki, həm pandemiyaya qarşı mübarizə aparılsın, həm də istədiyimiz nəticələr təmin edilsin. Biz bunu ona görə etməliyik ki, bunlar təxirəsalınmaz məsələlərdir və dünyada təhsillə bağlı məsələlər daha da dərinləşməsin. Bu gün dünya üzrə tələbələrin ümumi sayının 90 faizindən çoxu məhz bu çətinliklərlə üzləşib. Bir çox tədris ocaqları bağlanıb. Biz öz işimizi səmərəli şəkildə əlaqələndirməli və bir-birimizə dəstək verməliyik. Heç bir halda imkan yarada bilmərik ki, bu sahədə boşluq olsun. Bütün bunlar məhz sizə, sizin göstərdiyiniz əməkdaşlığa əsaslanır. Biz istərdik ki, pandemiyaya qarşı bu cavab tədbirləri uğurla nəticələnsin.

Biz bilirik ki, dünya kənd təsərrüfatı sahəsində vəziyyətdən asılıdır. İnsanların ərzaqla təmin olunması, eyni zamanda, onların gəlir qazanması üçün əlimizdən gələni etməliyik ki, kənd təsərrüfatı sahəsində çalışan işçilər əhalini ərzaqla minimal itkilərlə təmin edə bilsinlər. Zati-aliləri, sizə müraciət edirəm ki, bu sahəyə inklüziv olaraq geniş şəkildə sərmayələr qoyulsun, daha müqavimətli ərzaq sistemləri qurulsun və hər bir dövlət bu sistemlə əhatə olunsun. Biz çox diqqətli olmalıyıq ki, milyonlarla insan aclıq problemləri ilə üzləşməsin.

Zati-aliləri, biz təxirəsalınmaz tədbirlər görərkən dayanmadan öz yardımlarımızı göstərməliyik. Xüsusən də bu, zəif ölkələrə aiddir ki, onlar səhiyyə sahəsində cavab tədbirləri görsünlər və əhalisinin sosial müdafiəsini təmin etsinlər. Biz öz səylərimizi birləşdirməliyik, qeyri-qanuni maliyyə axınlarının qarşısının alınmasında konkret tədbirləri davam etdirməliyik. Bu məqsədlə əlavə vəsaitləri səfərbər etməliyik ki, COVID-19-un təsirlərini aradan qaldıraq.

Zati-aliləri, mən bu baxımdan Qoşulmama Hərəkatının və onun üzv dövlətlərinin göstərdiyi rəhbərlik keyfiyyətlərini alqışlayıram. Çünki onlar pandemiyanın lap başlanğıcından öz həmrəyliyini nümayiş etdirmişlər və beləliklə onlar ən yaxşı təcrübəni mübadilə etməlidirlər, bir-birinə tibbi avadanlığı və ləvazimatı çatdırmalıdırlar, ərzaq və digər bu kimi humanitar yardımları göstərməlidirlər. Mən müraciət edirəm ki, Qoşulmama Hərəkatı bu ülvi məqsədləri, bir-birinə iqtisadi yardımı və digər bu kimi halları təşviq etsin. Mən Qoşulmama Hərəkatına minnətdaram ki, onlar bir çox formada öz prinsiplərindən çıxış edərək, həmçinin BMT-nin Xartiyasına da dəstək vermişlər. İnanıram ki, Qoşulmama Hərəkatı bundan sonra da öz haqlı səsini ucaldacaq və işini davam etdirəcək. Həmçinin BMT-nin Nizamnaməsi və Banduq prinsipləri çərçivəsində mühüm işlərə, beynəlxalq sülhə və təhlükəsizliyə, qanunun aliliyinə, ədalətə xidmət edəcək. İstərdim ki, tərəfdaşlığı bundan sonra da davam etdirəsiniz, COVID-19 - un məğlub edilməsi istiqamətində başladığınız işi daha da gücləndirəsiniz və biz bu çətinlikləri birgə aradan qaldıraq.

Sağ olun, cənab Prezident.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cənab prezident. İndi isə mən hamınızı BMT-nin Baş katibi cənab Antonio Quterreşin videomüraciətini dinləməyə dəvət edirəm.

*Ardı 3-cü səh.*

# İlham Əliyev növbəti qlobal təşəbbüsü ilə tarix yazdı

## *Dövlətimizin başçısı Bakıdan dünyaya çağırış etdi:* "Yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik"




*Əvvəli 2-ci səh.*

### Antonio Quterreşin videomüraciəti

- Bu görüşü təşkil etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürümü bildirirəm.

Cəmiyyətlərimiz ağır sınaqdan keçməkdədir.

COVID-19 bütün dünyada milyardlarla insana ciddi iztirablar verərək və qlobal iqtisadiyyatı pozaraq onların həyatlarında təşviş yaradıb.

O, cəmiyyətlərimiz və iqtisadiyyatlarımızın sarsıntı qarşısında kövrəkliyini açıq nümayiş etdirdi və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasını təhdid edərək dərin qeyri-bərabərliyi bütün çılpaqlığı ilə üzə çıxardı.

Burada yeganə cavab cəsarətli, uzaqgörən və əməkdaşlığa əsaslanan rəhbərlik keyfiyyətləridir.

Bu böhranın miqyası və mürəkkəbliyi əlaqələndirilmiş qlobal cavab tədbirlərini tələb edir.

Etiraf etməliyik ki, inkişaf edən ölkələrə münasibətdə kifayət qədər həmrəylik göstərilməyib.

Həm pandemiyaya qarşı mübarizə prosesində səhiyyə sistemlərindəki boşluqları, həm də cəmiyyətlərinə sosial və iqtisadi təsirlərin aradan qaldırılması üçün onların genişmiqyaslı dəstəyə ehtiyacı var.

Biz COVID-19-a səmərəli cavab tədbirlərinin hər kəs üçün və hər yerdə əlçatan olmasını və bərabərliyi təmin etməliyik.

Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin üçdə ikisini əhatə edən Qoşulmama Hərəkatı qlobal həmrəyliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

Bizim üç təxirəsalınmaz prioritetimiz var: COVID-19 pandemiyasına son qoymaq, onun sosial-iqtisadi təsirlərini aradan qaldırmaq və bərpa mərhələsindən daha güclü əsasları qurmaqda və heç kəsi kənarda qoymamaqda istifadə etmək.

Biz Dayanıqlı İnkişaf üçün 2030-cu il gündəliyinin və İqlim dəyişikliyi üzrə Paris Sazişinə dair gözləntilərin nəticəsiz qalmasına imkan verə bilmərik.

Bu münasibətlə, mən BMT-nin bütün səylərinizi dəstəklədiyini bir daha bəyan edirəm.

Sizə məhsuldar görüş arzulayıram.

* * *

**Prezident İlham ƏLİYEV:** Mən BMT-nin Baş katibinə bu videomüraciətə görə təşəkkürümü bildirirəm. İndi isə söz verilir Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru cənab Tedros Adhanom Qebreyesusa.

### Tedros Adhanom Qebreyesusun çıxışı

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev, çox sağ olun.

Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli nazirlər, həmkarlar, əziz dostlar.

Bu gün sizinlə bu tədbirdə iştirak etməkdən şərəf duyuram.

Məni bu tədbirə dəvət etdiyinə və Qoşulmama Hərəkatının Təmas Qrupu qarşısında çıxış etmək imkanı yaratdığına görə Zati-aliləri cənab İlham Əliyevə təşəkkürümü bildirirəm.

Biz Ümumdünya Səhiyyə Təşkilatına Sizin verdiyiniz dəstəyi yüksək dəyərləndiririk. Mən, həmçinin fürsətdən istifadə edərək Azərbaycan xalqına, Azərbaycan hökumətinə bizə 5 milyon ABŞ dolları həcmində maliyyə dəstəyinə görə təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək Zati-alinizə təşəkkürümü bildirirəm ki, Siz təşkilatımıza əlavə olaraq 5 milyon ABŞ dolları həcmində yardım göstərmisiniz.

Mən məmnunluq hissi ilə bildirmək istəyirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına və onun üzv dövlətlərinə COVID-19 xəstəliyinə qarşı apardıqları mübarizədə onlara dəstək verir. Mən bilirəm ki, bu il Bandunq Prinsiplərinin 65 illiyi qeyd olunur. Biz bilirik əməkdaşlıq bizim üçün çox vacibdir ki, ölkələr cavab tədbirlərini həyata keçirə bilsin, COVID-19 xəstəliyinə qarşı mübarizə aparılsın və bu kimi digər fövqəladə halları aradan qaldırsın.

Tamamilə aydındır ki, heç bir ölkə öz ölçüsündən, resurslarından, pul imkanlarından asılı olmayaraq pandemiyaya qarşı təkbaşına mübarizə apara bilməz. Biz həmrəy olmalıyıq, bütün siyasi sərhədləri aşaraq heç zaman görünmədiyi qədər bu mühüm işləri aparmalıyıq. Çünki virus özlüyündə iki əsas meyarın bir kombinasiyasıdır. O, sürətlə yayılır və o qatildir. Buna görə bizə qlobal həmrəylik və birlik lazımdır. Bu baxımdan, biz virusu önləməliyik, ondan öndə getməliyik.

Sizin davamlı çoxtərəfli işiniz və uzunmüddətli öhdəliyiniz COVID-19-un qarşısının alınmasında çox vacibdir.

Ölkələr arasında şəffaflığın, etimadın və əlaqələndirmənin qurulması olduqca önəmlidir. Ona görə dünyanın hər bir dövləti buna hazır olmalıdır. Belə bir qlobal fövqəladə hal qarşısında həmrəylik prinsiplərindən çıxış edərək biz insanları və millətləri bu səylərdə birləşdirməliyik. Əvvəlcə bildirildiyi kimi, COVID-19 yanvar ayında pandemiya elan edildi. Həmin vaxtdan etibarən dünyanın müxtəlif guşələrinə çox sürətlə yayıldı, siyasi, sosial və iqtisadi sistemlərdə problem yaratdı. Pandemiya bizdən həm qlobal, həm də milli səviyyələrdə fövqəladə tədbirlərin görülməsini tələb etdi. Buna görə də bizim qarşımızda sadə bir vəzifə dayanır ki, biz planetimizi qorumalıyıq, eyni məqsədlərdən çıxış edərək insanları xilas etməliyik. Buna görə də biz, həmçinin burada güclü milli və alt milli səhiyyə sistemlərinin əhəmiyyətini qeyd edirik ki, qlobal təhlükəsizlik və universal səhiyyə paketi təmin oluna bilsin. Bütün cəmiyyətlərin bu baxımdan ehtiyaclarından irəli gələrək deyə bilərik ki, biz həlledici böhran mərhələsindəyik. Çünki burada qaçqınlar problemi var. İnsanlar münaqişələrdən əziyyət çəkirlər. Bu gün ictimai səhiyyə üçün böhrana səbəb olan COVID-19 inkişafda çox ciddi problemlər yaratmışdı. Bunu eşitmək ağrılıdır və dünya bunun şahididir. Pandemiya ilə bağlı hazırkı həlledici mərhələdə bütün dövlətlər və maraqlı olan tərəflər, o cümlədən özəl sektorun nümayəndələri birgə çalışmalıdırlar ki, geridə qalan olmasın. Qoşulmama Hərəkatının Nizamnaməsinin təməlində duran çoxtərəflilik və beynəlxalq əməkdaşlıq dəyərlərinin gücləndirilməsi bu həlledici məqamda çox önəmlidir.

Ümumdünya Səhiyyə Təşkilatı müşahidə və erkən müəyyənetmə, şübhəli hallar zamanı təcrid, test aparma imkanlarının artırılması, xəstələrin klinik şəraitdə müalicəsi, məlumat mübadiləsi, müxtəlif sektorlar üzrə fəaliyyət, risklərlə bağlı məlumatlandırma və cəmiyyətin səfərbər edilməsi sahəsində bütün ölkələrin səylərini dəstəkləyir.

Beynəlxalq Səhiyyə Qaydaları kimi instrumentlər sayəsində səhiyyə təhlükəsizliyi ilə bağlı hazırlıqda irəliləyişə nail olunsa da, boşluqlar hələ də qalmaqdadır və milli hazırlıq səviyyəsində böyük fərq var. İstər milli, istərsə də qlobal səviyyədə hazırlıq imkanlarının artırılması istiqamətində fəaliyyətin sürətləndirilməsi vacibdir.

"Təşviş və etinasızlıq" dövrünə son qoymaq üçün dünya hadisədən sonra reaksiya verən mövqeyindən çəkilməlidir.

Əvəzində biz səylərimizi bütün cəmiyyət səviyyəsində müxtəlif sahələri əhatə edən, çoxtərəfli fəaliyyətə əsaslanan uzunmüddətli hazırlığa yönəltməliyik.

Zati-aliləri, COVID-19 ilə mübarizədə nümayiş etdirdiyiniz liderlik və əzmkarlığınıza görə Sizə bir daha minnətdaram.

Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatı ilə əməkdaşlığa, onun üzvlərinin COVID-19 ilə mübarizəsinə dəstək verilməsinə və mühüm prinsiplərdən olan çoxtərəflilik, milli birlik və qlobal həmrəyliyə sadiqdir.

Hərəkatın təsisçilərinin baxışına uyğun olaraq və Qoşulmama Hərəkatının dəstəyi ilə biz bərabər, dinc və firavan dünya yarada və hər kəsə sağlamlığın bəxş edilməsi kimi mühüm məqsədimizə daha yaxşı şəkildə çata bilərik.

Təşəkkür edirəm.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun, cənab Baş direktor. İndi isə sözü Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamata verirəm.

### Musa Faki Mahamatın çıxışı

- Mən əvvəlcə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm. Demək istəyirəm ki, dünyanın bütün ölkələri öz sərhədləri daxilində bu çağırışlarla üz-üzə qalıblar.

Xanımlar və cənablar, Zati-aliləri.

Virusun geniş yayılması bu ilin əvvəlində baş verdi. Əfsuslar olsun ki, bəzi gözlənilməz hallar və meyillər tüğyan etdi, yayıldı. Biz bu halda məhz çoxtərəfli müttəfiqlik və tərəfdaşlığı, yardımı qurmağa müvəffəq olduq. Bu, Afrika qitəsində yaşayan əhaliyə lazımdır və biz bunun şahidi olmuşuq. Bu çoxtərəfli tərəfdaşlıq baş tutubdur. Biz Bandunq prinsiplərində olduğu kimi, üzv dövlətlər arasında həmrəyliyin, dostluğun öz təzahürünü tapması üçün əlimizdən gələni etmişik. Həmçinin əvvəlki vaxtlarda olduğu kimi - fövqəladə hallarda, cinayətkarlığın yayılmasının qarşısının alınması, təbii fəlakətlərin fəsadlarının aradan qaldırılmasında birgə olmuşuq. İndi isə biz həmin həmrəyliyi bu istiqamətdə də davam etdirməliyik. Lakin bu, bir neçə həftənin, ayın işi deyil. Bu, bizim hamımızdan kollektiv tədbirlərin görülməsini tələb edir. Biz hamımız birlikdə olmasaq, səfərbər olmasaq qalib gələ bilmərik.

Qarşımızda bir faktdır ki, Qoşulmama Hərəkatının oynadığı rol danılmazdır, fundamentaldır, əhəmiyyətlidir. Həm ikitərəfli, həm çoxtərəfli qaydada tərəfdaşlıq, o cümlədən BMT ilə olan işçi münasibətlərimiz bizdən onu tələb edir ki, biz əl-ələ verib birgə addımlayaq. Bu virusa qarşı bütün dünya miqyasında aparılan mübarizəyə gəldikdə, istənilən hər hansı siyasi sərhədləri, hər hansı bir ideologiyanı, məfkurəni kənara qoymalıyıq. Biz nümayiş etdirməliyik ki, birgə işləməklə necə böyük ülvi məqsədlərə xidmət edən millətlərik, dövlətlərik. Bizim hamımızdan, hər birimizdən bu tələb olunur. Mövcud şərait göz qarşısındadır. Elə bir mərhələdir ki, biz güclü olmalıyıq, yalnız birlikdə olaraq ən yoxsul ölkələrə kömək edə bilərik.

Mən fürsətdən istifadə edərək Ümumdünya Səhiyyə Təşkilatını fəaliyyətinə görə təbrik edirəm, onların əldə etdiyi nəticələri təqdir edirəm. Mən Afrika İttifaqı adından bildirmək istəyirəm ki, bu gün pandemiyanın qarşısının alınması üçün bizim də özümüzə məxsus strategiyalarımız formalaşıb. Onun iki sütunu var. Birincisi, səhiyyə, ikincisi isə sosial-iqtisadi sütun. COVID-19-a qarşı mübarizəni daha sonra hansı şəkildə aparacağımızla bağlı bizim planlarımız tərtib olunubdur. Hesab edirik ki, bu plan icra olunarsa, Afrika qitəsində bizim mübarizəmiz daha ciddi şəkildə güclənəcək. Regionumuzda olan vəziyyətlə tam tanışıq. Biz bilirik ki, hansı vəsaitlər toplanılmalıdır, hansı xam materiallar istifadə olunmalıdır. Bununla bağlı bizim ciddi əlaqələrimiz qurulubdur ki, hər hansı bir fasilə olmasın. Bu gün minlərlə müəssisə müflis olubdur. İnsanlar bu fəsadlardan davamlı şəkildə əziyyət çəkirlər. İstərdik ki, biz bundan sonra da Qoşulmama Hərəkatının timsalında dəstəyi görək, onu alaq və əhaliyə çatdıraq. Pandemiyanın qarşısının vaxtında alınması üçün Afrika dövlətlərinə, xüsusən də bəzi ölkələrə bu dəstək göstərilsin. Əgər bu olmasa, həmin dövlətlər üçün fəsadlar çox ağır olacaqdır. Afrika nəinki öz imkanlarına, həmçinin öz tərəfdaşlarının dəstəyinə arxalanır.

Biz beynəlxalq əməkdaşlığa hazırıq, buna açığıq. Biz tərəfdaşlarımızla birgə bu həmrəyliyin şahidi oluruq. Mən burada Çinin və Kubanın dəstəyini qeyd etmək istəyirəm. Onlar bizə ləvazimat yardımı göstərmişlər. Bu yardım Afrika dövlətlərinə çatdırılmışdır.

Xanımlar və cənablar, Zati-aliləri, dünya çox keşməkeşli bir vaxtını yaşayır. Biz bilirik ki, mövcud şərait böyük problemlər yaradır, bir sıra ölkələrdə bu, siyasi hadisələrə səbəb olur. Biz bu halda bütün maraqlarımızı kənara qoyub həmrəylik nümayiş etdirməliyik. Belə bir vaxtda mən bütün dünyaya müraciət edərək bildirmək istəyirəm ki, bütün siyasi və iqtisadi ölçüləri kənara qoyub, bu işlərin qarşısının alınmasında bizə dəstək göstərilsin və Afrika qitəsi bundan yararlansın. Çox sağ olun.

* * *

**Prezident İlham ƏLİYEV:** İndi isə mən sizi Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borelin videomüraciətini dinləməyə dəvət edirəm.

### Cozef Borelin videomüraciəti

- Avropa İttifaqı adından qarşınızda çıxış etmək üçün məni dəvət etdiyinizə görə minnətdaram. Əgər, nə zamansa, dünyanın müxtəlif guşələrinin biri-birindən hansı şəkildə bağlı olduğunu bilmək istəyirdiksə, COVID-19 bunu özü göstərdi. Bu, oyanış üçün qlobal çağırışdır. Pandemiyanın dünyanın müxtəlif yerlərində tüğyan etdiyi bir zamanda heç kəs heç bir ölkədə, heç bir regionda özünü təhlükəsiz hiss etməyəcək. Mən əlaqələndirilmiş, çoxtərəfli yanaşmaya dəstək vermək üçün bu Zirvə görüşünü keçirdiyinə görə Qoşulmama Hərəkatının təşəbbüsünü alqışlayıram. Pandemiyanın məğlub edilməsi qlobal yanaşmanı və əlaqələndirilmiş cavab tədbirlərini tələb edir. Lakin əgər biz davamlı qlobal bərpanı görmək istəyiriksə, onda yeni və innovativ çoxtərəfli tərəfdaşlıq vacib olacaq. BMT səviyyəsində cavab tədbirlərinin əlaqələndirilməsinə və qlobal miqyasda atəşkəs çağırışlarına gəldikdə, Avropa İttifaqı BMT-nin Baş katibinin göstərdiyi səyləri tam dəstəkləyir. Bu, münaqişələrin qarşısının alınması, sülh quruculuğu və onun möhkəmləndirilməsi baxımından sülh və təhlükəsizlik gündəliyinin yenidən canlandırılması üçün fürsətdir. Aztəminatlı əhali üçün humanitar yardıma çıxış əlyetən olmalıdır.

Ümumdünya Səhiyyə Təşkilatı virusun yayılmasının qarşısının alınmasında çox mühüm rol oynayır. Avropa İttifaqı dünyada fövqəladə səhiyyə vəziyyətinin yarandığı dövrdə çoxtərəfli sistem daxilində Ümumdünya Səhiyyə Təşkilatının rolunu dəstəkləmək və qorumaq üçün lazımi resursları səfərbər etməkdə davam edəcək. Digər ölkələrdən və regional qruplardan dəstək almaq üçün mayın 18-də Dünya Səhiyyə Məclisində COVID-19-la bağlı qətnaməmizin layihəsinin təkan gücündən istifadə ediləcək. Mən bu təklifin dəstəklənməsi üçün burada bu gün təmsil olunmuş ölkələrə müraciət edirəm.

Hazırkı pandemiyanın aradan qaldırılması və gələcək epidemiyalara müqavimətin qurulması bir-biri ilə yanaşı getməlidir. Biz Ümumdünya Səhiyyə Təşkilatının və digər qlobal səhiyyə təşkilatlarının hərəkətə keçmək çağırışlarını alqışlayırıq ki, təhlükəsiz, keyfiyyətli, səmərəli və əlçatan diaqnostikaya, müalicəyə və koronavirusa qarşı peyvəndlərə ədalətli, universal və bərabər çıxış formalaşdırılsın. Ümumiyyətlə, Avropa İttifaqı və onun üzv dövlətləri Ümumdünya Səhiyyə Təşkilatının ən iri donorlarıdır.

Avropa İttifaqı təkcə 2019-cu ildə təşkilata 146 milyon avro ayırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına maliyyə dəstəyini gücləndiririk. Avropa İttifaqı bu gündən - 4 maydan etibarən 7,5 milyard avro həcmində vəsaitin toplanılması üçün digər qurumlara qoşulur.

Təxirəsalınmaz ictimai səhiyyə çağırışları ilə bərabər, beynəlxalq cavab tədbirləri insanları diqqətdə saxlamalı, bərabərsizlik aradan qaldırılmalı və hamı üçün insan hüquqlarını müdafiə etməlidir. Biz qlobal nəqliyyat və ticarət sistemində işin pozulmalarını minimal həddə salmalıyıq və ixraca məhdudiyyətlər tətbiq etməməliyik. Xüsusən də ərzaq və tibb ləvazimatlarında təchiz xəttində ümumi düsturdan istifadə etməliyik. Əvvəlcə söylədiyim kimi, bu pandemiya sərhəd tanımır. Bizim Avropada faciəvi surətdə ilkin təcrübəmiz olub. Biz bütün Avropa İttifaqı ölkələrində bu böhranın yaratdığı ciddi sosial və iqtisadi itkiləri aradan qaldırmalıyıq. Bununla belə, bu, bizi pandemiyaya qarşı qlobal mübarizəyə böyük töhfənin verilməsində çəkindirməli deyil və çəkindirmir.

Bizim "Avropa heyəti" adlı paketimiz tərəfdaş ölkələrə dəstək verəcək və xüsusən də Afrikada ən zəif ölkələrə bugünə qədər 20 milyard avrodan çox vəsait verilib. Bu gün sizin məqsədiniz üzv ölkələr arasında əsas ehtiyaclar və tələblər üzrə məlumat bazasının qurulmasından ibarətdir. Həmin məqsəd mümkün qədər səmərəli şəkildə Avropa İttifaqının bu baxımdan səylərinin təmin edilməsinə yardımçı ola bilər. Biz insan sağlamlığının və planetimizin durumunun bir-biri ilə necə bağlı olduğunu və mövcud bərabərsizliklərin bizi daha da zəiflətdiyini anlamağa başlayırıq. Bir sözlə, gəlin, bundan özümüz üçün dərs götürək. Aydındır ki, biz daha çox iş görməliyik. İndi heç zaman görünmədiyi kimi, biz 2030-cu ilə olan Gündəliyin tam icrasına və iqlim dəyişikliyi ilə bağlı "Paris sazişi"nə gəldikdə ümumi səylərimizə diqqət yetirməliyik.

*Ardı 4-cü səh.*

# İlham Əliyev növbəti qlobal təşəbbüsü ilə tarix yazdı

## *Dövlətimizin başçısı Bakıdan dünyaya çağırış etdi:* "Yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik"

*Əvvəli 3-cü səh.*

Gəlin, bu fürsətdən istifadə edək ki, sabahın dünyası daha mükəmməl olsun. Müxtəlifliyin zənginliyini özündə tərənnüm edən dünya mövcud olsun. Vətəndaşlarımız və planetimiz qorunsun. Biz birlikdə daha səmərəli ola bilərik. Bunu nümayiş etdirmək bizim məsuliyyətimizdir.

Pandemiyaya qarşı birgə mübarizənin aparılması bərpa mərhələsində və pandemiyadan sonra daha səmərəli dünyanın qurulmasında daha güclü, çoxtərəfli əməkdaşlıq üçün əsas yol olacaq. Biz Avropa İttifaqı olaraq bu məqsədlə bütün tərəfdaşlarla işləməyə hazırıq və işləməyi arzulayırıq.

* * *

Sonra Əfqanıstan İslam Respublikasının Prezidenti **Məhəmməd Əşrəf Qani,** Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti **Abdelmacid Tebbun,** Kuba Respublikasının Prezidenti **Migel Diaz-Kanel,** Misir Ərəb Respublikasının Prezidenti **Əbdülfəttah əs-Sisi,** İndoneziya Respublikasının Prezidenti **Coko Vidodo,** İran İslam Respublikasının Prezidenti **Həsən Ruhani,** Mavritaniya İslam Respublikasının Prezidenti **Məhəmməd uld Qazuani,** Nikaraqua Respublikasının Prezidenti **Daniel Orteqa,** Nigeriya Federativ Respublikasının Prezidenti **Muhammadu Buhari,** Pakistan İslam Respublikasının Prezidenti **Arif Alvi,** Fələstin Dövlətinin Prezidenti **Mahmud Abbas,** Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti **Qotabaya Racapaksa,** Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri **Abdel Fattah Abdelrahman Al-Burhan,** Cənubi Afrika Respublikasının Prezidenti **Siril Ramafosa,** Toqo Respublikasının Prezidenti **Faure Qnassinqbenin** müraciətini oxuyan bu ölkənin Səhiyyə və İctimai Gigiyena naziri **Mustafa Mljiyava,** Türkmənistan Prezidenti **Qurbanqulu Berdiməhəmmədov,** Venesuela Bolivar Respublikasının Prezidenti **Nikolas Maduro,** Zimbabve Respublikasının Prezidenti **Emmerson Mnanqaqva,** Namibiya Respublikasının Vitse-prezidenti **Nanqolo Mbumba,** Belarus Respublikasının Baş Naziri **Sergey Rumas,** Efiopiya Federativ Demokratik Respublikasının Baş Naziri **Abiy Əhməd,** Hindistan Respublikasının Baş Naziri **Narendra Modi,** Malayziyanın Baş Naziri **Muhiddin Yassin,** Nepal Federativ Demokratik Respublikasının Baş Naziri **Şarma Oli,** Vyetnam Sosialist Respublikasının Baş Naziri **Nquyen Xuan Fuk,** Bəhreyn Krallığının Baş Nazirinin müavini **Şeyx Məhəmməd Bin Mübarək Əl Xəlifə,** Banqladeş Xalq Respublikasının Xarici İşlər naziri **Abdul Momen,** Qambiya Respublikasının Xarici İşlər naziri **Mamadou Tanqara,** Qana Respublikasının Xarici İşlər və Regional İnteqrasiya naziri **Şirli Ayorkor Botçvey,** Küveyt Əmirliyinin Xarici İşlər naziri **Əhməd Nasir Əl-Məhəmməd Əl-Sabah,** Mavriki Respublikasının Xarici İşlər naziri **Nankoomar Bodha,** Mərakeş Krallığının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri **Nasser Bourita,** Uqanda Respublikasının Xarici İşlər naziri **Sam Kahamba Kutesa,** İordaniya Haşimilər Krallığının Baş Nazirlik üzrə Dövlət naziri **Sami Davud** çıxış etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşünə yekun vurdu.




## Prezident İlham Əliyevin yekun çıxışı

- Mən bütün çıxışçılara təşəkkür edirəm. Gündəliyimizin növbəti müddəasına keçirik. Bu da Yekun Bəyannaməmizin qəbul edilməsidir. Bəyannamə artıq razılaşdırılıb. Bu səbəbdən Bəyannaməni bununla da qəbul olunmuş hesab edirik. Konstruktiv iştiraka və Bəyannamənin qəbulunda göstərdiyiniz münasibətə görə təşəkkür edirəm.

Hörmətli tədbir iştirakçıları, bizim dəvətimizi qəbul edərək Zirvə görüşündə iştirak etdiyinizə görə sizin hamınıza bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm.

Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir.

Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır.

Əminəm ki, bu gün dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən edilən çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizə töhfə verəcəkdir.

Eyni zamanda, bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması məqsədilə pandemiyadan sonrakı dövr üçün iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız faydalı olardı.

Zirvə görüşü Qoşulmama Hərəkatının digər beynəlxalq təsisatlar və dünya birliyi ilə əməkdaşlığa hazır olduğunu göstərdi. Hesab edirəm ki, müzakirələrimiz həm də Təmas Qrupu formatının səmərəli bir mexanizm olduğunu nümayiş etdirdi. Gələcəkdə Təmas Qrupunun tematik alt işçi qrupları da təsis edilə bilər.

Bir daha əminliyimi bildirmək istərdim ki, biz birlikdə pandemiyaya qalib gələcəyik.

Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşünü bağlı elan edirəm. Təşəkkür edirəm.

* * *

Qeyd edək ki, Qoşulmama Hərəkatında 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq, Zirvə görüşü coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında keçirilib.

Xatırladaq ki, 2019-cu il oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə Azərbaycanda keçirilib. Üzv dövlətlərin yekdil dəstəyi və razılığı ilə 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatının sədrliyini Azərbaycan Respublikası öz üzərinə götürüb. Çoxtərəfli diplomatiyanın təşviq edilməsi, Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi Prezident İlham Əliyev tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin prioritetlərindən biri kimi müəyyən edilib.

Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə bu il aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü də keçirilib. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirib. Qeyd olunan tədbirlər qlobal səviyyədə beynəlxalq həmrəyliyin daha da möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli töhfədir.

Beləliklə, Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın güclendirilməsinə əhəmiyyətli töhfəsini verir.

## COVID-19-a cavab olaraq Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşünün

## B Ə Y A N N A M Ə S İ

*Əvvəli 1-ci səh.*

6. Pandemiyanın misli görünməmiş təsirlərini, o cümlədən cəmiyyətlərə və iqtisadiyyatlara, eləcə də qlobal səyahətə və ticarətə ciddi zərər verdiyini və insanların yaşayışına dağıdıcı təsirini tanıyırıq.

7. Həmçinin pandemiya nəticəsində ən yoxsul və ən kövrək təbəqələrin ağır şəkildə zərər çəkdiklərini və böhranın təsirinin çətinliklə əldə edilmiş inkişaf nailiyyətlərinin üstündən xətt çəkəcəyini və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində irəliləyişə mane olacağını qəbul edirik.

8. Mərkəzində Birləşmiş Millətlər Təşkilatı olmaqla multilateralizmə dəstəyimizi bir daha ifadə edir, BMT-nin Nizamnaməsindən və Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyindən qaynaqlanan beynəlxalq əməkdaşlıq və multilateralizm dəyərlərinin qorunub saxlanmasının və möhkəmləndirilməsinin BMT-nin 3 sütununun - sülh və təhlükəsizlik, inkişaf və insan hüquqlarının təşviqi və dəstəklənməsində fundamental olduğunu qəbul edirik.

9. Dövrümüzün ən böyük humanitar böhranı və fövqəladə səhiyyə vəziyyəti olan COVID-19 pandemiyası səbəbindən getdikcə artan problemlərə beynəlxalq ictimaiyyətin səmərəli cavabını təmin etmək məqsədilə məsləhət, təlim, avadanlıq və insan həyatını xilas edən xidmətlər də daxil olmaqla ön xətdə hazırda oynadığı kritik rol və rəhbərliyi tanıyaraq ÜST və onun rəhbərliyinə tam dəstəyimizi ifadə edirik.

10. Birləşmiş Millətlər Təşkilatının üzv dövlətlərini milli, regional və beynəlxalq səviyyələrdə bu bəlaya qarşı mübarizə aparmaq istiqamətində əməkdaşlıqlarını möhkəmləndirməyə çağırırıq.

11. Xüsusi vurğulayırıq ki, bu tip qlobal fövqəladə vəziyyət qarşısında həmrəylik ruhu səylərimizin mərkəzində olmalıdır və dərman vasitələri, tibbi avadanlıq və materiallar, qidaya, təcrübə mübadiləsinə ehtiyacı olan insanların təmin edilməsi istiqamətində həmrəyliyin və başqalarının ehtiyacına laqeyd qalmamaqla əməkdaşlığın üstün gəldiyi yerdə yüksək səviyyəli etik və humanist yanaşma tələb olunur.

12. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüquqa zidd olaraq Hərəkata üzv dövlətlərə qarşı tətbiq olunan birtərəfli məcburiyyət tədbirlərinin elan olunması və tətbiq edilməsini kəskin şəkildə pisləyir, beynəlxalq hüquqa uyğun olaraq belə tədbirlərdən zərər çəkən dövlətlərə dəstəyimizi ifadə edir və beynəlxalq ictimaiyyəti COVID-19 pandemiyasına milli cavabların səmərəliliyini təmin etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və ya beynəlxalq hüququn prinsipləri ilə ziddiyyət təşkil edən belə tədbirlərin istifadəsinin ləğv edilməsi istiqamətində təcili və səmərəli tədbirlərin qəbul edilməsinə çağırırıq.

13. Məlumat, elmi bilik və ən yaxşı təcrübə mübadiləsi ilə və ÜST tərəfindən tövsiyə olunan müvafiq qaydaları tətbiq etməklə, pandemiyanın nəzarətdə saxlanması, azaldılması və məğlub edilməsi üçün intensivləşdirilmiş beynəlxalq əməkdaşlığa çağırırıq.

14. Üzv dövlətlərin iqtisadiyyatlarına pandemiyanın mənfi təsirlərinin qarşısını almaq üçün birgə səylərin göstərilməsinin vacibliyini vurğulayırıq.

15. COVID-19 nəticəsində yaxınlarını itirmiş ailələrə dərin hüznlə başsağlığı verir və hazırda COVID-19 ilə mübarizə aparan və müalicə olunan bütün insanlarla həmrəy olduğumuzu bildiririk.

16. Tibbi heyətin və səhiyyə işçilərinin bu humanitar fövqəladə vəziyyətdə böyük töhfələrinə və fədakarlıqlarına görə minnətdarlığımızı bildiririk.

17. Sədrlik tərəfindən mümkün dəstək və kömək üçün bütün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara, beynəlxalq maliyyə institutlarına, sosial məsuliyyət layihələri həyata keçirən transmilli özəl təsisatlara və başqalarına təqdim olunacaq Qoşulmama Hərəkatı üzv dövlətlərinin əsas humanitar, tibbi ehtiyac və tələbatlarını ehtiva edən məlumat bazasının işlənməsi məqsədilə Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılmasını qərara aldıq.

18. Bu vaxtında və dəyərli görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdiyi üçün Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk.

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər



# “Siz xalqımızın xilaskarısınız”

Azərbaycan Prezidenti İlham Əliyevin koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması, xalqımızın sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması ilə bağlı atdığı qətiyyətli addımlar vətəndaşlarımız tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanır.

AZƏRTAC Prezidentin saytına istinadla minnətdarlıq məktublarının bir neçəsini təqdim edir.

Salyan rayonu N.Xəlilov adına Qarabağlı kənd tam orta məktəbinin şagirdləri **Rəşidə Zeynallı** və **Rəşid Zeynallı** yazırlar: “Hörmətli cənab Prezident, dünyanın qorxu və təlaş içində olduğu bir zamanda Azərbaycanda yaşamağımıza görə sevinc hissi keçiririk. Bu çətin günlərdə xalqımıza arxa duraraq Vətənimizə layiqli Prezident olduğunuzu bir daha sübut etdiniz. Sizin uzaqgörənliyiniz, yüksək idarəçilik qabiliyyətiniz bizi valeh etdi. Sizin çağırışlarınıza canla-başla əməl edirik. Sizə Salyan rayonunun bütün məktəbliləri adından dərin təşəkkürümüzü bildiririk. Sizin bu qayğınıza cavab olaraq biz də dərslərimizi daha yaxşı oxuyacaq, Vətənimizə, Sizə layiqli övlad olacağıq”.

Goranboy rayonunun Qarqucaq kəndindən Milli Qəhrəman ailəsinin üzvü **İlham Nəcəfov:** “Zati-aliləri cənab Prezident, biz Sizin apardığınız siyasəti bəyənir və alqışlayırıq. Siz pandemiya dövründə bir daha göstərdiniz ki, daim xalqın yanındasınız. Aztəminatlı, şəhid və Milli Qəhrəman ailələrinə daim diqqət və qayğı göstərməklə bir daha sübut etdiniz ki, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısısınız. Biz Milli Qəhrəman ailəsi olaraq daim Sizin qayğı və diqqətinizi hiss etmişik. Cənab Prezident, əminəm ki, Sizin Ali Baş Komandan kimi apardığınız ordu quruculuğu sayəsində milli ordumuz və xalqımız erməni mənfurlarını işğal edilmiş ərazilərimizdən qovub çıxararaq Azərbaycan bayrağını o torpaqlarda dalğalandıracaq. Son dövrlərdə apardığınız siyasət və kadr islahatları xalqın böyük rəğbətini qazanıb. Təhsilə göstərdiyiniz qayğı əvəzolunmazdır. Aztəminatlı ailələrdən olan tələbələrin təhsil haqlarının dövlət tərəfindən ödənilməsi ölkədə savadlı gənc nəslin yetişdirilməsi yolunda atılmış mühüm addımlardan biridir və bu, göstərir ki, Siz daim xalqın yanında olan Prezidentsiniz. Biz Milli Qəhrəman və şəhid ailəsi olaraq Sizin qayğınızı daim hiss etmişik. Cənab Prezident, mən bir müəllim olaraq Sizinlə qürur duyuram. Apardığınız daxili və xarici siyasəti ailəliklə bəyənir, Sizə uzun ömür, cansağlığı arzulayırıq”.

Sabirabad rayonunun Zəngənə kəndindən **Əfras Əsgərov:** “Cənab Prezident, koronavirus pandemiyasının bütün dünyanı bürüdüyü bir vaxtda Sizin tərəfinizdən atılmış qabaqlayıcı addımlar nəticəsində ölkəmiz bu bəladan cüzi itkilərlə çıxmaq üzrədir. Buna görə Sizə xüsusi təşəkkür edirəm. Bir daha ona görə təşəkkür edirəm ki, yaşadığımız karantin günlərində Sizin göstərişinizə əsasən aqrar sahədə çalışan şəxslərə xüsusi diqqət və qayğı göstərildi, eyni zamanda fəaliyyətimizə heç bir məhdudiyyət qoyulmadı. Mən 70 hektar taxıl sahəmi rahat suvardım, gübrələmə və dərmanlama işlərini normal apardım, Sabirabad və Kürdəmir rayonları ərazilərində əkəcəyim 170 hektar pambıq sahəsində normal arat apara bildim. Bu günədək həmin sahələrin 100 hektarında çiyid səpini işlərini aparmışam və bəzi sahələrdə çıxış almışam. Nəzərinizə çatdırım ki, həmin pambıq sahələrindən 120 hektarını özüm düzəltdiyim xüsusi səpin aqreqatı vasitəsilə Çin (qoşacərgə) üsulu ilə əkirəm. Cənab Prezident, 4 il bundan qabaq pambıqçılığın inkişafı təşəbbüsü ilə keçirdiyiniz müşavirə şəxsən mənim və digər pambıqçıların həyatında çox əhəmiyyətli rol oynadığı üçün Respublika Fermerlər Şurasının üzvü kimi Sizə dərin minnətdarlığımı bildirirəm. Bir daha təşəkkürlər, cənab Prezident. Sağ olun”.

Ağcabədi rayonunun Kürdlər kəndindən **Səringül İbrahimova:** “Hörmətli cənab Prezident, bu məktubu Sizə Ağcabədi rayonunun Kürdlər kəndindən yazıram. Dünyada koronavirusun yayıldığı dövrdə Sizin ölkəmizdə həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan bu təhlükəli bəladan xilas olmaq üzrədir. Lazımi anda karantin rejimini tətbiq etməyiniz bir daha onu göstərdi ki, xalqımızın sağlamlığı, rifahı Sizin üçün ən vacib məsələlərdən biridir və daim diqqətinizdədir. Cənab Prezident, Allah Sizə və ailənizə uzun ömür, cansağlığı qismət etsin. Xalqımızın və dövlətimizin başı üzərindən əskik olmayasınız. Sizə təşəkkürümü bildirir, hər zaman yüksək əhvali-ruhiyyə, sevinc dolu günlər arzulayıram”.

Binəqədi rayonundan Qarabağ müharibəsi veteranı **Abbas Quliyev:** “Hörmətli cənab Prezident ölkəmizdə koronavirus infeksiyasının qarşısının alınması məqsədilə qəbul etdiyiniz qərarlar və gördüyünüz tədbirlər nəticəsində Azərbaycanda genişmiqyaslı işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan dövləti öz vətəndaşlarının sağlamlığını qoruyub saxlaya bilməkdədir. Mən bir Qarabağ müharibəsi veteranı olaraq Sizin verdiyiniz qərarları alqışlayıram. Sizə bu çətin və şərəfli yolda uğurlar arzulayıram. Ailəmiz adından Sizə minnətdarlığımı bildirirəm. Biz həmişə Sizinləyik”.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tərtər regional bölməsinin üzvləri **Vidadi Məmmədzadə, Mətləb Əliyev, Sətər Məmmədov, Ayaz Məmmədov** və **Nizami Heydərov** yazırlar: “Cənab Prezident, əvvəla Sizin və ailənizin Ramazan bayramınızı təbrik edirik. Hazırda inkişaf etmiş ölkələr belə pandemiyadan gündəlik minlərlə insan itkisi ilə üzləşdiyi halda Sizin müdrikliyiniz, hadisələri zamanında düzgün qiymətləndirməyiniz sayəsində Azərbaycan xalqı bu ümumbəşəri bəladan ən az yoluxma və itkilərlə çıxmaqdadır. Çünki Siz bizləri, xalqı ailəniz olaraq gördünüz, bu günlərdə diqqət və qayğınızı vətəndaşlarımızdan əsirgəmədiniz. Cənab Ali Baş Komandan, Vətənimiz və xalqımız üçün etdikləriniz əsrlər boyu insanların qəlbində yaşayacaq. Sizin xalqınıza olan böyük sevginiz, milli mentalitetə dərin bağlılığınız tərəfimizdən yüksək dəyərləndirilir. Cənab Prezident, biz Çernobıl bəlasını, Əfqanıstan müharibəsini, birinci Qarabağ müharibəsini və hazırda bəşəriyyəti qorxuya salan pandemiyanı görmüş və yaşamış insanlar olaraq xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə təmsil etdiyimiz ictimai birliklərin üzvləri adından Sizə səmimi-qəlbdən təşəkkür edir, dərin minnətdarlığımızı bildiririk”.

Qubadlı rayonundan məcburi köçkün **İsmayıl Məmmədov:** “Möhtərəm cənab Prezident, koronavirus epidemiyasının tüğyan etdiyi günlərdə Sizin Azərbaycan xalqının arxasında dayanmağınız hər bir vətəndaşın Prezidenti olduğunuzun bariz nümunəsidir. Buna görə Sizə dərin təşəkkürümü bildirirəm. İnanıram ki, Sizin düşünülmüş xarici siyasətiniz nəticəsində Azərbaycanın üçrəngli bayrağı işğaldan azad olunacaq Qarabağ torpağında, Qubadlıda dalğalanacaqdır. Allah Sizi qorusun!”

Cəbrayıl rayonundan məcburi köçkün **Nüsrət Muradov:** “Cənab Prezident, dünyanı çənginə almış koronavirus pandemiyasının geniş yayıldığı bir dövrdə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdarlığımı bildirirəm. Cənab Prezident, Sizin tapşırığınızla yaşı 65-dən yuxarı olan vətəndaşlara, işsiz və aztəminatlı ailələrə 190 manat məbləğində birdəfəlik ödənişin edilməsi, yeni ictimai iş yerlərinin açılması onu göstərir ki, yürütdüyünüz siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun rifahı dayanır. Ölkə vətəndaşlarının rifahının yüksəldilməsi, onların sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Gündən-günə çiçəklənən və inkişaf edən Azərbaycanımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq. “Biz birlikdə güclüyük!”

Bakının Qaradağ rayonundan şagird **Ayxan Abdullayev:** “Əziz Prezidentimiz, mən Qaradağ rayonu 139 nömrəli tam orta məktəbin 9”b” sinif şagirdiyəm. Hazırda bütün dünyada yayılan koronavirus pandemiyası ilə mübarizədə Sizin rəhbərliyinizlə ölkəmizdə böyük işlər görülür. Həmişə olduğu kimi, bu çətin günlərdə də xalqın yanında olduğunuza görə şəxsən öz adımdan və valideynlərimin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin rəhbərliyinizlə biz bu mübarizədən üzüağ, alnıaçıq çıxacağıq. Sizin kimi rəhbərimizin olmağı ilə fəxr edir, qürur duyuruq. Sizə Allahdan uzun ömür, cansağlığı arzu edirəm”.

Qubadlı rayonundan məcburi köçkünlər **Vüsalə Hacıyeva, Pərvanə Dünyamalıyeva** və **Nüşabə Hüseynova:** “Hörmətli cənab Prezident, dünyanı bürüyən və insanları gərginlik içində saxlayan bu ağır pandemiya dövründə xalqımıza göstərdiyiniz qayğıya və diqqətə, həmçinin aztəminatlı ailələrə verilən birdəfəlik müavinətlərə və sovqatlara görə Sizə şəxsən öz adımızdan və ailələrimiz adından dərin minnətdarlığımızı bildiririk. Bütün bunlar bir daha onu göstərir ki, Prezidentimiz heç bir vaxt xalqdan öz diqqətini əskik etmir. Öz xalqına daim sahib çıxan, onun sağlamlığını hər şeydən üstün tutan Prezidenti alqışlamaq və dəstəkləmək lazımdır. Əziz Prezidentimiz, məsuliyyətli və şərəfli işinizdə Sizə daim uğurlar arzulayırıq”.

Bərdə rayonundan şagird **Sakit Səlimov:** “Əziz və hörmətli Prezidentim, mən ailəmizin və milyonlarla insanın adından Sizə dərin təşəkkürlərimi bildirirəm. Bütün dünyanı çənginə almış koronavirus pandemiyası bizdən də yan keçmədi. Lakin Sizin vaxtında gördüyünüz tədbirlər nəticəsində xalqımız bu sınaqdan da üzüağ çıxdı. Vətənə xidmətin rütbəsi və yaşı yoxdur. Ali Baş Komandanımızın qoyduğu qərarlara hər bir vətəndaşımız layiqincə yanaşmalıdır. Fədakar həkimlərimiz, yorulmaq bilməyən polislərimiz, səngərlərdə ayıq-sayıq dayanan hərbçilərimiz, sıravi vətəndaşlarımız hamısı birlikdə öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Cənab Prezident, biz inanırıq ki, Sizin yürütdüyünüz siyasətlə xalqımız koronavirus bəlasından, torpaqlarımız isə erməni viruslarından tezliklə azad olacaq”.

Abşeron rayonundan Əməkdar müəllim **Təyyibə Hüseynova:** “Əziz Prezidentimiz, dünyamız üçün çox çətin olan bu dövr bir daha sübut etdi ki, Siz xalqımızın xilaskarısınız. Ən gərəkli vaxtda bir rəhbər, bir ata, bir oğul və bir qardaş kimi Azərbaycan vətəndaşının yanında oldunuz. Siz həyəcan təbilini erkən çalaraq dünyanın nəhəng ölkələrinin edə bilmədiyini etdiniz. Sizin uzaqgörənliyinizin, dərin zəkanızın nəticəsində xalqımız bu bəladan az itkilərlə sovuşmaqdadır. Xarici televiziya kanallarının Azərbaycanda pandemiyaya qarşı gedən mübarizədən ağızdolusu danışmaları, beynəlxalq təşkilatların Sizə etdiyi təşəkkürlər bizi qürurlandırır. Bir təhsil işçisi olaraq bildirmək istəyirəm ki, bizə olan diqqət və qayğınıza müəllimlər öz fədakar əməkləri ilə cavab verərək evdə qalıb şagirdlərini bir an belə unutmur, yaradılan şəraitdən istifadə edərək onlayn dərslər keçirlər. Möhtərəm cənab Prezident, xalqımızın Sizə olan sevgi və hörmətinin həddi-hüdudu yoxdur. Bu əziz Ramazan günlərində bütün dualarımız Sizinlədir. Allah Sizi və canınız qədər sevdiyiniz Azərbaycanımızı qorusun! Sizə sağlıqlı və uğur dolu uzun ömür arzu edirik”.

Bakıda fəaliyyət göstərən M.Maqomayev adına 26 saylı musiqi məktəbinin muğam müəllimi **Kamilə Abdullayeva:** “Hörmətli cənab Prezident, mən uzun illər xalqımızın milli sərvəti olan muğam sənətinin inkişafına xidmət edən bir ailənin üzvü kimi bu məktubu Sizə yazmaqdan böyük məmnunluq hissi duyuram. İlk olaraq onu qeyd edim ki, həyat yoldaşım mərhum xanəndə, muğam ustadı Vahid Abdullayev ömrünün böyük hissəsini muğam sənətinin təbliğinə və inkişafına sərf edib. Mən özüm də muğam təhsili aldığım üçün həyat yoldaşımın vəfatından sonra həm muğam sənətimizin təbliğ olunması, həm də bir xanəndə ailəsinin üzvü kimi həyat yoldaşımın sənət yolunu davam etdirmək üçün bir çox musiqi ocaqlarında muğam sənətini gənc nəslə təbliğ edirəm. Son illərdə ölkəmizin Birinci vitse-prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə muğam sənətinə artan maraq, dövlət miqyasında muğam sənətinin inkişafı naminə göstərilən diqqət muğama yeni həyat, yeni bir nəfəs verdi. Xüsusi olaraq vurğulamaq istərdim ki, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondunun Azərbaycan muğam sənətinin inkişafı və qorunması məqsədilə “Azərbaycan muğamları” layihəsi çərçivəsində “Qarabağ xanəndələri” musiqi albomunu nəşr etdirməsi və bu albomda həyat yoldaşım Vahid Abdullayevin də sənətinin və səs yazılarının yer alması ailəmizə və onun sənətinə verilən böyük bir dəyər kimi yüksək qiymətləndirirəm. Həmçinin böyük oğlum, gənc muğam ifaçısı Valid Abdullayev də atasının sənətini davam etdirir və o da elə məhz Mehriban xanımın muğam sənətinə qayğısının bir nəticəsi olaraq Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Televiziyasının təşkilatçılığı, Mədəniyyət Nazirliyinin iştirakı ilə Mədəniyyət Fondunun layihəsi əsasında reallaşan 6-cı muğam televiziya müsabiqəsinin qalibi olub. Bütün bunlar Sizin və hörmətli Mehriban xanımın sayəsində reallaşıb. Cənab Prezident, bu günlərdə isə ölkəmizdə yeni növ koronavirus infeksiyasının genişlənməsinin qarşısının alınması məqsədilə həyata keçirdiyiniz tədbirlər, aztəminatlı ailələrin sosial təminatının yaxşılaşdırılması və ümumiyyətlə, bu istiqamətdə atdığınız bütün addımlar dövlətimizlə vətəndaş arasında olan birliyin bariz nümunəsidir. Azərbaycan vətəndaşının sağlamlığı naminə gördüyünüz bu tədbirlərə görə həm öz adımdan, həm də ailəmizin adından Sizə minnətdarlığımı bildirir, şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Allah Sizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin!”

Səbail rayonundan **Xədicə Həsənova:** “Hörmətli Prezidentimiz cənab İlham Əliyev, Sizin rəhbərliyinizlə ölkəmizdə həyata keçirilən tədbirlər nəticəsində koronavirus infeksiyasının geniş yayılmasının qarşısı alınaraq insanların sağlamlığının qorunmasına nail olunub. Xüsusi karantin rejimində gördüyünüz tədbirlər dünya dövlətləri arasında Sizi uzaqgörən dövlət başçısı kimi bir daha təsdiqlədi. Sizin sayənizdə böyük dövlətlər virusla mübarizədə ölkəmizi nümunə gətirirlər. Bütün bu uğurların memarı Sizsiniz, cənab Prezident! Sizə məsuliyyətli və şərəfli işinizdə yeni uğurlar arzu edirəm. Azərbaycan xalqı Sizinlə güclüdür. Biz Sizə güvənirik və Sizin yanınızdayıq”.

Xocavənd rayonundan **Zahid Xəlilzadə:** “Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımız, Sizi səmimi-qəlbdən salamlayıram. COVID-19 virusu ilə mübarizədə ölkəmiz, Vətənimiz üçün gördüyünüz işlərə görə Sizə minnətdaram. Biz gənclərin sağlamlığını və təhlükəsizliyini nəzərə alaraq atdığınız addımlar bütün azərbaycanlılar kimi, məni də çox qürurlandırdı. Sizin xalqa bağlılığınız və vətənpərvərliyiniz biz gənclər üçün örnəkdir. Çox sağ olun ki, bizlərə qayğınızı əsirgəmirsiniz. Sizin “Biz birlikdə güclüyük!” çağırışınız bütün gənclərin şüarına çevrilib. Həqiqətən də, biz birlikdə güclüyük”.

Binəqədi Rayon Ağsaqqallar Şurasının üzvü **Məzahir Əhmədov:** “Hörmətli cənab Prezident, son vaxtlar dünyada bir kabusa çevrilən COVID-19 pandemiyası Azərbaycanda da müəyyən narahatlıq və təlaş yaratsa da, Sizin çevik və uzaqgörən siyasətiniz sayəsində epidemiyanın respublikamızda geniş miqyas almaması üçün vaxtında atılan qətiyyətli addımları xüsusi minnətdarlıq hissi ilə vurğulayırıq. Siz daim xalqınızı düşünən, onun rifahı naminə yorulmadan səy göstərən etibarlı lider olduğunuzu möhtəşəm fəaliyyətinizlə nümayiş etdirirsiniz. Xalqımız Sizə inanır, sonsuz etimad göstərir, Sizi sevir. Bütün dünyanın qarşısında aciz qaldığı pandemiya ilə mübarizədə Sizin rəhbərliyinizlə həyata keçirilən qətiyyətli və humanist tədbirlər xalqın Sizə olan sevgisini və inamını daha da artırdı. Xalqımızın birliyinə, həmrəyliyinə yeni nəfəs verən, bu məsuliyyətli dönəmdə səfərbər edən “Biz birlikdə güclüyük!” çağırışınız hamımızı qürurlandıran həyati şüara çevrildi. Ölkə vətəndaşlarının sağlamlığının etibarlı qorunmasının təşkili məqsədilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, qısa müddətdə müasir standartlara uyğun yeni tibb müəssisələrinin qurulması və istifadəyə verilməsi, zəruri tibbi avadanlıq və ləvazimatlarla təmin edilməsi, karantin rejiminin tətbiqi, yeni növ infeksiyanın genişlənməsinin qarşısının alınmasına profilaktik tədbirlər uğurlu nəticələrini göstərməkdədir. Sizin tapşırığınızla əhalinin aztəminatlı təbəqəsinin sosial təminatının yaxşılaşdırılması, virusla mübarizədə fədakarlıq göstərən səhiyyə işçilərinin əməkhaqlarının artırılması, pandemiya ilə əlaqədar işə gedə bilməyən şəxslərin əməkhaqqının saxlanılması, pandemiyadan zərər görən sahibkarlara verilən maliyyə dəstəyi, imkansız ailələrə yardımların edilməsi rəğbətlə qarşılanır. İnanırıq ki, koronavirus pandemiyası ilə mübarizədə bütün gücünüzü səfərbər edib xalqı bu çətin vəziyyətdən də çıxaracaqsınız. Cənab Prezident, müstəqil Azərbaycanın vətəndaşı olmağımdan keçirdiyim fəxarət hisslərini çatdıraraq, hər zaman çətin məqamlarda da xalqın yanında olduğunuza görə Sizə minnətdarlığımı bildirirəm. Ölkəmizin daha da inkişafı, gələcək nəsillərin xoşbəxtliyi naminə fəaliyyətinizdə uğurlar, Sizə və ailənizə cansağlığı, uzun ömür arzu edirəm”.

Salyan rayonunun Yeni Uluxanlı kəndindən tələbələr **Vüsalə Süleymanlı** və **Maqsud Müslümov:** “Hörmətli cənab Prezident, bu gün dünyanın böyük bir bəla ilə üz-üzə qaldığının şahidiyik. Dünyada inkişaf etmiş ölkələr belə qlobal pandemiya hesab olunan koronavirus infeksiyasının qarşısında acizdir və həmin ölkələrin minlərlə vətəndaşı bu xəstəliyə yoluxaraq dünyasını dəyişib. Lakin Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısı alındı və yüzlərlə vətəndaşımız müalicə olunaraq öz ailələrinə qovuşdu. Ölkəmizdə karantin dövründə vətəndaşlara maddi yardımların və 190 manat məbləğində birdəfəlik müavinətin verilməsi Sizin hər bir vətəndaşın Prezidenti olduğunuzu bir daha göstərdi. Vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə verdiyiniz qərarlar, görülən təxirəsalınmaz tədbirlər və Sizin xalqımızı həmrəyliyə çağırmağınız çox mühüm təşəbbüs və addımlardır. Cənab Prezident, Siz hər zaman vətəndaşların yanında olub onların sevincinə də, kədərinə də şərik çıxmısınız. Biz gənclər inanırıq ki, Sizin rəhbərliyinizlə bu çətin günlərdən də alnıaçıq çıxacağıq. Siz xalqımızı qoruyursunuz, Allah da Sizi qorusun!”

Zərdab rayonundan **Natiq Abdullayev, Mustafa Mustafayev** və **Nürəddin Əlyarlı** yazırlar: “Hörmətli cənab Prezident, bu çətin vəziyyətdə - COVID-19 pandemiyası ilə mübarizədə bizim sağlamlığımızı qoruduğunuz və gələcəyimizi düşündüyünüz üçün Zərdab rayonunun, o cümlədən Sarıqaya kəndinin sakinləri adından Sizə dərindən təşəkkür edirik. Siz xalqımız üçün çox işlər görmüsünüz. Pandemiya kimi ağır bir sınaq dövründə Sizin fədakarlığınız, vaxtında və doğru qərarlarınız da bunların sırasındadır. Bu amansız və qəddar düşmənlə mübarizədə az itki verməyimiz də məhz bu işlərin nəticəsidir. Siz ən xoş sözlərə layiqsiniz, cənab Prezident!”

Bakının Xətai rayonundan **Murtuz Qaziyev:** “Hörmətli cənab Prezident, mən ailə üzvlərimlə birlikdə Ermənistandan qaçqın düşmüşəm. O vaxt ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər xatirəmdən silinməyib. Lakin Azərbaycana qədəm qoyan kimi Ulu Öndərimiz Heydər Əliyevin mərhəməti ilə qarşılaşdıq. Bizə qarşı humanist münasibətinə görə Ulu Öndərimizə bu gün də minnətdarıq. Bu gün Sizə də minnətdarlıq bildirmək istəyirəm, cənab Prezident. Koronavirusla mübarizə Sizin dövlətimiz üçün əvəzedilməz şəxs olduğunuzu bir daha təsdiq etdi. Bu mübarizədə Azərbaycan xalqı Sizinlədir, Sizin siyasətinizi dəstəkləyir və bu yolda qarşıya çıxan bütün problemlərin həllində yanınızdadır. Xalqın etimadını qazanmış dövlət başçısı kimi hər addımınızın arxasında olacağımızdan əmin ola bilərsiniz. Siz xalqla birlikdə olduğunuza görə bizim qarşımızda heç bir pandemiya tab gətirə bilməz. Hörmətli cənab Prezident, ölkəmizdə koronavirus pandemiyası ilə mübarizədə Siz bütün gücləri və imkanları səfərbər etdiniz. Xalqımız üçün həyati əhəmiyyət kəsb edən qərarlar insanlarımızın sağlamlığının qorunmasına xidmət etdi. Bu çətin günlərdə xalqımız bir daha gördü ki, vətəndaşlarımızın sağlamlığı və həyat şəraitinin yüksək səviyyədə olması Sizin üçün ən ali məqsədlərdən biridir. Koronavirus pandemiyasına qarşı qətiyyətli mübarizənizi dəstəkləyir, bu xidmətlərinizə görə Sizə özümün və ailə üzvlərimin adından minnətdarlığımı bildirir və gələcək işlərinizdə uzun ömür, cansağlığı və yeni uğurlar arzulayıram”.

Füzuli rayonundan məcburi köçkün **Atabəy İsmayılov:** “Möhtərəm cənab Prezident, epidemiya ilə mübarizə çərçivəsində gördüyünüz qabaqlayıcı tədbirlər, atdığınız düşünülmüş addımlar Sizin xalqa necə bağlı olduğunuzu, vətəndaşların təhlükəsizliyinin qeydinə böyük həssaslıqla qaldığınızı bir daha sübut etdi. Cəbhə bölgəsini təmsil edən yaradıcı bir gənc olaraq müstəqil dövlətimlə və güvəndiyim Prezidentimlə bir daha fəxr etdim. Cənab Prezident, bizə qürurverici anlar yaşatdığınıza görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün ailəmiz adından dərin minnətdarlığımızı bildiririk. Biz birlikdə güclüyük! Allah Sizi qorusun!”

Suraxanı rayonundan **Rafiq Əhmədov:** “Cənab Prezidentim, bu minnətdarlıq məktubunu Sizə yazmağı özümə borc bilirəm. Bu gün bütün dünyanı çənginə alan koronavirus bəlası təəssüf ki, bizim vətənimiz Azərbaycandan da yan keçmədi. Dünyanı bürümüş koronavirus (COVID-19) pandemiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Sizin rəhbərliyinizlə həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində dövlətimiz bu bəlanın öhdəsindən minimum itkilərlə gəlir. Artıq dünya dövlətləri koronavirusa qarşı Azərbaycan modelindən istifadə edirlər. Hörmətli Prezidentim, bu gün Sizin düzgün siyasətiniz nəticəsində Azərbaycanda xüsusi karantin rejimi günlərində vətəndaşlara yüksək səviyyədə xidmət göstərən polislərimizi, əsgərlərimizi, öz həyatlarını təhlükəyə ataraq gecə-gündüz xəstələrə qulluq edən həkimlərimizi gördük. Bu gün Azərbaycanda hansı əczaxanaya girsək, tibbi maska, spirt və digər dezinfeksiya maddələrini asanlıqla tapmaq olar. Xüsusi qeyd etmək istəyirəm ki, əgər Ulu Öndərimiz Heydər Əliyev indi sağ olsaydı, bizim kimi o da Sizinlə fəxr edərdi. Mən sevinirəm ki, dünyanın siyasi xadimləri arasında xüsusi nüfuza malik Prezidentim var. Bu müqəddəs günlərdə Sizə və ailənizə möhkəm cansağlığı arzulayıram”.

Tovuz rayonunun Düz Qırıqlı kəndindən **Ədalət Məhərrəmov:** “Möhtərəm cənab Prezident, Sizə bir Azərbaycan vətəndaşı, bir ziyalı, bir fermer kimi müraciət edirəm. Xalqımızın bu çətin günlərində gördüyünüz işlərə görə Sizə təşəkkür edirəm, cənab Prezident. Bütün dünyanın koronavirusla mübarizə apardığı bir dövrdə Azərbaycan xalqının sağlamlığının qorunması istiqamətində gördüyünüz işlərin nəticəsidir ki, xalqımız bu bəladan ən az itkilərlə qurtulmaq üzrədir. Bu günlərdə müəllifi olduğunuz “Biz birlikdə güclüyük!” şüarı xalqımızı öz Prezidentinin, dövlətinin ətrafında sıx birləşdirdi. Siz nəinki xalqımızı qorudunuz, eyni zamanda insanlarımızın qayğısını çəkməklə dövlətin vətəndaşlarımızın yanında olduğunu göstərdiniz. Cənab Prezident, ölkəmizdə aqrar sahənin inkişafına verdiyiniz töhfəni daim hiss etmişik. Biz fermerlər karantin dövründə də Sizin diqqət və qayğınızla əhatə olunmuşuq. Bunun nəticəsində bütün işlərimizi optimal şəkildə görə bildik. Buna görə Sizə səmimi təşəkkürümüzü bildiririk”.

Daşkəsən rayonundan **Şəbnəm Hüseynova:** “Möhtərəm cənab Prezident, Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısısınız. Xalqımızın rifahı, daha yaxşı yaşaması üçün gördüyünüz bütün işləri alqışlayır, yorulmaz fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Sizin Azərbaycanın inkişafı üçün gördüyünüz işlərin miqyası nə qədər böyük olsa da, əhəmiyyəti illər sonra daha da artacaq. Buna görə xalq Sizi sevir, dəstəkləyir. Əminik ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Allah Sizi qorusun!”

Cəlilabad rayonunun Əliabad kəndindən **Rəvazi Şahzadə:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, xalqımızın bu çətin anlarında bizlərə dəstəyiniz üçün Sizə həm öz adımdan, həm də ailəmizin adından dərin minnətdarlığımızı bildiririk. Sizin ölkəmizin inkişafı, xalqımızın rifahı üçün apardığınız uğurlu islahatların nəticəsidir ki, respublikamız gündən-günə gözəlləşir. Sizin sayənizdə rifah, firavanlıq içərisində yaşayırıq. Xalqımızın bu çətin sınaq günlərində - pandemiya ilə mübarizə dövründə imzaladığınız hər bir sərəncam və verdiyiniz tapşırıqlar bizlər üçün çox dəyərlidir. Cənab Prezidentim, bir daha sizlərə dərin minnətdarlığımı bildirirəm. Allah Sizi və ailənizi qorusun!”

Salyan rayonunun Xələc kəndindən **Naseh Ağabəyli:** “Hörmətli cənab Prezident, dünyanı bürüyən koronavirus bəlasına qarşı ölkəmizdə vaxtında gördüyünüz çevik və qabaqlayıcı tədbirlər sayəsində Siz xalqımızın sağlamlığını qorudunuz. Buna görə Sizə minnətdaram. Siz əbəs yerə deməmisiniz ki, mən hər bir azərbaycanlının Prezidentiyəm, hər bir azərbaycanlının yanındayam.

İnsan sağlamlığı Sizin üçün hər şeydən üstündür. Biz Sizin gücünüzdən güc alırıq. Azərbaycan dövləti Sizin sayənizdə güclüdür”.



# Ulu Öndər Heydər Əliyevin idarəçilik meyarları: təcrübəyə söykənən müasirlik və gələcəyə aparan təşəbbüskarlıq

*Əvvəli 1-ci səh.*

Ümummilli Lider özünün yüksək qiymətləndirdiyi, dəqiqliklə əməl etdiyi, vacib hesab etdiyi və hər bir insanda görmək istədiyi bu cəhətlərin onunla çalışan dövlət adamlarında da olmasını istəyir və onlarla bu prinsiplər əsasında münasibət qururdu.

Ulu Öndər üçün ən başlıca prinsip isə hər kəsin tutduğu mövqedən və vəzifədən, maddi və digər imkanlarından, istedad və qabiliyyətindən asılı olmayaraq ümummilli mənafelərə sadiqliyi, bu mənafeləri qoruması və yaşatması idi. Keçmiş sovet idarəetmə sisteminin ən mühüm strukturlarında çalışmış, bu sistemin incəliklərini dərindən bilən müdrik və görkəmli dövlət xadiminin keçdiyi həyat yoluna, bu yolda xalqı və milləti üçün gördüyü işlərə nəzər saldıqda onun nə qədər realist və uzaqgörən bir siyasi xadim olmasını bir daha görür və bu insanın xalqına nə qədər fədakarlıqla xidmət etdiyinə heyran qalırsan.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi bütün illər ərzində heç vaxt öz prinsiplərindən geri çəkilmədiyinin, xalqın və millətin mənafeyini hər şeydən üstün tutmasının, öz müdrik siyasəti ilə Azərbaycanın müstəqilliyinin yaradılmasına və əbədiləşdirilməsinə misilsiz xidmətlər göstərdiyinin şahidi olursan.

Onun cismən aramızda olmadığı son 17 ildə Heydər Əliyev ideyalarının yaşadığını və Azərbaycanın inkişafına xidmət etdiyini bir daha əyani şəkildə görürsən.

**Nadir təşkilatçılıq istedadına sahib olan Heydər Əliyev Azərbaycan tarixində öz ölkəsini və dövlətini daim yeniliyə və tərəqqiyə aparan müdrik, uzaqgörən siyasi lider kimi qalmış və qalacaqdır.** Yaşadığı dövrün və zamanın nəbzini daim həssaslıqla tutan bu müdrik rəhbər hər bir ölkənin və dövlətin inkişafının mütəmadi olaraq həyata keçirilən islahatlardan, bu islahatları həyata keçirməyə qadir kadr potensialının yaradılmasından və yetişdirilməsindən asılı olduğunu, bunun ən mühüm amillərdən biri sayıldığını yaxşı bilir və bu məsələ heç vaxt onun diqqətindən yayınmırdı.

Ulu Öndər, ilk növbədə, cəmiyyətin hər bir üzvünün bir vətəndaş kimi öz borcunu dərk etməsini vacib hesab edir, dövlətin gücünün onun vətəndaşlarının vətənpərvərlik hissindən, bilik və bacarığından və bunların ümumi mənafe naminə səfərbər edilməsindən asılı olduğunu qeyd edirdi. Xüsusilə dövlət orqanları qarşısında ciddi tələblər qoyan Heydər Əliyev konkret olaraq bildirirdi: **"...bütün dövlət orqanlarında tələb olunan prinsiplər: mənəvi saflıq, dövlətin qanunlarına riayət etmək, öz işinə sədaqətdir".**

Heydər Əliyev hər bir insandan, ilk növbədə, mövqe aydınlığı, prinsipiallıq tələb edirdi. Respublika rəhbərliyinə yenidən qayıdışından sonra ölkədə baş verən siyasi proseslərə nəzər saldıqda bir çox hallarda respublikanın, xalqın taleyi üçün cavabdeh olan bəzi vəzifəli şəxslərin yanlış mövqe tutması müşahidə olunurdu. Bu dövrdə də tərəddüd edənlər, hadisələrin gedişindən öz xeyrinə bəhrələnmək istəyənlər, gözləmə mövqeyi tutanlar çox idi. Heydər Əliyev qətiyyətlə bildirirdi ki, taleyüklü məsələlərdə kimliyindən asılı olmayaraq gərək hər kəs öz vətəndaş mövqeyini bildirsin. O dövrdə Azərbaycan dövlətinin zəifləməsinə və sarsılmasına səbəb olan bəzi hadisələrin məhz mövqesizlikdən, prinsipsizlikdən irəli gəldiyini göstərərək bunun bir səbəbinin də bəzi ziyalılarımızın, hörmətli adamlarımızın mövqesizliyi ilə əlaqələndirir və onların öz şəxsi mənafelərini qoruduqlarını, xalqa qayğı göstərmədiklərini, bəzi hallarda hətta qorxaqlıq nümayiş etdirdiklərini kəskin surətdə pisləyirdi.

Heydər Əliyevin özü bütün həyatı boyu prinsipial mövqe tutan rəhbər şəxs kimi tanınmış, xüsusilə ümummilli məsələlərdə, Azərbaycanın mənafeyinin qorunması lazım gəldikdə heç nədən çəkinməmiş, hətta öz həyatını təhlükə qarşısında qoysa da, mövqeyini cəsarətlə bildirmişdir. Bu baxımdan Ulu Öndərin 1990-cı ilin yanvar hadisələrinə münasibətini xüsusi qeyd etmək lazımdır. Sonrakı çıxışlarında qeyd edirdi ki, 1943-cü ildən, yəni 20 yaşından üzvü olduğu Kommunist Partiyasının sıralarından çıxmasına səbəb məhz Azərbaycan xalqına qarşı törədilən ədalətsizlik, Azərbaycan xalqının hüquqlarının tapdalanması olmuş və Kommunist Partiyasının sıralarını məhz buna görə tərk etmişdir.

Heydər Əliyev Azərbaycanı öz canından artıq sevən və bütün mənalı ömrünü onun tərəqqisinə həsr edən bir vətəndaş kimi öz çıxışlarında daim vurğulayırdı ki, Azərbaycanın müstəqilliyi əbədidir və onu qorumaq Azərbaycan xalqının ən böyük vəzifəsidir. O, deyirdi: **"Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir".**

Ulu Öndər 1993-cü ildə Azərbaycanın düşdüyü ağır vəziyyəti, müstəqilliyimiz üçün yaradılan təhlükələri sonradan ürək ağrısı ilə xatırlayırdı. O illərdə vaxtilə onun öz əlləri ilə qurduğu respublikadan əsər-əlamət qalmamışdı və ölkəmizin taleyi sual altında idi. Heydər Əliyev həmin təhlükələri aradan qaldırmaq üçün elə cəsarətli addımlar atırdı ki, bu addımlar olmasaydı, bugünkü Azərbaycan da olmazdı. O, həmin illərdə dövlət çevrilişinə cəhdlərin qarşısını almaq üçün görülən tədbirlərin Azərbaycanın mənafeyi naminə həyata keçirildiyini bildirir və deyirdi: **"Bizə 1993-cü ildə elə bir miras qoyublar ki, cəmiyyətimizin belə cinayətkarlardan təmizlənməsi üçün, bunları aradan qaldırmaq üçün neçə illər lazımdır".**

Həyatı mübarizələrlə zəngin olan Ulu Öndər Azərbaycanın müstəqilliyinin bərpası və qorunması yolunda çox böyük təhlükələrlə üzləşmiş, lakin bunların öhdəsindən məhz qətiyyəti, uzaqgörənliyi sayəsində gələ bilmişdir. Bu sözlər onun prinsiplərini və mövqeyini çox yaxşı səciyyələndirir: **"Bunların heç biri bizi, şəxsən məni bir Azərbaycan Prezidenti kimi nə qorxutdu, nə də çəkindirdi. Müstəqillik yolu getmişik, gedirik. Və o qədər də biz ağlımızı itirmiş adam da deyilik ki, bilməyək ki, bu müstəqillik yolu ilə gedəndə bizim qarşımıza nə kimi fəlakətlər çıxacaqdır, nə kimi fəlakətlərlə qarşılaşacağıq. Bunu mən həmişə görmüşəm və bu gün də görürəm. Ancaq bunların heç biri bizi müstəqillik yolundan çəkindirməyəcəkdir".**

Ümummilli Lider böyük sürətlə və cəsarətlə həyata keçirdiyi siyasi, iqtisadi və hüquqi islahatlarla yeni Azərbaycanı qura bilmiş, onu Azərbaycan xalqına ən böyük miras kimi qoyub getmişdir. Heydər Əliyevin güclü iqtisadi baza, demokratiya, insan hüquqları, milli-mənəvi dəyərlər kimi sarsılmaz sütunlar üzərində qurduğu dövlətin mahiyyətinə nəzər salarkən ölkəmizdə belə bir güclü dövlətin varlığı bu gün hər bir azərbaycanlını sevindirir.

Uzaqgörən dövlət başçısı Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək elə bir sağlam cəmiyyət qurmuşdur ki, bu cəmiyyətdə görülən hər bir iş, atılan hər bir addım ümumi mənafeyə tabe edilmişdir. Böyük vətənpərvər və demokrat olan Heydər Əliyev cəmiyyətdə plüralizmi, eyni məsələyə müxtəlif prizmalardan yanaşmanı da istisna etmirdi. Lakin o, anarxiyanı, xaosu qəti yolverilməz hesab edirdi.

Ulu Öndər hesab edirdi ki, cəmiyyətdə müxtəlif problemlər, fikir ayrılıqları ola bilər və bunlar ümumi mənafeyə xələl gətirməməlidir və Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi hər bir vətəndaşın ümdə vəzifəsinə çevrilməlidir. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əsas şərtini Azərbaycan xalqının birliyində, həmrəyliyində gördü və müstəqilliyimizi qorumaq üçün hamının buna səy göstərməli olduğunu deyirdi. Ulu Öndər bildirirdi ki, **"...dövlətçilik haqqında düşünən adam - həm adi vətəndaş, həm və dövlət işində işləyən, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt öz canı haqqında düşünməməlidir. Öz canı haqqında da düşünən və xırda bir çətinlikdə ancaq qaçmaqla canını qurtarmaq istəyən insanlar - bunlar heç vaxt xalqın hörmətini, xalqın etimadını qazana bilməzlər".**

Çox təəssüf ki, Heydər Əliyevdən əvvəl Azərbaycana rəhbərlik etmiş şəxslər öz səriştəsizlikləri və bacarıqsızlıqları ucbatından xalqı dar ayaqda qoyub qaçmış, yaxud məsuliyyəti boyunlarından ataraq fəaliyyətlərini "dondurmuşdular". Tarixin belə çox çətin anlarında Azərbaycana rəhbərlik etməyə razılıq verən Heydər Əliyevin Azərbaycan dövləti, Azərbaycan xalqı üçün gördüyü işləri sadalamaqla qurtarmaz. Hələ Sovet İttifaqı dövründə bütün maneələrə və çətinliklərə baxmayaraq, Azərbaycanın sonrakı müstəqilliyi üçün iqtisadi baza yaratmış xalqın mənəvi sərvətlərinin qorunmasını, mənəvi-tarixi yaddaşının bərpa edilməsini, keçmişini unutmamasını təmin etməklə yanaşı, hərtərəfli inkişaf üçün zəmin yaradaraq, Azərbaycan iqtisadiyyatını keçmiş SSRİ respublikaları arasında ön sıraya çıxarmasını xüsusi qeyd etmək lazımdır.

Heydər Əliyevin böyük təşkilatçılıq istedadı sayəsində zəngin təbii resursları, iqtisadi, elmi və insan potensialı olan Azərbaycan Respublikası qısa müddət ərzində böyük nailiyyətlər qazanmış, onun şöhrəti keçmiş Sovetlər İttifaqının hüdudlarından xeyli kənara yayılmışdı. Bu nailiyyətlərin əldə edilməsində respublikanın rəhbəri Heydər Əliyevin yeritdiyi düzgün kadr siyasəti mühüm rol oynayırdı. Onun kadr siyasətinin əsas cəhətlərindən biri də o idi ki, təcrübəli insanların bilik və bacarığını yeni və müasir düşüncəli gənclərin enerjisi və təşəbbüskarlığı ilə birləşdirə bilir, təcrübə ilə gənclik enerjisinin vəhdətini təmin edərək bunların hamısını ümumi bir məqsədə, ümumi bir istiqamətə yönəltməyi bacarırdı. Ulu Öndər öz çıxışlarında həmişə dövlət idarəçiliyində təcrübənin olmasını vacib amillərdən biri hesab edir, eyni zamanda gənc kadrların, hazırlıqlı mütəxəssislərin yetişdirilməsinə xüsusi diqqət yetirirdi.

**Ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdə keçmiş SSRİ-nin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaratmışdı. Həmin mütəxəssislər sonradan Azərbaycanın inkişafında mühüm rol oynamış və bu gün də həmin missiyanı davam etdirirlər.** Ulu Öndər müxtəlif çıxışlarında bunu o vaxtlar Azərbaycanın gələcəyi üçün etdiyini və layiqli kadrlar hazırlamaq məqsədi daşıdığını bildirir və bundan böyük qürur duyurdu.

Heydər Əliyev Azərbaycanın gələcəyini yüksək təhsil almış gənclərin, mütəxəssislərin simasında görür, ona görə də bu məsələlərə xüsusi əhəmiyyət verirdi. 1993-cü ildə xalqın tələbi ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra tanıdığı, bacarığına, qabiliyyətinə, dövlətçiliyə sədaqətinə inandığı təcrübəli kadrlarla yanaşı, gənc kadrlara da böyük etimad göstərirdi. Ümumiyyətlə, gənclər siyasətinə xüsusi əhəmiyyət verərək bu sahəyə rəhbərlik edən xüsusi nazirlik - Gənclər və İdman Nazirliyini yaratmış, Gənclər gününü təsis etmişdi.

Ulu Öndər Azərbaycanda gənclər siyasətini formalaşdıraraq Sovet dövründə Azərbaycanın rəhbəri kimi keçmiş SSRİ-nin ali məktəblərinə oxumağa göndərilən gənclərlə görüşürdüsə, müstəqillik illərində xarici ölkələrə təhsil almağa gedən, habelə respublikanın ali məktəblərinə qəbul zamanı yüksək nəticələr əldə etmiş tələbələrlə görüşlərini davam etdirirdi. Heydər Əliyev Azərbaycanın gələcəyini, onun müstəqil və qüdrətli bir dövlətə çevrilməsini, müasirləşməsini və daim inkişaf etməsini gənclərin daha geniş fəaliyyətində və onların hər bir sahəyə daha yaxından cəlb edilməsində görürdü. Sevindirici hal odur ki, bu siyasət Azərbaycan dövlətinin çox diqqət yetirdiyi prioritet sahələrdən biri olmuş, indi də belədir və Heydər Əliyevin gənclər siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin səyləri ilə daha geniş vüsət almış, gənc kadrlar ölkədə bütün sahələrdə aparılan uğurlu islahatların aparıcı qüvvəsinə çevrilmişlər.

Heydər Əliyevin dövlət idarəçiliyində təcrübə ilə gənclik enerjisinin vəhdətini yaratmaq və bundan ümumi maraqlar naminə istifadə etmək ənənəsi bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident seçkilərindən sonrakı dövrdə dövlət idarəetmə sistemində inqilabi islahatlar aparan və onları gündən-günə genişləndirən Azərbaycan Prezidenti bizim cəmiyyətin ənənəvi dəyərlər üzərində qurulmuş bir cəmiyyət olduğunu vurğulayaraq, islahatları yanlış başa düşənlərə xatırladır ki, **"yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti bizə ancaq xeyir gətirəcəkdir".**

Heydər Əliyevin həyat yolunda çətinliklər və maneələr çox olmuş və bu böyük şəxsiyyət öz bacarığı, istedadı və müdrikliyi sayəsində onları dəf edə bilmişdir. Bəzi hallarda isə onun qarşısına çəkilən sədləri Azərbaycan xalqı öz qətiyyəti ilə aradan qaldırmış, öz xilaskarına yol açmış və onun zəkasından bəhrələnmişdir. Heydər Əliyevin qarşısına çəkilən belə sədlərdən biri də onun SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra respublikaya gəlişinə və xalqın ona olan böyük inam və etimadını ifadə etməsinə mane olmaq üçün Azərbaycan Konstitusiyasına dəyişiklik edilərək yaş senzinin ortaya atılması idi. Öz bacarıqsızlığını, daha doğrusu, cılızlığını büruzə verən ozamankı respublika rəhbərliyi elə hesab edirdi ki, bununla xalqın Heydər Əliyev məhəbbətinin qarşısını ala biləcəkdir. Lakin belə olmadı.

Konstitusiyaya edilmiş bu dəyişiklik Azərbaycan xalqının böyük qəzəbinə səbəb olmuşdu. 1992-ci ilin aprel ayında xalqın iradəsinə zidd olan bu addıma qarşı müxtəlif aksiyalar, imzatoplama kampaniyaları keçirilirdi. Respublika Ali Sovetinin qarşısında 13 gün davam edən mitinqlərdə insanlar bu maddənin çıxarılmasını, Heydər Əliyevin namizədliyinin qeydə alınmasını və onun respublika rəhbərliyinə gətirilməsini tələb edirdilər. **1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanda yeni bir dövr başladı** və cəmi 7 aydan sonra bu partiyanın lideri Heydər Əliyev hakimiyyətə gəldi.

**Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdıqdan dərhal sonra Azərbaycan dövlətçiliyinə və Heydər Əliyevin siyasi xəttinə - müstəqillik, tərəqqi və inkişaf xəttinə sadiq olan siyasətçiləri, mütərəqqi ziyalıları, cəmiyyətdə öz saflığı və əqidəliliyi ilə seçilən insanları özünün rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası ətrafında bir məqsəd, bir amal uğrunda birləşdirərək yeni bir dövlət qurmağa başladı.** Ölkəni son dərəcə çətin durumdan çıxarmaq üçün Heydər Əliyev yenidən qurulan dövlət orqanlarına və idarəetmə strukturlarına böyük təşkilatçılıq qabiliyyəti olan kadrları gətirməklə yanaşı, cəsarətlə irəli çəkdiyi gənc kadrlara da böyük enerji və güc tələb edən çətin vəzifələri həvalə etdi və qısa bir müddətdə Azərbaycanda əsl dövlətçilik prinsiplərini bərpa edə bildi.

Təbiətən yenilikçi və islahatçı olan Heydər Əliyev ölkə həyatının bütün sahələrində, istər siyasi, istər hüquqi sahələrdə, qanunvericilik sahəsində, həmçinin iqtisadi münasibətlərdə misli görünməmiş dərin islahatlar apararaq qısa bir müddətdə keçid dövrünü arxada qoydu, hədəfləri məlum olan, beynəlxalq aləmdə öz düzgün və obyektiv siyasi mövqeyi ilə seçilən, demokratik dəyərləri və beynəlxalq hüquq normalarını rəhbər tutan və bu normaları, o cümlədən insan hüquq və azadlıqlarını ardıcıl həyata keçirən bir dövlətin əsasını qoydu.

Məhz Heydər Əliyevin konsepsiyası əsasında Azərbaycanda dövlət idarəetmə sistemində aparılan islahatlar öz müsbət nəticələrini vermiş, demək olar ki, tamamilə yeni bir idarəetmə sistemi yaradılmış və onun ölkəyə rəhbərlik etdiyi dövrdə başlanan islahatlar sonrakı 17 il ərzində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl və fasiləsiz davam etdirilmiş və Azərbaycanın bugünkü iqtisadi, siyasi və hərbi qüdrəti təmin edilmişdir.

Heydər Əliyev özü bu islahatlar haqqında danışarkən deyirdi: **"Keçid dövrünü yaşayan bir neçə başqa ölkələrlə Azərbaycanı müqayisə edəndə bizim gördüyümüz işlər daha da dərin xarakter daşıyır. Biz bütün tədbirləri ölçüb-biçib, düşünüb həyata keçiririk... Təbiidir ki, on illərlə yaranmış sistemi dağıdıb özəl sektor, bazar iqtisadiyyatı prinsipi əsasında yeni bir iş yeri yaratmaq asan deyildir".**

Ulu Öndər yaxşı bilirdi ki, aparılan hər bir islahatın dəyəri onun nəticələri ilə ölçülür və bu islahatların məqsədindən danışarkən qeyd edirdi ki, aparılan işlərin hamısı iqtisadiyyatı inkişaf etdirmək, vətəndaşların rifahını yaxşılaşdırmaq, sosial problemləri həll etmək məqsədi daşıyır. Heydər Əliyev ölkə iqtisadiyyatını, onun siyasi və hüquqi sistemini beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirir, beynəlxalq təşkilatlar, o cümlədən iqtisadi qurumlarla sıx əməkdaşlıq əsasında həyata keçirirdi və bildirirdi: **"Biz Azərbaycanda apardığımız bütün işlərdə dünya təcrübəsindən, ayrı-ayrı ölkələrdə islahatların həyata keçirilməsi sahəsində əldə olunmuş təcrübədən istifadə edirik. Biz müsbət təcrübələri ölkəmizin xüsusiyyətinə uyğun olaraq tətbiq etməyə çalışırıq. Ancaq mənfi nəticələri, təcrübəni, nöqsanları da öyrənib nəzərə alırıq ki, onlara yol verməyək... Yenə də deyirəm, biz dünyanın harasında olmasından asılı olmayaraq əldə edilmiş təcrübələrdən ölkəmizdə istifadə edilməsinə çalışırıq".** Ulu Öndər bu sözləri 1999-cu il martın 16-da Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində islahatların həyata keçirilməsi üzrə beynəlxalq konfransda demişdi.

Ulu Öndərin layiqli varisi və onun siyasi xəttini əzmlə davam etdirən və artıq 17 ildir ki, respublikaya rəhbərlik edən, onu böyük qələbələrə çatdıran, Azərbaycanın mövqeyini dünyada yüksək səviyyəyə, o cümlədən iqtisadi inkişaf rəqabətliliyi indeksi üzrə 141 ölkə arasında 58-ci pilləyə qaldıran Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin 1993-2003-cü illərdəki fəaliyyəti haqqında danışarkən haqlı olaraq qeyd edir: **"1993-2003-cü illər ölkəmiz üçün həlledici illər olmuşdur. Məhz o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmişdir. O illərdə Azərbaycan dünya birliyinə qovuşmuşdur, özünü tanıtdıra bilmişdir. Çox ciddi islahatlar aparılmışdır. Bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmişdir. Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması məhz o illərə təsadüf edir. Müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Siyasi sistem möhkəmləndirilmişdir və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır".**

Ulu Öndərin apardığı islahatlardan danışarkən onun gördüyü ən böyük işlərdən birini - Azərbaycanın bugünkü və gələcək inkişafını, bir sözlə, müstəqil dövlət kimi qurulmasını və yaşamasını təmin edən yeni Azərbaycan Konstitusiyasının qəbul edilməsini və bunun əsasında dövlətin hüquqi bazasının yaradılmasını xüsusi qeyd etməliyik. Məhz onun səyləri ilə dövlətin idarə olunmasını həyata keçirməkdə mühüm vasitə olan dövlət qulluğunun əsas prinsiplərini formalaşdıran "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunmuş və bu mühüm aktdan sonra onlarla vacib normativ hüquqi akt hazırlanıb təsdiq edilmiş, bu sahənin çevik və işlək mexanizmi yaradılmışdır.

Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıdışından və 1993-cü ildə Ali Sovetin sədri kimi fəaliyyətə başlamasından sonrakı 4 aylıq müddətdə Milli Məclisə siyasi mədəniyyət nümunəsi gətirdi və həmin dövr Milli Məclisin ən intensiv fəaliyyət dövrünə çevrildi. Ümumən 1993-cü il dekabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclisdə cəmi 1715 qanun və qərar qəbul edilmişdir ki, bunun da 975-i bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə olmuşdur.

**Belə bir faktı qeyd edək ki, Heydər Əliyevin 10 il ərzində gördüyü işlərin həcmi, əslində, 100 ildə görülən işlərə bərabərdir və həmin dövr ərzində yaradılmış möhkəm bünövrə bugünkü qələbələrimizin əsasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmiş, ordu quruculuğu və digər sahələrdə böyük nailiyyətlər əldə edilmiş, dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır ki, bu addımlar bu gün Azərbaycanın uğurlu siyasətini şərtləndirir.** Məhz Heydər Əliyevin prinsipləri əsasında formalaşmış Azərbaycan artıq dünya miqyasında böyük nüfuza malik olan bir ölkəyə çevrilmişdir. Bir çox ölkələrlə bərabərhüquqlu konstruktiv münasibətlər qurmuş Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində nümunəvi ölkəyə çevrilmiş, tolerantlıq nümunəsi kimi özünü təsdiq etmişdir.

Heydər Əliyev olduqca müdrik və uzaqgörən bir siyasətçi kimi Azərbaycanın gələcəkdə müstəqilliyinə xələl gətirə biləcək maneələri əvvəlcədən sanki görür və belə maneələrin qarşısını almaq üçün, ilk növbədə, respublikanın qanunvericilik bazasında mükəmməl hüquqi normalar yaradılmasına böyük diqqət yetirirdi.

Heydər Əliyev öz keçdiyi həyat yolunda və Azərbaycan tarixinin bütün mərhələlərini dərindən bildiyinə görə 1991-1993-cü illərdə Azərbaycanın düşdüyü ağır vəziyyətin bir səbəbinin də səriştəsiz rəhbərliyin və peşəkar kadrların olmamasından irəli gəldiyini yaxşı bilirdi. O, dünya tarixində ayrı-ayrı xalqların öz millətinin, dövlətinin xilaskarlıq missiyasını üzərinə götürən böyük şəxsiyyətlərinin həyat yolunu, mübarizə metodlarını da mükəmməl bilirdi və özü də belə şəxsiyyətlərdən biri olduğuna görə Azərbaycanın xilaskarlıq missiyasını öz üzərinə götürmüşdü.

Ulu Öndər Azərbaycanın bir dövlət kimi yaşamasına, inkişafına və tərəqqisinə zəmin yaratmış, onu qoruyub saxlamış və bugünkü inkişafı üçün möhkəm iqtisadi və siyasi bünövrə qurmuşdur. Ona görə də Heydər Əliyev xalqının Ümummilli Liderinə çevrilmiş və bu şərəfli missiyanı ömrünün son dəqiqəsinədək əzmlə yerinə yetirmişdir.

Heydər Əliyevin Azərbaycan dövləti qarşısında açdığı yolun doğruluğu, düzgünlüyü ildən-ilə öz təsdiqini tapır, çünki özünün dediyi kimi: **"Bizim tutduğumuz yol doğru yoldur, düzgün yoldur, ədalətli yoldur, bu yolla biz bundan sonra da gedəcəyik, müstəqil Azərbaycanın dövlətçiliyini möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik və kim bu yolda bizimlə bərabərdirsə, o, öz xalqına xidmət etmiş olacaqdır. Kim bu yolda bizə mane olacaqsa, o maneələri biz aradan götürməyə qadirik".**

Heç kəs şübhə etməsin ki, Ulu Öndərin layiqli varisləri və davamçıları - Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva rəhbərlik etdikləri Yeni Azərbaycan Partiyası ilə birlikdə Ulu Öndərin qurduğu Azərbaycanın dövlət müstəqilliyini inkişaf etdirmək və əbədiləşdirmək arzularını bundan sonra da uğurla həyata keçirəcəklər.

***Süleyman İSMAYILOV,***
***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri,***
***YAP Siyasi Şurasının üzvü***

*Dünyamız misli görünməmiş təhdidlə üzləşib: son aylarda əksər dövlətləri böyük məhrumiyyətlərə düçar edən "COVID-19" adlı yeni növ koronavirus bəşəriyyətin dəhşətli kabusuna çevrilib. Sərhəd, məkan, ərazi tanımadan bütün ölkələri bürüyən yoluxucu virus dünyanın iqtisadi-siyasi mənzərəsini xeyli dəyişib. İndi dünya ölkələrinin inkişaf səviyyəsindəki fərq də nisbiləşib. İnkişaf səviyyəsindən asılı olmayaraq əksər ölkələr hələlik məlhəmi tapılmayan yoluxucu xəstəliklə əzmlə mücadilə aparırlar.*



# Heydər Əliyev ideyaları Azərbaycanın əbədi inkişafının təməlidir

Qoca tarix nə qədər epidemiyalara, yoluxucu xəstəliklərə şahidlik edib, bunu oxuduqlarımızdan az-çox bilirik. İnsan övladı böyük, ya da kiçik itkilərlə üzləşdiyi sınaqlardan üzüağ çıxmağı bacarıb. Fəqət, son pandemiya dalğası özündən bir qədər təkəbbürlü, bir o qədər də arxayın dünyamızı qəfil haqlayaraq ciddi çətinliklərə məruz qoyub. "Sən saydığını say, gör fələk nə sayır" deyimi, görünür, təsadüfən yaranmayıb. Bizə yalnız son aylarda agah oldu ki, ötən 50-60 ildə inqilabi texnoloji yeniliklərə, unikal kəşflərə imza atan dünya dövlətləri bir göz qırpımında sanki bütün planeti bürüyən hansısa virus qarşısında çarəsizdir. Nəinki aya, hətta digər planetlərə də süni peyklər göndərməyə müvəffəq olan dünyamız hazırkı təhdid qarşısında çıxılmaz duruma düşüb.

Qlobal iqtisadiyyatda tənəzzül dərinləşir. Neftin 3 dəfəyədək enən qiymətləri hələ ki, sabitləşmək bilmir. Mövcud vəziyyət, istər-istəməz, insanlarda mənəvi-psixoloji gərginlik də yaradıb. İndi dövlətlərin bir məramı var - nəyin bahasına olursa-olsun, yoluxmanın geniş və sürətlə yayılmasının qarşısını almaq, vəziyyətdən tez zamanda və az itki ilə çıxmaq...

Narahat dünyamızın faciəvi mənzərəsi bizi nə qədər sarsıtsa da, bir reallığı çəkinmədən, qürur hissi ilə deyirik: Azərbaycan xalqı reallıqları düzgün dəyərləndirən, vaxtında qabaqlayıcı addımlar atan Prezident İlham Əliyevin rəhbərliyi ilə bu çətin sınaqdan üzüağ, az itki ilə çıxır!

Əksər dünya ölkələrinin rəhbərləri, Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlar da bunu açıq bəyan edirlər. Prezident İlham Əliyevin pandemiyanın qarşısının alınması məqsədilə ilk günlərdən qəbul etdiyi operativ, cəsarətli və düşünülmüş qərarları təqdir edilərək mütərəqqi nümunə, örnək kimi göstərilir.

Prezidentimizin bəyan etdiyi məram - "Azərbaycan sosial dövlətdir və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Bu gün koronavirus dövründə bizim əsas amalımız Azərbaycan xalqını bu bəladan qorumaqdır" fikri dövlətimizin bu prosesdəki fəaliyyət prioritetini də aydın müəyyənləşdirir.

Bəşəriyyətin mövcudluq tarixi bu reallığı da danılmaz həqiqət kimi təsdiqləyib: hər bir ölkə konkret zamanda üzləşdiyi çətin durumdan məhz layiqli liderinin əzmi, qətiyyəti, yüksək idarəçilik keyfiyyətləri sayəsində çıxır. Həmin məqamda liderin atdığı düzgün addımlar, qəbul etdiyi müdrik qərarlar xalqın gələcək müqəddəratını müəyyən edir. Azərbaycan təcrübəsində də bu həqiqət dəfələrlə təsdiqini tapıb. Ulu Öndər Heydər Əliyevin ən layiqli davamçısı olan cənab İlham Əliyev ölkəmizə əzmkar rəhbərliyi ilə yüksək səriştəyə malik lider olduğunu dəfələrlə sübuta yetirib.

Həyatda hər kəsin fərqli iddia və imkanları, hədəfləri, özünəməxsus düşüncələri ola bilər. Əsas məsələ hədəfə qovuşmaq üçün seçilən yolun, vasitənin ədalətli və dürüst olmasıdır. İlham Əliyev son 17 ildə məhz Heydər Əliyev yoluna istinad edib, dahi rəhbərin ali ideyalarını rəhbər tutub. Ədalətli rəhbər kimi xalqının, dövlətinin mənafeyini düşünüb. İnsanların sosial rifahı, firavanlığı naminə dövlətin bütün imkanlarını səfərbər edib. Xalqımız 2003-cü ildən bəri yaranmış konkret situasiyalarda, fövqəladə vəziyyətlərdə cənab Prezidentin necə düzgün, ədalətli qərarlar qəbul etdiyinin, ilk növbədə, sadə insanları düşündüyünün əyani şahidi olub.

Müasir dünya sosial layihələrə o qədər də maraqlı deyil. Bazar münasibətləri şəraitində bir çox dövlətlər vətəndaşlarına dəyən maddi zərərləri dövlət büdcəsi hesabına qarşılamaq təklifinə tərəddüdlə yanaşırlar. Şükürlər ki, son 17 ildə Azərbaycan insanı bu yanaşmanın tam əksini görüb. Dövlətimiz və onun rəhbəri müxtəlif səbəblər üzündən insanlara dəyən zərərin büdcə hesabına və tam ödənilməsini təmin edib.

Ulu Öndər Heydər Əliyevin zamanında söylədiyi bu ibrətamiz fikri xatırlatmaq, fikrimcə, yerinə düşər: "Azərbaycan bazar iqtisadiyyatı yolunu seçsə də, insanların sosial məsələlərinin həlli dövlətin başlıca vəzifəsi olaraq qalır". İlham Əliyev isə "Siyasətimizin əsasında Azərbaycan vətəndaşının maraqları, insan amili dayanır" deyərək, eyni xətti inamla davam etdirir. Nəticədə vətəndaşda haqlı əminlik, güvənlik var ki, dövlətimiz bu gün onun bütün çətin məqamlarında onun yanındadır.

Azərbaycan dövləti ötən illərdə xalqın rifahı naminə dəyəri bəzən milyard manatlarla ölçülən sosial layihələri reallaşdırmaqdan çəkinməyib. Məsələn, son 17 ildə çadır düşərgələri tamamilə ləğv edilib, məcburi köçkünlərin mənzillə təminatı davamlı xarakter alıb. MDB məkanında ilk dəfə məhz Azərbaycanda vətəndaşların keçmiş SSRİ dövründən banklarda qalmış ümidsiz əmanətləri geri qaytarılıb. Əhalinin mavi yanacağa, elektrikə, suya görə borcları silinib. Müxtəlif illərdə baş vermiş zəlzələlərdən, eləcə də Kür çayının daşıntılarından ciddi zərər görmüş vətəndaşlar üçün yeni evlərin inşası reallaşdırılıb. Şəhid ailələri, müharibə veteranları və əlilləri, hərbçilər, mədəniyyət, incəsənət, elm xadimləri, eləcə də KİV nümayəndələri dövlət hesabına mənzillə təmin olunublar.

2019-cu ildə dövlət başçısının siyasi iradəsilə reallaşdırılan sosial islahatlar paketi daha geniş miqyas alıb. Ötən il ərazi bütövlüyümüz uğrunda həlak olmuş qəhrəman insanların ailələrinə birdəfəlik ödəniş edilib. Minimum əməkhaqqı, sosial müavinət, pensiya və tələbə təqaüdləri əhəmiyyətli dərəcədə artırılıb. Devalvasiya nəticəsində banklara borcu yaranmış vətəndaşların borcları müəyyən şərtlər civarında kompensasiya olunub. Yanğından zərər çəkmiş sahibkarlara kompensasiya ödənilib.

Çətin və fövqəladə vəziyyətlərə hazırlıq hər bir hökumətin fəaliyyətinin səmərəlilik göstəricisidir. Son ayların reallığı bu həqiqəti də tam təsdiqləyib: koronavirus təhlükəsinin ciddiliyini ilk gündən düzgün dəyərləndirən, qabaqlayıcı addımlar atmaqda gecikməyən dövlətlər onunla mübarizədə daha az itki veriblər. Pandemiyanın ABŞ və əksər Avropa ölkələrini çənginə alması, kütləvi insan itkisi ilə müşayiət olunması həm də sosial məsuliyyətsizliklə əlaqələndirilir. Hesab olunur ki, bəzi dövlətlər pandemiyaya kifayət qədər ciddi yanaşmamaqla son nəticədə vəziyyətə nəzarəti itiriblər.

Sevindirici haldır ki, bu gün Azərbaycanın adı pandemiyaya ilə mübarizədə vaxtında qabaqlayıcı tədbirlər görən, ictimai rəyi ən qısa zamanda sosial məhdudlaşdırma tədbirlərinin vacibliyinə hazırlamağa nail olan dövlətlər sırasında çəkilir. Ölkə rəhbərliyinin vəziyyəti düzgün dəyərləndirmək və operativ qərarlar qəbul etmək bacarığı bizə bu böyük bəladan az itki ilə çıxmaq imkanı yaradıb.

"Biz birlikdə güclüyük!" şüarını koronavirusla mübarizənin əsas qayəsinə, başlıca məramına çevirən Azərbaycan Prezidenti hər bir qətiyyətli addımında məhz xalqına, mütləq çoxluğun dəstəyinə güvəndiyini nümayiş etdirir. Təbii ki, bu diqqət və qayğı insanların öz liderinə güvənini, etimadını artırır və yüksək qiymət alır. Qədirbilən xalqımız karantin dövründə atılmış müdrik, önləyici addımlara görə cənab İlham Əliyevə dərin təşəkkürünü, razılığını bildirir. Dövlət başçısının adına hər gün yüzlərlə təşəkkür məktubu gəlir.

Respublika Ağsaqqallar Şurasının üzvləri də dövlət başçısının həyata keçirdiyi addımları təqdir edir. Bütün xalqımız kimi, biz ağsaqqallar da Prezidentin və bu çətin günlərdə insanlara doğma ana, bacı kimi can yandıran Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər birimizə olan daimi diqqət və qayğısını yüksək qiymətləndiririk. Bütün vətəndaşların sağlamlığının qorunması üçün yorulmadan həyata keçirilən fədakar fəaliyyəti, aparılan qətiyyətli siyasəti ürəkdən bəyənirik və dəstəkləyirik. Əminik ki, Azərbaycan bundan sonra da Prezidentin rəhbərliyilə bütün bəlalardan qorunaraq əmin-amanlıq şəraitində inamlı inkişaf yolu ilə gedəcək, müdrik, düşünülmüş və uzaqgörən siyasət yeni-yeni uğurlara imza atmaqla ölkəmizi daha xoşbəxt və sağlam gələcəyə qovuşduracaqdır.

Şübhəsiz, hakimiyyətin hər hansı tədbirlər planı o zaman səmərə verir ki, xalq bu addımları bəyənir, ona dəstək verir. Xalqla hakimiyyətin mənəvi birliyi olmadan hansısa ciddi uğura nail olmaq qeyri-mümkündür.

Azərbaycan cəmiyyəti Ümummilli Liderin zəngin dövlətçilik irsini hər zaman ölkəmizin təhlükəsizliyinin və milli maraqlarının təmin edilməsinə yönələn alternativsiz konsepsiya kimi qəbul edib. Məsələn, hansısa problem baş qaldıranda çoxları "Heydər Əliyev bu məsələni necə həll edə bilərdi" sualı üzərində düşünür. Bu yanaşmanı Azərbaycan Prezident cənab İlham Əliyev də birmənalı müdafiə edir. Dövlət başçısı çıxışlarında dəfələrlə bildirib ki, dövlət idarəçiliyinə dair hər hansı qərar qəbul etməzdən öncə bu sualı özünə ünvanlayır və cavab tapmağa çalışır.

Müstəqil Azərbaycanı Ulu Öndər Heydər Əliyevin "Şah əsəri" sayanlar tamamilə haqlıdırlar. Əslində, bu, nəinki ölkə ictimaiyyətinin, ümumilikdə realist dünyanın etiraf etdiyi bir həqiqətdir. Qazanılan nailiyyətlər xalqımızın Ümummilli Liderinin uzaqgörənliklə müəyyənləşdirdiyi inkişaf strategiyasının və bu siyasəti ötən 17 ildə milli maraqlar çərçivəsində uğurla davam etdirən Prezident cənab İlham Əliyevin danılmaz xidmətləri ilə bağlıdır.

Biz Ulu Öndərə dünyanın ən böyük azərbaycanlısı deməkdə tamamilə haqlıyıq: SSRİ kimi böyük imperiyada ən yüksək vəzifələri tutub, ən ali məqamlara yüksəlmiş yeganə azərbaycanlı kimi, o, xalqına daim ləyaqətlə, vicdanla xidmət edib. Böyük siyasətdə və dövlət idarəçiliyində qazandığı misilsiz nailiyyətlər, ilk növbədə, xalqın səmimi dəstəyinə, sevgisinə söykənib. Qarşıya qoyduğu məqsədlərə doğru irəliləyərkən təkcə iti fəhminə, parlaq zəkasına, dövlətçilik səriştəsinə deyil, həm də ictimai etimada əsaslanıb. Ən ciddi dəstəyi xalqdan, ona güvənən, xilas yeri kimi baxan insanlardan alıb.

Azərbaycanın son 50 illik tarixi Ulu Öndərin adı və onun müəyyənləşdirdiyi inkişaf yolu ilə birmənalı bağlıdır. Taleyin qismətindən yarım əsrlik tarixin təkcə şahidi deyil, həm də bu mərhələdə cərəyan edən ictimai-siyasi proseslərin bilavasitə iştirakçısı olmuşam. Yaxşı yadımdadır, 1969-cu ildə Azərbaycana rəhbərliyə irəli çəkilən Heydər Əliyev ilk günlərdən respublikada inqilabi islahatlara başlamışdı. Gənc, milli ruhlu, enerjili bir şəxsin respublika rəhbərliyinə irəli çəkilməsi insanlarda daxilən razılıq doğururdu. Durğunluq, iqtisadi tənəzzül içində yaşayan, keçmiş SSRİ-nin geridə qalmış respublikalarından sayılan Azərbaycanda vəziyyətin tezliklə dəyişəcəyinə inanmayanlar da var idi. Lakin Ulu Öndər çevik təşkilatçı, zamanın nəbzini tutan rəhbər kimi sübut etdi ki, istək, iradə, vətənpərvərlik və milli təəssübkeşlik hissi olan zaman az müddətdə çox şeyə nail olmaq olar.

Həmin illərdə vəzifəyə təyin etdiyi kadrlardan yalnız bir istək, bir tələbi var idi - insanlara layiqli xidmət! Verdiyi tapşırıqları ciddi nəzarətdə saxlaması, tələbkarlığı hələ o illərdə məmurları daim səylə işləməyə sövq edir, onların məsuliyyətini artırırdı.

İqtisadiyyatı yüksəltmək üçün rüşvətxorluğa, oğurluğa, əliəyriliyə və mənəviyyata zidd digər təzahürlərə qarşı amansız mübarizə aparırdı. Xüsusən də ilk illərdə istehsal və satış obyektlərində reydlər keçirir, işində səhlənkarlığa, məsuliyyətsizliyə, qanundan kənar hallara yol verən məmurları sərt şəkildə cəzalandırırdı. Qısa müddətdə ali məktəblərdə hökm sürən acınacaqlı vəziyyəti də aradan qaldırdı, qəbul prosesində şəffaflığı təmin etdi. 70-ci illərdə ixtisaslı kadr kimi yetişərək indi də dövlət idarəçiliyində mühüm postlar tutan insanlar bu sahədəki prinsipial addımları yaxşı xatırlayırlar. Müasirləşməyə xidmət edən mütərəqqi elm-təhsil islahatları Azərbaycan üçün, eyni zamanda, respublikadan kənarda kadr hazırlığına hesablanmışdı. Bəzi müasir ixtisaslar üzrə Azərbaycanda kadr hazırlığının aparılmadığı bir şəraitdə bu addım son dərəcə əhəmiyyətli idi. Bununla sanki müstəqil Azərbaycanın yüksəkixtisaslı kadrlarla təminatı işinə hazırlıq görülürdü.

Əminliklə deyə bilərəm ki, dahi şəxsiyyət Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə əməli fəaliyyəti ilə gələcək müstəqilliyə etibarlı zəmin yaratmağa nail oldu. Müstəqilliyin iqtisadi, siyasi, hüquqi və mənəvi əsaslarını formalaşdırdı. İqtisadiyyatda ciddi keyfiyyət dəyişikliklərini təmin etdi. Azərbaycanı xammal istehsalçısından qabaqcıl texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirdi.

Ötən əsrin 70-80-ci illərində şəhərlərin, kəndlərin siması dəyişdi. İnsanların mədəni-intellektual səviyyəsi, mənəvi zənginliyi artdı. Azərbaycan fəhləsinin, kəndlisinin mənafeyi uca tutuldu, onun əməyi yüksək dəyərləndirildi. Müəllimlərin, alimlərin, mədəniyyət işçilərinin sosial müdafiəsi gücləndirildi. Yeni ali məktəblər açıldı, çoxlu sayda orta məktəb, mədəniyyət müəssisəsi istifadəyə verildi. Milli-mənəvi ruh yüksəldi, tarixi ənənələrə, köklərə bağlılıq sürətləndi.

Müasirlik xarakterin əsas məziyyəti, göstəricisidir. Dövlət rəhbərliyi kimi çətin missiyanı üzərinə götürən liderin müasir düşüncəli olması, yeniliklərə can atması, zamanın nəbzini tutması xüsusilə vacibdir. Düşünürəm ki, rəhbər vəzifələrdə çalışdığı bütün zamanlarda Heydər Əliyevin qazandığı möhtəşəm uğurların əsasında bir mühüm amil də dayanırdı: müasirlik və yenilikçilik! Ulu Öndər Heydər Əliyevin rəhbər kimi yeniliklərə can atması onun şəxsi xarakterindən, təşəbbüskarlığından irəli gəlirdi.

İdarəçiliyə yeni ruh, yeni nəfəs gətirən böyük şəxsiyyət 1969-1982-ci illərdə reallığın imkan verdiyindən də yüksək dərəcədə xalqının mənafeyi üçün çalışdı. Düşüncədə müasirliyi, mənəvi planda mühafizəkarlığı, milli kökə bağlılığı ictimai şüura təlqin edirdi. Bununla belə, elmi-texniki, mədəni tərəqqiyə xidmət edən proqramların həyata keçirilməsində, texnologiyaların tətbiqində yenilikçi, islahatçı idi.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin ana dili kimi göstərilməsi də Ulu Öndərin tarixi xidmətlərindən biri idi. Onun bu məsələdəki israrlı tələb və təkliflərini Moskva da heç cür qulaqardına vura bilməmişdi. Bu qətiyyətli qərardan sonra ana dilini inkişaf etdirmək, televiziya, mətbuat, kino və teatr quruculuğunda milli dilin tətbiqini gücləndirmək asanlaşdı. Onun bilavasitə himayəsi ilə xalqımızın tarixi qəhrəmanlıq keçmişini əks etdirən filmlər kinomuzun əsas mövzusuna çevrildi. "Nəsimi", "Babək", "Dəli Kür", "Dədə Qorqud" kimi filmlər gəncliyin milli ruhda tərbiyəsində, sonralar kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı.

Qürur hissi ilə deyə bilərəm ki, dahi rəhbərin qətiyyətinin, prinsipiallığının, millət sevgisinin əyani təcəssümü olan bir hadisənin də canlı şahidlərindənəm. 1937-ci ildə repressiyaya məruz qalaraq Sibirə sürgün olunmuş görkəmli dramaturq Hüseyn Cavidin nəşi məhz Heydər Əliyevin əzmkar mübarizəsinin təntənəsi kimi Uzaq Sibirdən gətirilərək Naxçıvanda torpağa tapşırıldı. Həmin vaxt Culfa rayonunun birinci katibi vəzifəsində işləyirdim. Bu müdrik addımın ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandığını görəndə fəxarət hissi keçirmişdim. Bu həm də xalqda milli kimlik və özünüdərk hisslərinin gücləndirilməsi istiqamətində aparılan incə siyasətin mahiyyətindən irəli gəlirdi.

Əsl lider zaman və məkandan asılı olmayaraq, hər zaman xalqını düşünür, onun taleyinə qətiyyən biganə qalmır. 1982-ci ildə onun Sov.İKP MK-nın Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrə irəli çəkilməsi xalqımızın qürur və fəxarətinə çevrilən bir hadisə oldu. O, təkcə azərbaycanlıların deyil, ümumən keçmiş ittifaqın türk və müsəlman kökənli xalqlarının Kremldə parlayan ulduzuna çevrildi.

Böyük Öndər kifayət qədər yüksək və məsuliyyətli vəzifədə də qətiyyən xalqını unutmadı. Əslində, o, ittifaqa daxil olan 15 respublikanın hər birinə eyni nəzərlərlə baxmalı idi. Bu respublikaların sosial inkişafı üçün ona həvalə edilmiş vəzifələri layiqincə gerçəkləşdirirdi. Amma Azərbaycanın yeri onun üçün bir ayrı idi. Heydər Əliyev hər fürsətdə Azərbaycana yardımları artırırdı. Ölkəmizin kənd və qəsəbələrində sosial infrastrukturun inkişafına dəstək verirdi. Hətta, yeri gələndə, ondan sonra Azərbaycana rəhbərlik edən kadrların ölkənin inkişafı naminə mərkəz qarşısında təşəbbüslərə də sövq edirdi.

Səriştəli idarəçi olaraq keçmiş SSRİ-nin iqtisadiyyatına da layiqli töhfələrini verirdi. Baykal-Amur magistralı kimi strateji əhəmiyyətli tranzit layihəsi məhz onun rəhbərliyi ilə qısa müddətdə uğurla yekunlaşdırıldı. Sonrakı mərhələdə Kremlin bir tərəfdən Çernobıl faciəsinə, digər tərəfdən ermənilərin Dağlıq Qarabağdakı separatçı addımlarına münasibətdə cəsarətsiz münasibətini kəskin tənqid edən Heydər Əliyevə qarşı açıq hücumlar, təqiblər başladı. Fəqət, xalqın Heydər Əliyevə münasibəti, onun iştirakı ilə yaşanan tarix göstərdi ki, böyük şəxsiyyətlər hər zaman bütün vəzifələrin fövqündədir.

1990-cı ilin 20 Yanvar gecəsi keçmiş sovet ordusunun xalqımıza qarşı törətdiyi qətliamlara etiraz olaraq Ulu Öndər ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi. Keçirdiyi mətbuat konfransında dəhşətli cinayətin səbəbkarlarını bütün dünyanın gözləri qarşısında ifşa etməsi sübuta yetirdi ki, xalqın haqq söyləyən səsini batırmaq qətiyyən mümkün deyil. Onun bütün təzyiq və təhdidlərə baxmayaraq, cəsarətli addımlarla yenidən böyük siyasətə qayıdışı ədalətin heç bir maneəyə rəğmən, gec-tez mənzil başına çatacağını göstərdi.

Sonrakı proseslər də orta və yaşlı nəslin yaxşı xatirindədir. Dağlıq Qarabağda erməni separatizminə açıq dəstəyin verilməsi, 1990-cı ilin Qanlı Yanvar hadisəsi göstərdi ki, əslində məqsəd xalqımızı müstəqillik arzusundan çəkindirmək imiş. Bu faciədən sonra imperiyanın əlaltıları şantaj yolu ilə onun Vətənə qayıtmasına imkan vermir, müdafiəsinə qalxanları olmazın təqiblərə məruz qoyurdular. Lakin onu heç nə qorxutmadı. Bütün maneələri dəf edərək, Vətənə, göz açdığı Naxçıvan torpağına qayıtdı.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası olduqca acınacaqlı vəziyyətdə yaşayırdı. Dahi rəhbər dönüşü ilə blokada şəraitində yaşayan, dözülməz problemləri ilə yalqız qalan naxçıvanlılara ilahi ruh gətirdi. Ümidsizliyə qapılmış insanların qəlbində sanki ümid çırağı yanmağa başladı. 1990-cı ildə Azərbaycan Ali Sovetinə keçirilən seçkilər zamanı naxçıvanlılar Heydər Əliyevi deputat seçdilər.

1991-ci ilin 17 noyabrında Ali Məclisin qərarı ilə müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımız muxtar respublikanın rəsmi bayrağı kimi qəbul edildi. Naxçıvan İttifaqın qalıb-qalmamasına münasibəti öyrənən səsvermə prosesində iştirakdan imtina edən yeganə məkan oldu. Sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılması, 20 Yanvar faciəsinə siyasi qiymətin verilməsi onun Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətləri idi.

Ən yaxın tariximizə sanballı möhürünü vurmuş Heydər Əliyev dühası təkcə qurucu deyil, həm də xilaskar rəhbər kimi tanınır. 1993-cü ilin əvvəllərində AXC-Müsavat hakimiyyətinin apardığı siyasət Azərbaycanı böyük uçurumla üzləşdirmişdi. Bu cür "münbit" şəraitdən istifadə edən bəzi separatçı qüvvələr ölkəni parçalamaq üçün çirkin oyunlara qoşularaq xarici düşmən qüvvələrin səyləri ilə antidövlət siyasəti həyata keçirirdilər. Vətəndaş müharibəsinin qığılcımları artıq alova çevrilirdi. Nəhayət, 1993-cü ilin iyun ayında Azərbaycanda dövlət idarəolunmaz vəziyyətə gəlib çıxdı. Gəncə hadisələri respublikanın həyatında gedən dağıdıcı proseslərin kulminasiya nöqtəsi oldu.

Respublikanın olum və ya ölüm dilemması qarşısında qaldığı bir şəraitdə çıxılmaz vəziyyətə düşən ovaxtkı "rəhbərlər" Naxçıvana üz tutdular. Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə Bakıya gəlməsi üçün dəfələrlə müraciət edərək, xüsusi təyyarə göndərdilər. Ulu Öndərin iyunun 9-da Bakıya gəlişini bütün respublika həyəcanla izlədi. İyunun 15-də isə o, Ali Sovetin sədri seçildi. Beləliklə, Azərbaycan xalqı öz taleyini təcrübəli, xalqını sevən, onun arzu və istəkləri ilə yaşayan liderə etibar etdi.

Güvəndiyimiz, taleyimizi etibar etdiyimiz siyasi hakimiyyəti 1993-cü ilin oktyabr ayında - demokratik, azad və şəffaf seçkilər vasitəsilə qurmuşuq. Ümummilli Lider Heydər Əliyevin həmin seçkilərdə dövlətimizin rəhbəri seçilməsi ilə müstəqil Azərbaycanın taleyində tənəzzül, anarxiya və xaos mərhələsindən sabitlik və tərəqqiyə doğru möhkəm körpü salındı. Məhz 1993-2003-cü illərdə Azərbaycan xaos və anarxiya girdabından qurtularaq sabit və davamlı inkişaf yoluna qədəm qoydu. Respublikamızın özünəməxsus tərəqqi yolu, milli inkişaf modeli formalaşdı. Ölkə xaosdan, vətəndaş müharibəsindən, hərc-mərclikdən, dövlətçiliyini itirmək təhlükəsindən qurtuldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Azərbaycan dövlətçiliyi ağır faciələrdən xilas edildi.

Ümummilli Lider siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik dövlət modeli konsepsiyasını da uğurla həyata keçirməyə başladı. 1995-ci ildə ölkə Konstitusiyasının qəbulu hüquqi dövlət quruculuğu prosesinin baza prinsiplərini müəyyənləşdirdi. 1994-cü ildə 20 sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ölkənin siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi yönümündə atılmış mühüm addımlardan biri oldu. Paralel olaraq ölkənin iqtisadi böhrandan azad olunması üçün iqtisadiyyatda struktur islahatları aparıldı, özəlləşdirmə prosesinə başlanıldı. Sahibkarlığın inkişafı məqsədilə ciddi qanunverici baza formalaşdırıldı, müvafiq dövlət proqramları qəbul olundu. Keçmiş SSRİ məkanında ilk dəfə olaraq aqrar sektorda islahatlar həyata keçirildi, torpaq əsl sahibinə kəndliyə qaytarıldı.

Əslində bu prosesə o, Naxçıvandan başlamışdı: 1992-ci ildə Naxçıvan Ali Məclisinə rəhbərlik edərkən Heydər Əliyev kolxoz-sovxoz sisteminin xüsusi mülkiyyətə keçirilməsi ilə bağlı qərar qəbul etmişdi. Bu, ümumilikdə ittifaq miqyasında kənd təsərrüfatında ümumi mülkiyyətçiliyin ləğvinə dair ilk təşəbbüslərdən idi. Ulu Öndərin səyi nəticəsində Azərbaycan kəndlisi bazar iqtisadiyyatı dövründə sahibkarlıq təfəkkürünə yiyələndi, torpağına sahibliyi ilə öz ruzisini halallıqla əldə etməyi öyrəndi.

Milli-mənəvi kökə, dəyərlərə qayıdış da diqqətdən kənarda qalmadı. Müstəqilliyin möhkəmləndirilməsi naminə elm və təhsilin inkişafı, milli-mənəvi irsin qorunması istiqamətində kompleks tədbirlər görüldü. Ulu Öndər dünyanın qədim böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyini bütün dünyada keçirməyə nail oldu. Bir tərəfdən dastanın Azərbaycan hadisəsi olduğunu sübut etdi, digər tərəfdən dünya türklərini dastan ətrafında toplayaraq birliyi gücləndirdi. Məhz onun müdrikliyi, böyük uzaqgörənliyi sayəsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu. Azərbaycan dilinin, musiqisinin, incəsənətinin inkişafı, ən başlıcası azərbaycançılıq ideologiyasının möhkəmlənməsi məqsədilə tədbirlər həyata keçirildi. Diaspor quruculuğu, dünya azərbaycanlılarının milli-mənəvi birliyinin təmin edilməsi, habelə balanslaşdırılmış xarici siyasət kursunun təmin edilməsi - bütün bunlar Ulu Öndərin müstəqil Azərbaycan qarşısındakı tarixi xidmətlərinin çox az qismidir.

Bu gün qürur hissi ilə deyə bilərəm ki, Azərbaycanı həqiqi müstəqilliyə qovuşduran Heydər Əliyevin ideyalarını layiqincə davam edən yenilikçi rəhbərimiz var. Prezident İlham Əliyev son 17 ildə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində saysız-hesabsız addımlar atıb. Ötən illərdə Azərbaycanın qazandığı ən sanballı uğuru bölgədə və regionda heç bir dövlətdən asılı olmayan müstəqil siyasət yürütməsidir.

Vətəndaşını düşünən, onun rifahı üçün çalışan hakimiyyətin ictimai dayaqları hər zaman möhkəm olur. 2018-ci ilin 11 aprel seçkilərindən sonra geniş miqyas alan islahatlar insan amilinin daxili siyasətimizdə necə üstün yerdə olduğunu göstərdi. Dövlətin xalqa layiqli xidmət missiyası tam mahiyyəti ilə gerçəkləşdi. Vətəndaşların dövlətinə, onun rəhbərinə etimadı daha da güclənib. İctimai rəyə həssas münasibət əsasında son 2 ildə bütövlükdə cəmiyyətin maraqlarını ifadə edən onlarla sosial layihə reallaşıb. Cənab İlham Əliyev bu islahatlara şəxsən müəlliflik edərək xalqın istisnasız etimad ünvanı olduğunu bir daha təsdiqləyib.

Dövlətimizin rəhbəri insan hüquq və azadlıqlarının təmini, demokratik proseslərin dərinləşdirilməsi istiqamətində də qətiyyətli addımlar atır. Bununla da demokratiya "hayqırtıları" ilə bizə təsir göstərmək istəyən dövlətlərə öz yerini göstərərək nümayiş etdirir ki, əsl demokratiya təkamül yolu ilə, tədricən bərqərar olunur. Azərbaycan iqtisadi cəhətdən inkişaf etdikcə, qanunçuluq möhkəmlənir, şəffaflıq artır. Yaşayış səviyyəsi, maddi rifah halı yüksələn insanlar açıq və şəffaf cəmiyyət quruculuğunun mahiyyətini dərk etməyə başlayırlar.

Ədalət hər bir cəmiyyətin mənəvi-hüquqi sütunu, məhək daşıdır. Biz bu gün həm də onunla qürur duyuruq ki, Heydər Əliyevin yolunu davam etdirən ədalətli liderimiz var. Cənab İlham Əliyev bütün proseslərdə hər bir vətəndaşın layiqli prezidenti olduğunu sübuta yetirir.

Dövlətin güc və qüdrətini, Prezidentin həssas yanaşma və diqqətini qabarıq duyan vətəndaşlarımız gələcəyə inamla baxır, hər bir çətin şəraitdə özünü güvənli hesab edir.

Bu, həm də Heydər Əliyev ideyalarının təntənəsi, zəfəridir...

***Fəttah HEYDƏROV,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədri,***
***Milli Məclisin komissiya sədri***

# Böyük çağırış və liderin xilaskarlıq missiyası

## Prezident İlham Əliyevin koronavirusla mübarizəyə strateji baxışı bir uğur hekayəsidir

Təxminən yüz gündür ki, dünya gözəgörünməz düşmənlə - koronavirusla “ölüm, ya olum” savaşı aparır. Ciddi və sərt təcrid tədbirləri görülür. Sərhədlər bağlanıb. Təyyarələr uçmur. Qatarlar hərəkət etmir. Məktəblərdə dərslər dayandırılıb. Bütün kütləvi tədbirlər və idman yarışları ləğv edilib. İzdihamlı küçə və meydanlar, park və xiyabanlar səssizliyə bürünüb. Planetin 7 milyard əhalisinin yarısı - təxminən 4 milyard insan evə qapanıb.



Bununla belə, virusa yoluxanların, həyatını itirənlərin sayı günbəgün artır. Saatbasaat dəyişən rəqəmlər insanlığın üzləşdiyi böyük çağırışdan, milyonların faciəsindən xəbər verir. İtkilər fərqlidir - hər qitəyə, hər ölkəyə, hətta hər şəhərə görə dəyişir. Rəqəmlərin müqayisəsi ölkələr üzrə virusla mübarizənin səmərəliliyini ortaya qoyur. Azərbaycanın adı nümunəvi ölkələr sırasında çəkilir.

Prezident İlham Əliyevin uzaqgörənliyinin nəticəsi olaraq vaxtında qəbul edilən düzgün qərarlar itkiləri minimuma endirməyə imkan yaradıb. Dövlət əhalinin ən müxtəlif təbəqələrinə maksimum sosial dəstək göstərir. Təsadüfi deyil ki, Azərbaycan koronavirusa qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən ölkələr sırasında yer alıb.

Söhbətimiz dünyanı sarsıdan COVID-19 barədə, Azərbaycan Prezidentinin və dövlətimizin pandemiyaya qarşı mübarizə strategiyası, həmçinin yaşadığımız çətin günlərin bu və digər mühüm məqamları haqqındadır.

### Dünyanı sarsıdan yüz gün

Ölkəmizdə pandemiya şəraitində atılan addımları, Prezidentin problemə strateji yanaşmasının üstünlüklərini realistcəsinə qiymətləndirmək üçün təxminən son 100 gün ərzində dünyada və məmləkətimizdə cərəyan edən hadisələrə nəzər salmağa ehtiyac var. Yeni qlobal problem özünə qlobal prizmadan baxış tələb edir.

Dekabrın 31-də yeni koronavirusun törətdiyi xəstəlik barədə ilk informasiya yayıldı. Bu xəstəlik çox keçmədən epidemiyaya çevrilsə də, dünya nə baş verdiyinin fərqində deyildi. Amerikada, Avropada elə güman edirdilər ki, virusun onlara əli çatmaz. Dünya sanki bir anlığa qloballaşdığını unutdu və bu, ona çox baha başa gəldi. Söhbət artıq 3,5 milyondan çox yoluxmadan, 250 minə yaxın itirilmiş insan həyatından gedir. Virusun yayılmağa başlamasından ötən dövrü sözün birbaşa mənasında dünyanı sarsıdan günlər adlandırmaq olar. Yüz günə yaxındır ki, insanın virusla amansız çarpışması gedir və bunun nə vaxt bitəcəyini hələlik heç kəs dəqiq bilmir.

Bu yüz gündə nələr baş verdi, hansı mənzərələrin şahidi olduq?

Həyəcan təbili ilk olaraq yanvarın ortalarında Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən çalındı. Bəzi ölkələr dərhal hərəkətə keçdi. Bəziləri buna ciddi yanaşmadı. Maraqlıdır ki, koronavirusla bağlı ən ağır vəziyyət fövqəldövlət olan ABŞ-da, öz səhiyyə sistemi ilə öyünən Avropada müşahidə olunur. Dünya üzrə yoluxmaların və ölüm hallarının böyük əksəriyyəti “varlı” Qərbin payına düşür. Paradoks olsa da, reallıq belədir. Almaniyanın populyar nəşrlərindən birinin gəldiyi qənaət diqqət çəkir: Avropa müharibədən sonra ən böyük sınaqla üzləşib. O, uğursuzluq ardınca uğursuzluğa düçar olur. Əgər belə getsə, Avropa İttifaqı dağıla bilər.

Hər bir dövlətin pandemiya ilə bağlı öz siyasəti, necə deyərlər, “milli” yanaşması var. Kim harada səhvə yol verdi, kim tədbir görməkdə gecikdi, yaxud problemi ciddiyə almadı? Bu kimi suallara cavab verməyi zamanın öhdəsinə buraxaraq, məsələnin insani tərəflərinə, ürək ağrıdan mənzərələrə nəzər salmaq istərdik. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xalqa müraciətində qeyd etdiyi bir fikri xatırlamaq yerinə düşər: “Özgə dərdi olmur. Ağrı və iztirablar sərhəd tanımır”.

Mehriban xanımın təbirincə desək, “səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi intellektual potensiala, qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələr belə, epidemiyanın yayılmasının qarşısını ala bilmədilər”. Doğrudan da xəstəlik o qədər sürətlə yayılır ki, istənilən ölkənin səhiyyə sistemini çökdürə bilər. İnkişaf etmiş bəzi ölkələrdə xəstəxanaların dolub-daşdığının, xəstələrin dəhlizlərdə yerləşdirildiyinin, müalicə imkanlarının tükəndiyinin şahidiyik. Elə ölkələr oldu ki, xəstələr arasında seçim etmək məcburiyyətində qaldı. Qocalar evlərində yüzlərlə insan taleyin hökmünə buraxıldı.

Təbii ki, vəziyyət bu cür nəzarətdən çıxsaydı, bizi də oxşar aqibət gözləyə bilərdi. Üstəlik virus artıq qonşuluğumuza gəlib çatmışdı. Gediş-gəlişin gur olduğu sərhəd bölgələrində epidemiya hər an alovlana bilərdi.

Azərbaycan hökumətinin həmin vaxt və sonradan atdığı addımlar, qəbul edilən qərarlar göstərdi ki, vəziyyət gecə-gündüz Prezidentin nəzarətindədir. O, hadisələrin gedişini diqqətlə izləyir, risklər öyrənilir və dəqiq qiymətləndirilir.

### Mərkəzində insan həyatı dayanan müdrik strategiya həm də Azərbaycan həkiminə inamı qaytardı

Koronavirusla mübarizəni bəzən müharibə ilə müqayisə edirlər. Hər bir müharibədə sərkərdənin döyüş strategiyası və dəqiq taktikası olur. İndiki halda isə bu çətindir: bir tərəfdən düşmən gözə görünmür, digər tərəfdən vəziyyət çox sürətlə dəyişir.

Bu mürəkkəbliyə baxmayaraq, Prezident İlham Əliyevin problemə strateji baxışı və risklərin dəyərləndirilməsinə əsaslanan uzaqgörən qərarları əsas məqsədə - virusun yayılmasının qarşısının alınmasına və yoluxma zəncirinin qırılmasına gətirib çıxardı. “Bizim üçün prioritet məsələ insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir”, - deyən Azərbaycan Prezidentinin siyasəti pandemiyanın ilk günündən buna hədəflənmişdi. Sərt və qabaqlayıcı tədbirlər nəticəsində vəziyyəti çox keçmədən nəzarətə almaq mümkün oldu. Yoluxanlarla sağalanların say nisbətində müsbət dinamika yarandı. Azərbaycan səhiyyəsi, o cümlədən tibb işçiləri çətin sınaqdan çıxmaq iqtidarında olduqlarını nümayiş etdirdi.

Koronavirus xəstələri əksəriyyəti son illərdə tikilmiş 20-dən çox dövlət xəstəxanasında mükəmməl müalicə alıb və almaqdadır. Epidemiyanın tüğyan etdiyi günlərdə 575 çarpayılıq ən müasir “Yeni klinika”nın açılması, Sumqayıt Kimya Sənayesi Parkında gündə 250 min tibbi maska istehsal edən müəssisənin işə salınması böyük üstünlüyümüz oldu. Hazırda Prezidentin göstərişi ilə modul tipli 10 xəstəxana inşa olunur. Bu xəstəxanaların işə düşməsi 2 min əlavə çarpayı deməkdir. Mart ayında istifadəyə verilmiş 1000 çarpayını, bu gün fəaliyyət göstərən 18 laboratoriyanı, həkimlərimizin yüksək peşəkarlığını və fədakarlığını da buraya əlavə etsək, səhiyyə sistemimizin bugünkü mənzərəsi və görülmüş işlərin miqyası tam aydınlaşar.

Müharibə termini ilə desək, bu gün ön cəbhədə vuruşan səhiyyə işçiləridir - həkimlər, tibb bacıları, sanitarlar, laborantlar və başqalarıdır. İnsan həyatı uğrunda mübarizədə yüksəkixtisaslı səhiyyə işçilərindən ibarət böyük bir ordu iştirak edir. İxtisasca həkim olan Birinci vitse-prezident Mehriban Əliyevanın “Instagram” səhifəsində paylaşdığı fikirlər fədakar tibb işçilərinin əməyinə verilən yüksək qiymət kimi diqqət çəkir: “Bu günlərdə biz həkim peşəsinin niyə müqəddəs missiya adlandırıldığını yenidən dərk edirik. Bu peşə həqiqətən də həmişə dərin zəka və yüksək bacarıq tələb edib. Amma bu gün bizim tibb işçilərimizdən həm də böyük şəxsi cəsarət tələb edir. Onlar bu çətin sınaqdan şərəflə çıxırlar”.

Azərbaycanın COVID-19 xəstəliyinin müalicəsinin öhdəsindən bacarıqla gəldiyini yoluxma və ölüm hallarının müqayisəsində aydın görmək olar: İndiyədək koronavirusa yoluxmuş 1932 nəfərin 1441-i sağalıb, cəmi 25 ölüm halı qeydə alınıb. Hər iki göstərici üzrə istər ən yaxın qonşularımız - İran, Rusiya və Türkiyə, istərsə də ən çox inkişaf etmiş Avropa ölkələri - İtaliya, İspaniya, Fransa, Böyük Britaniya, Belçika ilə müqayisədə qat-qat yaxşı vəziyyətdəyik. Azərbaycan əhali sayına nisbətdə yoluxma və ölüm hallarının ən aşağı səviyyədə olduğu nadir ölkələrdən biridir.

Prezidentimizin uzaqgörənliyi, müdrik qərarları, riskləri düzgün dəyərləndirməsi, xalqımızın həmrəyliyi hadisələrin ən pis yöndə inkişaf etməsinin qarşısının alınmasına vəsilə oldu və Azərbaycan həkiminə olan inamı qaytardı.

### Müdrik qərarlar və epidemiya riskinin önünə keçən milli həmrəylik

Son 100 ildə bu miqyasda pandemiya görünmədiyindən, təbii ki, ona qarşı mübarizə vasitələri və təcrübəsi də yoxdur. Belə vəziyyətdə necə hərəkət etməli, nədən başlamalı? Hər bir ölkə bu suala öz-özlüyündə cavab axtarır, öz siyasətini formalaşdırır.

İlk vaxtlar ölkədən-ölkəyə dəyişən fərqli yanaşmalar görürdük. Bəzi Avropa ölkələrində hesab edirdilər ki, nə qədər insan yoluxur-yoluxsun, səhiyyə sistemi bunun öhdəsindən gələcək. Yaxud Böyük Britaniya əhalinin virusa kütləvi yoluxması ilə “milli” immunitet yaranacağını düşünür, adi qaydada yaşamaqda davam edirdi. Ümumdünya Səhiyyə Təşkilatının həyəcan təbilləri çalmasına, təhlükənin ildırım sürətilə yaxınlaşmasına əhəmiyyət verməyən İtaliya və İspaniyada minlərlə futbol fanatı virusu şəhərdən-şəhərə, ölkədən-ölkəyə daşıyırdı.

Məsələnin ciddiyə alınmaması, ləngimələr, hökumətlərlə cəmiyyətlər arasında fikir ayrılıqları acı nəticələrə gətirib çıxardı. Bugünkü qlobal tablo çox kədərlidir: ABŞ - 1 milyon 188 min yoluxma və 68 min 602 ölüm; İtaliya müvafiq olaraq 210 min və 28 min 884; Böyük Britaniya 186 min və 28 min 446; İspaniya 247 min və 25 min 264; Fransa 168 min və 24 min 895 nəfər... Yaxud Avropanın mərkəzi olan Belçika əhalinin hər 100 min nəfərinə düşən koronavirus qurbanlarının sayına görə dünyada birinci yerdədir.

Parlaq təcrübələr də mövcuddur və bu sırada ən çox Cənubi Koreyanın, Yaponiyanın, Sinqapurun, elə Çinin özünün adı çəkilir. Bu siyahıya tam haqlı olaraq Azərbaycan da əlavə edilə bilər. Bizim ən böyük üstünlüyümüz virusla iki cəbhədə eyni qətiyyətlə mübarizə aparmağımızdır. Belə ekstremal vəziyyətlərdə sağlamlıq və sosial müdafiə amilləri gərək bir-birini qoşa qanad kimi tamamlasın. Prezident İlham Əliyevin siyasəti məhz bu yöndədir. Dövlət başçısının dərin bilikləri, erudisiyası və uzaqgörənliyi qəbul edilən qərarların, atılan addımların ardıcıllığını, sistemliliyini, effektivliyini şərtləndirir. Azərbaycanın koronavirusla mübarizədə qazandığı üstünlüyü ilk olaraq burada axtarmaq lazımdır. Hadisələrin gedişinə və yığcam xronologiyaya nəzər salsaq mətləb öz-özlüyündə aydın olacaq.

Yanvarın 29-da Ümumdünya Səhiyyə Təşkilatının Fövqəladə Hallar Proqramının rəhbəri belə bir bəyanatla çıxış etdi: “Bütün dünya hazır olmalıdır. Bütün dünya hərəkətə keçməlidir və episentrdən və ya digər mərkəzdən meydana çıxacaq vəziyyətə cavab verməlidir”.

O vaxt virus yenicə yayılmağa başlamış və hələ pandemiya elan olunmamışdı. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, bir çox ölkələrin liderlərindən fərqli olaraq Prezident İlham Əliyev o vaxtdan Vətənini və xalqını bu müdhiş bəladan necə qorumaq barədə düşünür, planlar cızırdı. Belə ki, Baş Nazirin sədrliyi ilə yanvarın 28-də hökumət komissiyası yaradıldı və iki gün sonra müvafiq fəaliyyət planı təsdiqləndi.

İranda koronavirusa ilk yoluxma barədə xəbər fevralın 19-da gəldi və həmin vaxtdan etibarən Biləsuvar və Astara sərhəd-keçid məntəqələrində buraxılışın yeni qaydaları tətbiq olunmağa başlandı, məhdudiyyətlər vəziyyətdən asılı olaraq getdikcə sərtləşdirildi. Tərəflərin qarşılıqlı razılığına əsasən fevralın 29-da İranla, sonrakı günlərdə isə qonşu Gürcüstan, Türkiyə və Rusiya ilə sərhədlər bağlandı. Azərbaycan öz sərhədlərini bağlayan ilk ölkələrdən biri oldu.

İlk vaxtlar xəstəlik ölkəyə xaricdən gələn insanlarda müşahidə olunurdu və bir müddət sonra daxildə yoluxma halları üzə çıxdı. Bundan sonra bütün qüvvələr və resurslar gözəgörünməz düşmənlə mübarizəyə səfərbər edildi. Vəziyyəti vahid mərkəzdən idarə etmək və birgə fəaliyyət göstərmək məqsədilə fevralın 27-də Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı.

İlk addım olaraq martın 3-dən bütün təhsil müəssisələrində dərslər dayandırıldı (sonradan məlum oldu ki, Azərbaycan həmin vaxt dünya üzrə məktəbləri bağlayan ilk 12 ölkədən biri idi). Sonrakı günlərdə vəziyyətdən asılı olaraq ölkə ərazisində bəzi sosial izolyasiya tədbirləri tətbiq edildi, xüsusi karantin rejimi elan olundu. Nəhayət, martın 30-da COVID-19 infeksiyasının ölkəmizə geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında qərar qəbul edildi.

Zənnimcə, məhdudiyyətləri bir-bir sadalamağa və təfərrüata varmağa ehtiyac yoxdur. Bu günləri hər kəs öz həyatında yaşayıb və yaşamaqdadır. Önəmlisi odur ki, koronavirusa qarşı mübarizə tədbirləri səmərə verir və vəziyyət hər ötən gün yaxşılığa doğru dəyişir. Nəhayət, səbirsizliklə gözlənilən qərar verildi. Aprelin 27-dən və mayın 4-dən məhdudiyyətlər mərhələli şəkildə yumşaldılmağa başladı.

Əslində, bu cür fövqəladə vəziyyətlərdə çıxarılan qərar nə qədər mükəmməl və mühüm olsa da, işin yalnız bir tərəfidir. Yəni hökumətin öz sərt üzünü göstərməsi, sərbəst hərəkətə qadağa qoyulması birmənalı qarşılanmaya bilər. Bir qədər əvvəl ABŞ və bəzi Avropa ölkələrinin timsalında qeyd etdiyimiz epizodlarda cəmiyyətin iqtidarla həmrəy olmaması, karantin qaydalarını pozması öz mənfi, hətta faciəvi izlərini qoyub. Ölkəmizə gəlincə, fərqli, ürəkaçan mənzərəni görməmək olmaz. İnsanlar məhdudiyyət tədbirlərindən sıxılsa da, öz lideri, dövləti və hökuməti ilə həmrəylik nümayiş etdirir. Beləliklə, koronavirusla mübarizədə əsas silah olan sosial təcrid siyasəti uğurla reallaşır. Digər əsas hədəf vaxt qazanmaq idi və biz bunu da bacardıq. Nəhayət, tunelin sonunda işıq görünməyə başladı.

Qlobal təhlükəni ən az itkilərlə dəf edə bilməyimizin bir əsas şərti də bu oldu: xalq-iqtidar birliyi və hər cür virusdan güclü olan milli həmrəylik. Çətin sınaq daha bir həqiqəti ortaya qoydu: biz birlikdə güclüyük!

Virus üzərində tam qələbədən danışmaq hələ tez olsa da (bu, tibbin işidir, peyvənd tapılmasına bağlıdır), əminliklə demək olar ki, Prezident xalqını pandemiya risklərindən maksimum dərəcədə qoruya bildi.

### Hər bir vətəndaşın yanında olan Prezident və hər bir vətəndaşına sahib çıxan dövlət

Pandemiya vəziyyətində hər bir dövlətin qarşısında iki əsas seçim dayanır: insanların həyatını qorumaq və iqtisadiyyatı xilas etmək. Azərbaycan o ölkələrdəndir ki, iqtisadi riskləri nəzərə almadan və tərəddüd etmədən birinci variantı seçdi. Bununla da sosial dövlət olduğunu bir daha təsdiqlədi.

Sirr deyildi ki, məhdudlaşdırıcı tədbirlər iqtisadi inkişafa böyük zərbə vuracaq, büdcə gəlirləri azalacaq. Digər tərəfdən, Prezident karantin rejimindən zərər çəkən insanları, xüsusən kiçik sahibkarları, muzdla çalışanları, işsizləri və əhalinin digər həssas təbəqələrini düşünürdü. İnsanlar əmin idilər ki, hər zaman vətəndaşın yanında olan Prezident bu dəfə də onları tək qoymayacaq.

Belə də oldu. Hər bir vətəndaşına sahib çıxan dövlət çox mühüm iki dəstək paketi təqdim etdi.

Bu haqda söhbəti davam etdirməzdən əvvəl epidemiya dövründə əhalinin sosial müdafiəsi sahəsində görülən tədbirləri ardıcıllıqla nəzərdən keçirək. Martın 19-da Prezident İlham Əliyev pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluğa, sahibkarlıq subyektlərinə təsirinin azaldılmasını nəzərdə tutan sərəncam imzaladı. Çox geniş spektrli sərəncama əsasən yuxarıda qeyd olunan tədbirlərin maliyyələşdirilməsi üçün Nazirlər Kabinetinə bir milyard manat vəsait ayrıldı. Həmçinin pandemiyanın ölkə həyatının ayrı-ayrı sahələrinə təsirini qiymətləndirmək və təkliflər hazırlamaq üçün İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlərinin və Mərkəzi Bankın sədrinin rəhbərliyi ilə dörd işçi qrup yaradıldı. Pandemiyanın yaxın və orta müddətdə biznes mühitinə təsirini azaltmaq, iqtisadi artımın davam etməsini dəstəkləmək, hüquqi və fiziki şəxslərin ehtimal olunan zərərinin məbləğini müəyyənləşdirmək, sahibkarlıq subyektlərinə dövlət dəstəyi göstərmək, makroiqtisadi sabitliyi qoruyub saxlamaq istiqamətində və digər istiqamətlərdə təkliflər hazırlanıb Nazirlər Kabinetinə təqdim olundu. Hökumətin sonrakı qərarları bu təkliflər əsasında qəbul edildi.

Sərəncamda məşğulluq və əhalinin sosial müdafiəsi məsələsinə xüsusi yer ayrılıb. Nəticədə pandemiyadan zərər çəkmiş iqtisadi fəaliyyət sahələrində çalışan muzdlu işçilərin, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi, həmçinin yaxın və orta müddətdə məşğulluq tədbirləri gücləndirilib.

Dövlət başçısının müvafiq sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında yuxarıda qeyd olunan istiqamətlər üzrə 10 tədbir əksini tapıb. Bu tədbirlərin 2,5 milyon insanı əhatə etməsi sosial dəstəyin indiyədək görünməmiş miqyasından xəbər verir.

Bir neçə əsas məqama diqqət yetirək. Ümumilikdə dövlət sektoru üzrə 900 mindən çox işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilib. Hər hansı əsassız ixtisarlara yol verilməməsi üçün bütün dövlət qurumlarına müvafiq tapşırıq verilib, sahibkarlara müraciət olunub. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaq.

Əhalinin məşğulluq imkanlarının artırılması məqsədlə DOST İş Mərkəzi tərəfindən 50 min ödənişli ictimai iş yerinin yaradılmasına başlanılıb. Bunun üçün 30 milyon manat vəsait ayrılıb. Ümumilikdə ictimai iş yerlərinin sayı 90 minə çatıb.

Pandemiya nəticəsində işsiz qalan şəxslərə 190 manat məbləğində birdəfəlik ödəmə həyata keçirilir. Prezidentin tapşırığı ilə birdəfəlik ödəmə 600 min şəxsə ödəniləcək və aprel-may aylarını əhatə edəcək. Aprelin 1-dən ünvanlı sosial yardım alan ailələrin sayında 10 min artım olub. Ümumilikdə 80 min ailənin 330 min üzvü ünvanlı sosial yardım proqramından faydalanır.

Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və hazırda digər dövlət dəstəyi mexanizmləri üzərində iş aparılır.

Təbii ki, sosial dəstək paketləri böyük xərc tələb edir, dövlət büdcəsi üçün böyük yükdür: vergi güzəştləri də daxil olmaqla 3,5 milyard manat. Dövlət bu xərci ciddi iqtisadi risklər fonunda çəkir. Əgər güclü iqtisadi imkanlar olmasaydı, sosial siyasəti uğurla aparmaq da mümkün olmazdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər həyata keçirilən inqilabi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, ixrac potensialının artırılması istiqamətində atılan addımlar nəticəsində ölkəmiz kifayət qədər güc toplayıb.

Təkcə bir neçə misal çəkmək yetər ki, son 15 ildə ümumi daxili məhsul 64 milyard manat artaraq 2019-cu ildə 81 milyard 681 milyon manata çatıb, yəni, beş dəfəyə yaxın çoxalıb. Bu ilin əvvəlinə ölkənin strateji valyuta ehtiyatları rekord həddə yüksələrək 52 milyard dollar təşkil edib. Valyuta ehtiyatları xarici borcu beş dəfədən çox üstələyir. Adambaşına düşən valyuta ehtiyatlarına görə Azərbaycan MDB məkanında birinci yerdədir.

İqtisadiyyatı və maliyyə imkanları ildən-ilə artan Azərbaycan borc alan ölkədən, borc verən ölkəyə çevrilib. Pandemiya səbəbindən Dünya Bankına, Beynəlxalq Valyuta Fonduna müraciət edən 150 ölkə arasında Azərbaycanın olmaması qürurvericidir. Azərbaycan bu çətin günlərdə pul üçün heç bir qapını döyməyib, əksinə, dost ölkələrə imkan daxilində yardım əli uzadıb.

Karantin rejiminin iqtisadiyyata mənfi təsirləri qaçılmazdır. Bu və digər risklərə baxmayaraq, dövlət imkansız vətəndaşlara, zərər çəkmiş sahibkarlara yardım etməyi özünə borc bilir. Xalq da öz növbəsində bunu qiymətləndirir, dövlətinə hamılıqla dəstək olur. Göstərilən diqqət və qayğıdan riqqətə gələn vətəndaşlardan Prezidentə minlərlə məktub ünvanlanır. Bir hissəsi AZƏRTAC-ın kanalları ilə yayılan məktublarda sadə insanlar minnətdarlıq hisslərini səmimi şəkildə ifadə edirlər. Onların alqış nidaları dövlətin koronavirusla mübarizəsinə kölgə salmaq istəyən marginal qrupların və radikal müxalifətin səsini eşidilməz edir.

Yeri gəlmişkən, koronavirusla mübarizədə zəfərə yaxınlaşmağımızda qarşılıqlı dəstək mühüm rol oynayır. Mənəvi və maddi dəstəyin bir-birini tamamlaması əlavə güc mənbəyidir. Birinci vitse-prezident Mehriban Əliyevanın bu sınaq günlərində xalqa müraciəti, “Instagram” səhifəsində etdiyi səmimi paylaşımlar mənəvi dəstəyin parlaq nümunələridir. Mehriban xanım müdrik xalqımızın ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət kimi gözəl xüsusiyyətləri sayəsində bu ciddi çağırışın öhdəsindən gələ biləcəyimizə əminliyini vurğulayır. Hər kəsi dövlət tərəfindən görülən tədbirlərin vacibliyini birmənalı olaraq anlamağa, maksimum vətəndaş məsuliyyəti nümayiş etdirməyə səsləyərək deyir: “Məhz bu cür bir-birimizi qayğı ilə dəstəkləyərək, dözüm və anlayış göstərərək taleyin hökmü ilə üzləşdiyimiz qorxunc sınaqdan üzüağ çıxıb koronavirus üzərində qələbədən sonrakı həyat üçün hər kəsi qoruya bilərik. Bu qələbə mütləq baş tutacaq. Mən bu qələbəyə inanıram”.

### Pandemiya ilə mübarizəyə qlobal töhfələr və örnək ola biləcək təcrübə

Zaman belə bir həqiqəti təsdiqləyir ki, pandemiya ilə mübarizədə ümumi düşmənə qarşı birlikdə vuruşan ölkələr qalib gələcək. Bu mənada Azərbaycanın öncüllüyü diqqət çəkir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə videokonfrans formatında keçirilən Zirvə görüşü COVID-19 ilə mübarizədə beynəlxalq və regional əməkdaşlığa ilk və ciddi çağırış oldu. Zirvə görüşünə qatılan dövlət başçıları Azərbaycan Prezidentinin bu məsələdə liderliyini yüksək qiymətləndirdilər. Türk Şurasının Zirvə görüşü bu çətin dövrdə ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlığın böyük önəm daşıdığını ortaya qoydu.

Azərbaycan Prezidenti, həmçinin Qoşulmama Hərəkatının təmas qrupu formatında “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürüb. Üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənən və təqdir olunan bu təşəbbüs koronavirusa qarşı beynəlxalq əməkdaşlıq istiqamətində Azərbaycanın liderliyinin daha bir nümunəsidir.

Azərbaycan pandemiyadan əziyyət çəkən ölkələrlə özünəməxsus həmrəylik nümayiş etdirir. Heydər Əliyev Mərkəzinin binası üzərində İtaliya, İspaniya, ABŞ, Türkiyə, Gürcüstan və digər ölkələrin dövlət bayraqlarının, həmçinin beynəlxalq təşkilatların bayraqlarının proyeksiya olunması xeyirxah məram kimi rəğbətlə qarşılanıb.

Ölkəmiz pandemiyanın başlanğıcından Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə sıx əməkdaşlıq edir. Azərbaycan Təşkilata 5 milyon ABŞ dolları vəsait ayırıb. Vəziyyətin dəyərləndirilməsi üçün Azərbaycana gələn mütəxəssislərdən ibarət heyət ölkəmizdə pandemiya şəraitində zəruri tədbirlər görüldüyünü bildirib, həmçinin müəyyən tövsiyələr verib. Daha sonra ÜST bəyanat yayaraq Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunə kimi göstərib. ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfəni yüksək qiymətləndirərək deyib: “Mən Azərbaycan Prezidentinin bu mübarizədə milli, regional və qlobal səviyyədə güclü səylərini görürəm. İmkandan istifadə edərək cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm ki, bütün bu üç səviyyədə səyləri birləşdirir, dəstək verir”.

Eyni zamanda pandemiya ilə mübarizədə Azərbaycan modelinə artan marağı da görürük. Bu model və təcrübənin əsas üstünlüklərindən biri qəbul edilən qərarların icra mexanizminə malik olmasıdır. Prezidentin rəhbərliyi ilə dövlət strukturlarının, hüquq mühafizə orqanlarının rəhbərlərindən, hökumət üzvlərindən və mütəxəssislərdən ibarət komanda gecə-gündüz işləyir. Biz bu gün ciddi məhdudiyyətlər və dövlətin sərt üzü ilə yanaşı, Prezidentin humanistliyini və qayğıkeşliyini bir arada görürük ki, bu da çox önəmlidir.

Azərbaycan bir çox ölkələrdən qabağa düşərək Koronavirusla Mübarizəyə Dəstək Fondu yaratdı. Dövlət ilk olaraq fonda 20 milyon manat vəsait ayırdı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva birillik əməkhaqlarını fonda ianə etdilər. Sonradan bu təşəbbüs genişlənərək xalqımızın xeyirxahlıq ənənələrinə yeni nəfəs verdi.

Vəziyyəti düzgün qiymətləndirmək və böhranla fasiləsiz məşğul olmaq üçün səmərəli işləyən komanda yaradılması, əhalinin həssas təbəqələrinə hərtərəfli dəstək tədbirləri, ümumilikdə koronavirusla mübarizədə Azərbaycanın təcrübəsi barədə ölkəmizdən kənarda da müsbət fikirlər səslənir. Heç bir şərh vermədən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin çıxışından bir sitatı diqqətə çatdırmaq istərdim: “Hesab edirəm ki, ötən bir neçə ay Azərbaycanın gözəl hekayəsi sayıla bilər. Sizin ölkə dünyada ilin ilk rübündə iqtisadi artıma nail olmuş azsaylı ölkələrdəndir, bəlkə də yeganə ölkəsiniz. Gün gələcək Azərbaycanla müqayisə aparılacaq. Gələn il bizim illik iclasımız olacaq və növbəti 2-3 il ərzində biz ölkələr üzrə dəyərləndirmə aparacağıq. Azərbaycan burada artıq öndədir”.

Dünya ölkələri bir-birinə baxır, müsbət təcrübədən bəhrələnir, yaxud haradasa yol verilən səhvlərdən ibrət dərsi götürür. Bu mənada çox ibrətamiz olan iki situasiyaya daha ətraflı nəzər salaq. Xatırlayırsınızsa, Britaniya ilk vaxtlar tam fərqli mövqe tutmuşdu və heç bir məhdudlaşdırıcı tədbir görmürdü. İtirilmiş vaxt britaniyalılara baha başa gəldi. Pandemiyanın başlanğıcında Avropa ölkələrinin əksəriyyətindən az zərər çəkən ölkə indi koronavirusdan ölüm hallarının sayına görə İtaliyadan sonra ikinci yerdədir. Sonradan ciddi karantin tədbirləri görülsə də, yoluxma və ölüm hallarını azaltmaq mümkün olmur.

Yaponiyanın Hokkaydo adasında baş verən əhvalat isə dünya ölkələrinin bir çoxunun məhdudiyyətləri hədsiz yumşaltması fonunda daha ibrətamiz və səciyyəvi görünür. Fevralın sonlarında fövqəladə vəziyyət rejimi tətbiq edilən adada atılan qabaqlayıcı addımlar, uğurlu karantin dünyaya örnək göstərilirdi. Nəticədə martın ortalarınadək yeni yoluxma sayı sıfır nöqtəsinə yaxınlaşdı. Martın 19-da fövqəladə vəziyyət rejimi tam aradan qaldırıldı, aprelin əvvəlində məktəblər açıldı. Bundan cəmi 26 gün sonra epidemiya adanı ikinci dəfə, özü də daha sərt vurdu. Bu dəfə yoluxanların sayı gündə orta hesabla 300-ə qalxdı. Mütəxəssislər virusla belə ehtiyatsız davranışı Hokkaydonun uğur hekayəsinin üstündən xətt çəkən kobud səhv adlandırırlar.

* * *

Tarix boyu xalqları çətin və böhranlı vəziyyətlərdən liderlərin siyasi iradəsi və uzaqgörənliyi xilas edib. Böyük çağırışlar zamanı hər bir liderin üzərinə düşən əsas vəzifə məhz xilaskarlıq missiyasıdır.

Xatırlayın, 1993-cü ildə Heydər Əliyev Ümummilli Lider olaraq Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndərimizin siyasi varisi İlham Əliyev bu missiyanı indi pandemiya zamanı inamla və uğurla yerinə yetirir. Biz Prezidentimizlə birlikdə çox çətinliklərdən, sınaqlardan çıxmışıq. Koronavirusa da mütləq qalib gələcəyik. Əlbəttə, yenə də birlikdə!

***Aslan ASLANOV,***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri***
***OANA-nın vitse-prezidenti***

# İlham Əliyev daha bir ilkə imza atdı

## Prezident Qoşulmama Hərəkatının üzv dövlətlərinə Azərbaycanın koronavirusla mübarizə sahəsindəki təcrübəsini bölüşməyə hazır olduğunu bəyan etdi

*Əvvəli 1-ci səh.*

Hələ aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Mayın 4-də isə cənab İlham Əliyevin təşəbbüsü ilə bu Zirvə görüşünün keçirilməsi isə növbəti tarixi hadisə kimi yaddaşlara yazıldı.

Prezident görüşdə xatırlatdı ki, Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürüb. Qoşulmama Hərəkatının bütün üzv dövlətləri də bu təşəbbüsü yekdilliklə dəstəkləyiblər. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunub.

Əlavə edək ki, 120 üzv və 17 müşahidəçi dövləti, eyni zamanda 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən hərəkat müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm platformadır. Dünyadakı mövcud dövlətlərin üçdəikisini əhatə edən bir təsisatın mühüm toplantılarında müzakirə edilən məsələlər BMT Baş Assambleyasının gündəliyinin formalaşmasına böyük təsir göstərir. Bu, həm də onu göstərir ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan hərəkət konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirməyib və bu qurum beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir.

Cəmi 9 il əvvəl Azərbaycan bu qlobal hərəkatın üzvlüyünə qəbul olunub. Lakin qısa dövrdə ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməklə Hərəkat daxilində böyük nüfuz qazanıb. Qlobal pandemiya dövründə məhz




Zirvə görüşünün videokonfrans formatında təşkili də bunu bir daha təsdiq edir.

Bu Zirvə görüşündə də cənab İlham Əliyev Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik və zəruri qabaqlayıcı tədbirlər barədə məlumat verərək vurğuladı ki, pandemiya dövründə prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Ölkədə həyata keçirilən bütün bu tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınıb. Son üç həftə ərzində Azərbaycanda xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasında müsbət dinamika yaranıb.

Dövlət başçısı pandemiya şəraitində Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə sabitliyi təmin etmək üçün görülən işlərdən də danışaraq, bu məqsədlə müstəqillik tariximizin ən böyük maliyyə tutumlu sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu diqqətə çatdırdı.

Cənab İlham Əliyev Azərbaycanın koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazır olduğunu bəyan etdi. Eyni zamanda dedi ki, Avrasiyada önəmli nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilən Azərbaycan pandemiya dövründə də etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq ərazisi vasitəsilə mənəvisiz tranzit daşımalarını təmin edir.

Bəlli oldu ki, Zirvə görüşünün təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcək. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim olunacaq.

Sammitdə dövlət başçısı qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələrini BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının videokonfrans vasitəsilə keçirilməsi təklifini irəli sürdü.

Sammitdə 40-dan çox üzv ölkənin dövlət və hökumət başçıları da çıxış etdilər. Qeyd edək ki, hərəkatda 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq Zirvə görüşü coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında baş tutdu.

Göründüyü kimi, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük nailiyyətlərə imza atır. Azərbaycan dünyanın yeni reallıqlarına çevik və adekvat reaksiya verir. Yeni dünyanın bir parçası olan ölkəmiz bəşəriyyəti böyük sınaq qarşısında qoyan qlobal pandemiyaya qarşı nəinki milli səviyyədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir.

Azərbaycan Prezidentinin bu təşəbbüsü də pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlər arasındakı əməkdaşlığı daha da dərinləşdirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İndi hər kəsdən daha çox düşüncə və məsuliyyət tələb olunur

Azərbaycan ərazisində xüsusi karantin rejiminin mayın 31-dək uzadılması COVID-19 şəraitində, bu amansız bəla ilə mübarizədə dövlətimizin ilk növbədə önə çəkdiyi məsələyə - insanların sağlamlığına xidmət edir. Ümumilikdə bu, pandemiyadan hər sahədə minimum itkilərlə çıxmağımız üçün görülən çoxsaylı və çoxşaxəli tədbirlərin davamıdır.

Bu addım koronavirusla bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək atılıb. Xalqımız indiyədək pandemiya ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlər kimi, bu qərarı da yüksək dəyərləndirir. Çünki hər birimiz dönə-dönə şahidi oluruq ki, dövlətimiz üçün birinci şərt insanların sağlamlığıdır.

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bizim üçün prioritet məsələ insanların sağlamlığı, onların həyatı və sosial müdafiəsidir. Cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan, videokonfrans şəklində keçirilən müşavirədə dövlət başçısı bunu bir daha qeyd edərək demişdir: "Ona görə bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək. Əvvəllər qeyd etdiyim kimi, biz addımlarımızı vəziyyətə uyğun atacağıq və əlbəttə, hamımız istəyirik ki, bu karantin rejimine tezliklə son qoyulsun və vətəndaşlar öz normal həyatına qayıtsınlar. Ancaq bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər".

Lakin təəssüf ki, bütün bu ciddi tədbirlərə laqeyd yanaşan, hətta barmaqarası baxanlar da tapılır. Ən adi bir misal göstərək. Bəziləri küçədə gedərkən, nəqliyyat vasitəsinə minərkən maskanı yalnız polisdən, yaxud başqa kimdənsə irad eşitməmək üçün taxır. Məgər bunu başa düşmək o qədər çətindir ki, maskanı sən özünün və ətrafındakı insanların sağlamlığı naminə taxırsan?

Bu da bir həqiqətdir ki, SMS vasitəsilə icazə alıb aptekə dərman, mağazaya ərzaq almaq adı ilə küçəyə gəzməyə çıxanlar, yaxud qohumunun, dostunun evinə qonaq gedənlər az olsalar belə, təəssüf ki, var. Ən bağışlanmaz hal isə guya dünyasını dəyişmiş doğmasının dəfninə gətmək üçün icazə alıb bu vaxtı başqa məqsədlərə istifadə edənlərdir. Təəssüf ki, belə hallar da mövcuddur və bu hərəkəti edənlər, əlbəttə, polis tərəfindən saxlanılır, sonra da cəzalarını alırlar.

Ən böyük nəzarətçi isə insanın öz vicdanı olmalıdır. Dəfnə getmək adı ilə "başmaq seyrinə" çıxanların, dünyasını dəyişən hansısa insanın hüzüründən sui-istifadə etməyə çalışanların hərəkətinə nə ad vermək olar?!

Doğrudur, karantinin müddəti uzadılıb. Eyni zamanda əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair də qərar verilib.

Pandemiya isə davam edir və əgər insanlar qoyulan qaydalara riayət etməsələr, qaydaların yumşaldılmasından sui-istifadə etsələr, bu, heç də yaxşı nəticə verməz. Başqa sözlə, indi bizim hər birimizdən daha çox düşüncə, təmkin və məsuliyyət tələb olunur.

Operativ Qərargah bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, tələb və tövsiyələri yerinə yetirməyə çağırıb.

COVID-19 virusu ilə bağlı ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək müvafiq qaydalar tətbiq olunur.

Sanitar-epidemioloji vəziyyətdən asılı olaraq növbəti mərhələdə mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərarların verilməsi nəzərdə tutulur. Lakin bu virusa yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi də mümkündür.

COVID-19-un ölkəmizdən uzaqlaşması, xalqımızın sağlamlığı, iqtisadiyyatımızın geriləməməsi üçün Azərbaycan dövləti nə mümkündürsə, edir. Bu müqəddəs və xeyirxah işə hər birimiz öz töhfəmizi verməliyik.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı mövqeyimiz bəllidir və dəyişilməzdir

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz bəllidir və dəyişilməzdir. Münaqişə BMT Nizamnaməsinin, Helsinki Yekun Aktının prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həll edilməli, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxmalı və bu torpaqlardan didərgin salınmış məcburi köçkünlər öz evlərinə geri qayıtmalıdırlar. Bu məsələdə hər hansı bir əlavə şərhə yer yoxdur.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın münaqişənin mərhələli həlli ilə bağlı parlament komissiyasının iclasında səsləndirdiyi fikirlərinə münasibət bildirilməsinə dair KİV-in müraciətinə cavabında deyib.

## Avropa İttifaqının ali nümayəndəsi Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə Aİ-nin dəstəyini ifadə edib

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrell Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə Aİ-nin dəstəyini ifadə edib.

AZƏRTAC Avropa Parlamentinin saytına istinadla xəbər verir ki, Avropa İttifaqının (Aİ) ali nümayəndəsi Cozef Borrell Dağlıq Qarabağda keçirilmiş qondarma seçkilərlə bağlı Avropa Parlamentinin üzvünün sualını cavablandırıb.

Aİ-nin ali nümayəndəsi sorğuya cavab verərək bildirib ki, Avropa İttifaqı Azərbaycan da daxil olmaqla bütün tərəfdaş ölkələrin ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə sadiq qalır. Bu, 2017-ci il Şərq Tərəfdaşlığı Sammitinin bəyannaməsində açıq şəkildə qeyd edilib.

C.Borrell Avropa İttifaqının münaqişələrin müəyyən edilmiş formatda sülh yolu ilə həllini dəstəkləməyə sadiq olduğunu da qeyd edib. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması kontekstinə gəldikdə, Aİ-nin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində ATƏT-in Minsk qrupu həmsədrlərinin, o cümlədən Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin səylərini və təkliflərini dəstəkləməkdə davam edir.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Aİ-nin Xarici Fəaliyyət Xidmətinin sözçüsünün 2020-ci il 31 mart tarixində verdiyi bəyanatda Aİ-nin Dağlıq Qarabağda keçirilmiş qondarma "prezident və parlament seçkilərinin" konstitusion və hüquqi çərçivəsini tanımadığını bir daha təkrar edərək, bu hadisənin Dağlıq Qarabağın gələcək statusunun müəyyənləşdirilməsinə və ya davam edən danışıqlar prosesinin nəticələrinə xələl gətirə bilməyəcəyini vurğulamışdır.

Avropa Parlamentinin üzvünün yazılı sorğusu və Aİ ali nümayəndəsinin cavabını aşağıdakı keçidlərdən əldə etmək olar:

**https://www.europarl.europa.eu/doceo/document/E-9-2020-001279_EN.html**
**https://www.europarl.europa.eu/doceo/document/E-9-2020-001279-ASW_EN.pdf**

## Rumıniyanın AGERPRES agentliyi Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatındakı Zirvə görüşü barədə məlumat yayıb

Rumıniyanın AGERPRES xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü barədə geniş məlumat yayıb.

Məqalədə qeyd olunub ki, Qoşulmama Hərəkatının 120 dövlətin təmsil olunduğunu nəzərə alaraq Zirvə görüşü coğrafi təmsilçilik prinsipi əsasında Avropa, Asiya, Afrika və Latın Amerikasında yerləşən ölkələrin iştirakı ilə Təmas Qrupu formatında keçirilib. Qırxdan çox üzv ölkənin dövlət və hökumət başçılarının qatıldığı videokonfransda BMT-nin baş katibi, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Avropa İttifaqının ali nümayəndələri də iştirak ediblər.

Bundan əlavə bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə bu il aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü də keçirilib. Türk Şurası dünyada dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşü keçirən ilk beynəlxalq təşkilatdır.




## Misir mətbuatı Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşünə geniş yer ayırıb

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü Misir mətbuatının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, rəsmi MENA informasiya agentliyi, "Youm7", "Axbarelyoum", "Aldiplomacy" və digər mətbuat orqanlarında bu mühüm tədbir haqqında məqalələr, dövlət başçısı Əbdülfəttah əs-Sisinin çıxışı dərc edilib. Bundan başqa, Misir Prezidentinin Zirvə görüşündə iştirakı ilə bağlı videomaterial "Axbarelyoum" nəşrinin "YouTube" kanalında da yerləşdirilib.

Materiallarda qeyd olunub ki, Misir Prezidenti yeni növ koronavirusun hamı üçün təhlükə törətdiyi bir vaxtda mühüm Zirvə görüşünün keçirilməsi kimi nəcib təşəbbüsə görə Azərbaycanın dövlət başçısı, Qoşulmama Hərəkatının sədri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib, ölkəmizin rəhbərliyini müqəddəs Ramazan ayı münasibətilə təbrik edib. O, həmçinin koronavirusdan həyatını itirənlərin ailələrinə başsağlığı verib, xəstələrə tezliklə şəfa tapmalarını arzulayıb.



Pandemiyanın ciddi sosial, iqtisadi və siyasi fəsadlarını xatırladan Əbdülfəttah əs-Sisi vurğulayıb ki, Zirvə görüşündə ifadə edilən qlobal həmrəylik çağırışı olduqca mühümdür. O, Misirin Qoşulmama Hərəkatının təsisçilərindən biri olduğunu xatırladaraq bu qrupun koronavirus pandemiyasının qarşısının alınmasında əhəmiyyətli rol oynayacağına əminliyini ifadə edib. Misirin dövlət başçısı bu məqsədlə zəruri tibbi və profilaktik materialların təmini, koronavirusa qarşı vaksinin və dərmanların hazırlanması üçün maliyyə vəsaitinin ayrılması, inkişaf etməkdə olan ölkələrə, xüsusən Afrika qitəsi dövlətlərinə yardım edilməsi, onların borclarının təxirə salınması, pandemiyanın ərzaq təhlükəsizliyinə mənfi təsirinin azaldılması təkliflərini səsləndirib.

Azərbaycanın dövlət başçısına bir daha təşəkkürünü bildirən Əbdülfəttah əs-Sisi əmin olduğunu bildirib ki, Prezident İlham Əliyevin sədrliyi dövrü Qoşulmama Hərəkatının məqsəd və prinsiplərinə nail olunması istiqamətində uğurlu mərhələ olacaq.

## *Operativ Qərargah:* Azərbaycanda koronavirusa 52 yeni yoluxma faktı qeydə alınıb, 39 nəfər müalicə olunaraq evə buraxılıb

Azərbaycan Respublikasında 52 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 39 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəkərli diabet, xronik ürək çatışmazlığı və ürəyin işemik xəstəliyi olan 1969-cu il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1984 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 1480 nəfər müalicə olunaraq sağalıb, 26 nəfər vəfat edib, 478 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 18 nəfərin vəziyyəti ağır, 29 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

## *Misirli politoloq:* "Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən Zirvə görüşü koronavirus pandemiyasına qarşı mübarizədə həmrəylik baxımından çox əhəmiyyətlidir"

Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusundakı Zirvə görüşü bu bəlaya qarşı dövlətlərin həmrəyliyi və əməkdaşlığı baxımından çox əhəmiyyətlidir.

Bu fikri AZƏRTAC-a müsahibəsində Misirin tanınmış politoloqu, Misir Xarici Əlaqələr Şurasının üzvü, Qahirə Universitetinin Rusiya Araşdırmalar Mərkəzinin direktoru, professor Nurhan əl-Şeyx səsləndirib. O deyib: "Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama



Hərəkatının üzvü olan dövlətlərə COVID-19 virusuna qarşı mübarizəyə dair müraciəti olduqca mühümdür. Dünyanı çalxalayan bu bəlanın və onun fəsadlarının aradan qaldırılması Hərəkata üzv dövlətlərin və bütün bəşəriyyətin qarşısında duran ən vacib problemdir. Pandemiyanın yaratdığı sosial-iqtisadi çətinliklər bütün ölkələr, ələlxüsus maliyyə resursları az olan dövlətlər üçün ciddi təlatümlərə səbəb olub. Qoşulmama Hərəkatına üzv dövlətlərin bir çoxu da məhz məhdud ehtiyatlara malikdir və qarşıdakı dövrdə onları çətin sınaqlar gözləyir. Bu baxımdan Azərbaycan Prezidentinin təşəbbüsü ilə keçirilən Zirvə görüşü bütün dövlətlərin səylərini birləşdirməsinə daha bir çağırışdır.

Xanım əl-Şeyx xatırladıb ki, 1961-ci ilin sentyabrında təsis edilən Qoşulmama Hərəkatının əsasını qoyanlardan biri də o vaxt Misirə rəhbərlik edən Camal Əbdül Nasir olub. O bildirib ki, Hərəkatın bütün tədbirlərinə fəal qatılan rəsmi Qahirə hazırda bu qrupa sədrlik edən Azərbaycanın təşəbbüsünü yüksək qiymətləndirir. Bunu Misir Prezidenti Əbdülfəttah əs-Sisi bu gün keçirilən Zirvə görüşündəki çıxışında da vurğulayıb.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# 250 milyon dollardan artıq sərmayə

## Avropa Yenidənqurma və İnkişaf Bankı Prezident İlham Əliyevin müəllifi olduğu müxtəlif layihələrə investisiya yatırmağı planlaşdırır

*Əvvəli 1-ci səh.*



Bu fikirləri aprelin 28-də Prezident İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının geniş tərkibli heyəti arasında keçirilən videokonfransda təşkilatın rəhbəri Suma Çakrabarti söyləyib.

### Pandemiya dövründə qeyri-neft sektorunda 3 faizlik artım rekord göstəricidir

Videokonfrans zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizədə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirib, pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların qarşısının alınması üçün ölkəmizdə görülən səmərəli işlərin böyük əhəmiyyət daşıdığını vurğuladı.

Qlobal pandemiya dövründə Prezident İlham Əliyevin ölkədə makroiqtisadi sabitliyi qorumaq üçün atdığı hər bir addımı təqdir edən Suma Çakrabarti hesab edir ki, dünyanın qlobal böhranla mübarizə apardığı dövrdə Azərbaycanda ilin birinci rübündəki iqtisadi artım müsbət qiymətləndirilməlidir.

Həqiqətən də, dünyanın böyük dövlətləri koronavirus pandemiyası qarşısında aciz durumda qaldıqları bir dönəmdə Azərbaycanda qeyri-neft sektorunun inkişafı tarixi nailiyyət hesab edilə bilər. Xatırladaq ki, ilk rübdə qeyri-neft sektorunda 3 faizlik, qeyri-enerji sahəsində 23 faizlik artım qeydə alınıb. Suma Çakrabarti bunu çox gözəl hekayə adlandıraraq gələcəkdə məhz Azərbaycanla müqayisə aparılacağını vurğulayıb: "Gələn il bizim illik iclasımız olacaq və növbəti 2-3 il ərzində biz ölkələr üzrə dəyərləndirmə aparacağıq. Azərbaycan burada artıq öndədir".

Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin növbəti təntənəsidir. Düşünülmüş, uzaqgörən siyasəti ilə Azərbaycanı istənilən böhran vəziyyətindən az itkilərlə çıxarmağı bacaran cənab İlham Əliyev koronavirusla mübarizədə ortaya qoyduğu nümunə ilə bir çox ölkələrə yol göstərdi.

Prezident pandemiya ilə mübarizədə həyata keçirilən qabaqlayıcı tədbirləri, infeksiyanın daha çox yayılmaması üçün görülən ciddi işləri, tikilən tibbi müəssisələri göstərməklə yanaşı karantin dövründə xalqın sosial rifah halının yaxşılaşdırılması, sahibkara güzəştlərin edilməsi, işsiz qalan vətəndaşlara maddi yardımın göstərilməsi ilə bağlı genişmiqyaslı iqtisadi və sosial paketin qəbul edildiyini diqqətə çatdırdı. Bildirdi ki, mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə ciddi dəstək paketi təqdim edilib, xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənilib. Bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edilib.

Təbii ki, bu, Azərbaycan üçün böyük xərcdir. Vergi güzəştləri də nəzərə alınsa, bu gün bu rəqəm 3,5 milyard manat və ya 2 milyard dollardan çoxdur. Dövlət başçısının söylədiyi kimi, bu, ölkənin büdcəsi üçün böyük yükdür, çünki neftin qiymətinin kəskin azalması ölkənin valyuta ehtiyatlarına mənfi təsir göstərəcək.

Lakin hər zaman siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan cənab İlham Əliyev bu çətin durumda da xalqı düşündü, hər zamankı kimi, sosial paketini təqdim etdi.

### Azərbaycanda çoxlu dəyişikliklər olub və bu proses davam etməkdədir

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) qarşıdakı planları haqqında məlumat verən təşkilatın rəhbəri qeyd etdi ki, ötən illərə müqayisədə keçən il Azərbaycana sərmayə həcmi aşağı səviyyədə olub, qurum neft-qaz sahəsinə yatırım etməyib. Bu il isə AYİB yenidən Azərbaycana böyük sərmayə yatıracaq:

"Bu, böhrana cavab tədbirləri və iqtisadiyyatın canlandırılması baxımından düzgün olardı. Biz münbit şərait olduqda bu il Azərbaycana 250 milyon dollardan artıq sərmayə yatırmağı planlaşdırırıq. Bu sərmayənin qoyulması üçün bizə suveren və subsuveren zəmanət tələb olunacaq. Bu layihələr xüsusilə özəl sektorun əhatə edir və buraya enerji, infrastruktur və İKT sahələri daxildir. Buraya bəzi dövlət müəssisələrinin kommersiyalaşması da daxildir".

AYİB rəhbərinin fikirlərindən bəlli oldu ki, qurum ölkəmizdə bir neçə layihənin reallaşdırılmasına maliyyə yardımı ayırmağa hazırdır. Bunlardan biri elektrik enerjisi şəbəkəsidir. Bank bu şəbəkənin təkmilləşdirilməsinə təxminən 100-200 milyon avro sərmayə yatırmağı təklif edir.

Suma Çakrabarti qeyd etdi ki, həmçinin bərpaolunan enerji mənbələrinə özəl yatırımlar üçün imkanlar yaranıb. Daha sonra "yaşıl şəhər" ideyası da mövcuddur: "Azərbaycan "yaşıl şəhər" təşəbbüsünə qoşulan ilk ölkələrdən oldu. Tullantıların idarə edilməsi layihəsi baxımından Gəncə bu çərçivə təşəbbüsünə mart ayında qoşuldu. Biz təklif edirik, o, ilk "yaşıl şəhər" layihəsi olsun. Həmçinin "Aztelekom" şirkəti ilə bağlı təklifimiz var. Bizim alt suveren 15-25 milyon avroluq mühüm investisiya layihəmiz var. Rayonlarda genişzolaqlı internet imkanları genişlənəcək. Bu da çox vacibdir. Böhrandan sonra bərpa mərhələsi üçün də bunun əhəmiyyəti olacaq.

Biz dövlət müəssisələrinin kommersiyalaşdırılması və özəlləşdirilməsinə keçidə həqiqətən kömək etmək istərdik. Biz həmçinin Azərbaycanın yeni İnkişaf Korporasiyasının yaradılması istiqamətində çalışırıq".

Prezident İlham Əliyev də AYİB rəhbərliyinin təkliflərini yüksək qiymətləndirərək vurğuladı ki, əvvəlcə planlaşdırılan işlərin əksər hissəsi artıq yerinə yetirilib. Hazırda iqtisadi inkişafın əsas məqsədlərindən biri kölgə iqtisadiyyatının miqyasının azaldılmasıdır: "Ötən il biz yaxşı irəliləyişə nail olduq. Bu il isə biz bu istiqamətdə çox uğurla irəliləyirik. Azərbaycanda çoxlu dəyişikliklər olub. Prezident Administrasiyasında, hökumətdə, parlamentdə, yerli icra hakimiyyəti orqanlarında dəyişikliklər baş verib. Onlar davam edir".

Aparılan danışıqlar zamanı bir daha bildirildi ki, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanla gələcəkdə də müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Zamanın tələbi

## İlham ƏLİYEV: "Haqq da, xalq da bizim tərəfimizdədir"

*Əvvəli 1-ci səh.*

Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir".

Qəbuldakı çıxışında Prezident postneft dövrünə hazırlığa da xüsusi yer verdi. Qeyd etdi ki, neft bazarlarında müşahidə olunan böhran neftlə zəngin olan bütün ölkələrə ciddi ziyan vurmuşdur. Belə bir məqamda qeyri-neft sektorunun inkişafı daha da aktuallaşır. Bu günədək əldə olunan uğurlar perspektivlərin genişləndirilməsi üçün möhkəm bünövrədir. Neftin qiymətinin ucuzlaşması, pandemiyanın yayılması bir çox ölkələri tənəzzülə uğratmışdır və bizim də belə reallıqlarla qarşılaşmağımızı istisna etmək sadəlövhlük olardı.

Dövlət başçısı bildirdi ki, təhlükələrdən sığortalanmağın əsas yolu kadr islahatlarından, yeni peşəkar, bilikli, müasir kadrların irəli çəkilməsindən asılıdır: "...bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksək keyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər".

Azərbaycan Prezidenti hüquq mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılmasını, qanunun aliliyinin tam təmin edilməsini və ədalətli cəmiyyətin qurulmasını başlıca şərt kimi qeyd edərkən həm də təəssüf hissi ilə vurğuladı ki, hələ məqsədimizə tam nail olmamışıq, hüquq mühafizə orqanları tərəfindən qəbul edilmiş qərarlar bəzi hallarda qanunlara ziddir, sosial ədaləti pozur, insanları haqlı olaraq narazı salır və beləliklə, ümumi işimizə böyük ziyan vurur.

Dövlət başçısı qəbulda bütün hüquq mühafizə orqanlarının əməkdaşları və rəhbərlərinə başlıca tələbini çatdırdı: hüquq mühafizə sistemində islahatlar dərinləşməli, qanunun aliliyi təmin edilməlidir.

Videobağlantıda hamının diqqətinə çatdırıldı ki, həm fəaliyyətdə olan, həm də yeni təyinat alan kadrların peşəkarlığı diqqət mərkəzində olmalı, dövlətçiliyə sədaqət prinsipləri bütün dəyərləri üstələməlidir. Dövlətimizin inkişafı və möhkəmləndirilməsi müstəqilliyimizin özülünü təşkil edir. Bütün sahələrdə kadrların dövlətə, xalqa sədaqəti, vətənpərvərliyi ən vacib amildir.

Prezident İlham Əliyev korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə prokurorluq orqanlarını daha fəal olmağa çağırdı: "Bütün dövlət məmurlarını xəbərdar etmişdim və hətta demişdim ki, əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin. Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir".

Dövlət başçısı bir daha hamının diqqətinə çatdırdı ki, heç kim qanundan üstün deyil və heç kimə onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları kömək edə bilməyəcəklər: "Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır... İndi dünya liderlərinin bir çoxu qeyd edir ki, pandemiya müharibədir. Bəli, mən bu tezislə razıyam. Əgər indiki şəraitdə bunlar özlərini belə aparırlarsa, bundan daha ağır vəziyyət yaranarsa, onda bunlar nə edəcəklər? Bunun bir adı var - vicdansızlıq və xəyanət. Ona görə bundan sonra bu ünsürlərə qarşı mübarizə daha ciddi aparılmalıdır".

Cənab İlham Əliyev ürəkağrısı ilə vəzifəli şəxslərdən, iş adamlarından rüşvət alındığını dedi və bu hallara qarşı bundan sonra da amansız mübarizə aparılacağını bir daha bəyan etdi: "Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur. Eyni zamanda mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalıdır və qanunun aliliyini təmin etməlidir".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Üç rayonun icra hakimiyyətləri başçılarının inzibati ərazi nümayəndəliklərinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb

Koronavirus infeksiyasının respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması, həmin dövrdə işləməyən şəxslərə və az təminatlı ailələrə ayrılmış ərzaq yardımlarının paylanmasında yol verilmiş neqativ hallara qarşı prokurorluq orqanları tərəfindən şəhər və rayon icra hakimiyyətləri ilə əlaqəli şəkildə qanunamüvafiq tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabirabad, Ağcabədi və Tərtər Rayon İcra hakimiyyətləri başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol verməleri barədə rayon icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Sabirabad Rayon İcra Hakimiyyətindən rayonun Ulacalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mehman Cəfərovun və rayonun Quruzma kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi İqbal Əliyevin Heydər Əliyev Fondu tərəfindən imkansız ailələrə göndərilmiş ərzaq yardımının paylanması zamanı neqativ hallara yol verərək ərzaq paylarını özlərinin yaxın qohumlarına, o cümlədən kəndin imkanlı şəxslərinə paylamalarına, M.Cəfərovun və İ.Əliyevin vəzifə saxtakarlığı etməklə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verməsinə əsaslı şübhələr müəyyən olunub.

Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının Pərioğullar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi İmran Həsənovun, Aran kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Məzahir Əmirahovun və müavini Allahverdi Hüseynovun vəzifə saxtakarlığına yol verərək arayışlara bilə-bilə yalan məlumatlar daxil edib ayrı-ayrı şəxslərin xüsusi karantin rejimi qaydalarına zidd olaraq rayon ərazisini tərk etməsinə şərait yaratmalarına əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, Tərtər Rayon İcra Hakimiyyəti başçısının Mamırlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Şahid Məmmədov tərəfindən də eyni məzmunlu qanun pozuntusuna yol verilib. Belə ki, Şahid Məmmədovun vəzifə saxtakarlığı edilməklə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar verilməsinə əsaslı şübhələr müəyyən olunub.

Həmin şəxslər müvafiq rayon icra hakimiyyətləri başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər.

Toplanmış materiallar üzrə Sabirabad, Ağcabədi və Tərtər rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanıb.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək 961 nömrəli Çağrı Mərkəzinə məlumat verməlerini xahiş edir.

# Milli Məclis komitələrinin onlayn iclasları keçirilib

Mayın 4-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin onlayn iclası keçirilib.

Komitə sədri Ziyafət Əsgərov gündəliyə üçüncü oxunuşda iki qanun layihəsinin daxil edildiyini diqqətə çatdırıb.

Birinci məsələ - "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" Azərbaycan Respublikasının qanun layihəsi ilə bağlı komitə sədri diqqətə çatdırıb ki, sənədin ikinci oxunuşu zamanı verilən təkliflər nəzərə alınıb və redaktə xarakterli bəzi düzəlişlər edilib.

Sonra Ziyafət Əsgərov vurğulayıb ki, ölkədə elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılmasını təkmilləşdirmək və elmi tədqiqatların səviyyəsini yüksəltmək məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə "Elmi dərəcələr verilməsi qaydası haqqında" və "Elmi adlar verilməsi qaydası haqqında" əsasnamələr təsdiq edilib. Gündəlikdəki ikinci məsələ - "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında", "Elm haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə" qanun layihəsi həmin fərmanda nəzərdə tutulmuş məsələlərlə əlaqədardır.

İclasda çıxış edən deputatlar Hikmət Məmmədov və Aydın Mirzəzadə təqdim olunan məsələlər barədə fikirlərini bildiriblər.

Onlayn müzakirələrdə komitə üzvləri Aqil Abbas, Əminə Ağazadə, Kamal Cəfərov, Elşad Mirbəşir oğlu, Oqtay Əsədov, Nurlan Həsənov, Erkin Qədirli, Elman Məmmədov, Arzu Nağıyev, Bəxtiyar Sadıqov, Nizami Səfərov iştirak ediblər.

İclasın sonunda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Mayın 4-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat xidmətindən bildiriblər ki, Milli Məclis Sədrinin müavini, komitə sədri Fəzail İbrahimli iclası açaraq gündəlik barədə məlumat verib.

Komitə sədri bildirib ki, deputatlara təqdim olunmuş "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılır.

Layihə barədə danışan Fəzail İbrahimli diqqətə çatdırıb ki, adları çəkilən sənədlərə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununa uyğunlaşdırma məqsədilə bir sıra düzəlişlər təklif olunur.

İclasda iştirak edən komitə üzvləri Sahib Alıyev, Azər Badamov, Sevinc Fətəliyeva, Malik Həsənov, Anar İsgəndərov, Ceyhun Məmmədov, Cavanşir Paşazadə layihə barədə öz fikirlərini açıqlayıblar, dəyişiklikləri məqsədəmüvafiq hesab ediblər.

Müzakirələrin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Mayın 4-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn iclası keçirilib.

Parlamentin Mətbuat xidmətindən bildiriblər ki, komitənin sədri Bəxtiyar Əliyev gündəlikdə iki məsələnin olduğunu qeyd edib. Birinci məsələ "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsidir. Komitə sədri diqqətə çatdırıb ki, qanun layihəsi Prezident İlham Əliyevin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli fərmanına uyğun olaraq hazırlanıb. Həmin fərmana əsasən, Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılıb və onun nizamnaməsi təsdiq edilib. "Təhsil haqqında" qanuna təklif olunan dəyişikliklər də bununla bağlıdır. "Dövlət rüsumu haqqında" qanuna təklif olunan dəyişikliklər isə "Təhsil haqqında" qanuna təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınması bir xidmət növü kimi müəyyən edildiyindən və həmin xidmətə görə xidmət haqqı tutulduğundan, "Dövlət rüsumu haqqında" qanunda müvafiq dəyişiklik edilir və xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınmasına görə dövlət rüsumu ləğv edilir.

Komitə sədri bildirib ki, ikinci qanun layihəsi isə "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi (üçüncü oxunuş) barədədir. Qeyd olunub ki, ölkəmizdə elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılmasını təkmilləşdirmək, elmi tədqiqatların səviyyəsini yüksəltmək məqsədilə Prezident İlham Əliyevin 2019-cu il 11 iyun tarixli fərmanı ilə "Elmi dərəcələr verilməsi qaydası haqqında" və "Elmi adlar verilməsi qaydası haqqında" əsasnamələr təsdiq edilib. Həmin əsasnamələrdə elmi dərəcələr və adların verilmə qaydası, xarici ölkələrdə verilmiş elmi dərəcə və adların nostrifikasiyası və ya təkrar attestasiya əsasında tanınması, elmi dərəcədən və elmi addan məhrumetmə kimi məsələlər və şikayətlərə baxılma proseduru öz əksini tapıb. Mövcud layihə yuxarıda qeyd olunan fərmanla əlaqədar və müvafiq qanunvericiliyə uyğunlaşdırmaq məqsədilə hazırlanıb.

Onlayn iclasda çıxış edən komitə üzvləri İsa Həbibbəyli, Ceyhun Məmmədov və Aqiyə Naxçıvanlı müzakirə olunan məsələlərə münasibət bildiriblər, layihələri yüksək qiymətləndiriblər. İclasda komitə üzvləri Musa Qasımlı, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Etibar Əliyev, Kamilə Əliyeva, Afət Həsənova, Rafael Hüseynov, Anar İsgəndərov, Pərvin Kərimzadə, Eldar Quliyev, Müşfiq Məmmədli, Şahin Seyidzadə və Fatma Yıldırım iştirak ediblər.

İclasın sonunda gündəlikdəki hər iki məsələ yekdilliklə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

* * *

Mayın 4-də Milli Məclisin Mədəniyyət komitəsinin onlayn iclasında dörd məsələ üçüncü oxunuşda müzakirəyə çıxarılıb.

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qeyd edib ki, "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadə qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlara təklif edilən dəyişikliklərdə məqsəd "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Qanunun icrası ilə bağlıdır. Milli Məclisin Daxili Nizamnaməsinin 3-cü maddəsinə "Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin iclaslarına gəldiyi zaman Azərbaycan Respublikasının Dövlət Himni ifa edilir" məzmununda əlavə olunur; adıçəkilən digər 3 qanuna edilən dəyişikliklər də ölkəmizdə fəaliyyət göstərən televiziya və radio yayımlarında Azərbaycanın Dövlət Himnindən istifadə qaydalarını tənzimləməyə xidmət edir.

Sonra "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlara təklif edilən dəyişikliklərdən (üçüncü oxunuş) bəhs edən komitə sədri bildirib ki, uyğunlaşdırma xarakteri daşıyan dəyişikliklərə əsasən, reklam qurğuları tarix və mədəniyyət abidələrində, memarlıq abidələrində, həmçinin mühafizə zonalarında yerləşdirilərkən 2019-cu il 5 dekabr tarixli "Reklam haqqında" qanunla müəyyən edilmiş qaydaya əməl olunmalıdır.

Gündəlikdəki üçüncü məsələni şərh edən Qənirə Paşayeva vurğulayıb ki, Prezident İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli Fərmanı Azərbaycan dilinin hüquqi statusunun qorunması ilə bağlı mühüm vəzifələr qoyub. Fərmanın icrası ilə əlaqədar olaraq "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında", "İctimai televiziya və radio yayımı haqqında" qanunlara, həmçinin İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər (üçüncü oxunuş) ölkəmizdə dövlət dilinin saflığının qorunmasına xidmət edəcək.

Onlayn iclasda komitə sədrinin müavini Fazil Mustafa, komitə üzvləri Nizami Cəfərov, Əziz Ələkbərli, Cavanşir Feyziyev, Sabir Rüstəmxanlı, Aqil Abbas, Ülviyyə Ağayeva, Novruzəli Aslanov, Mixail Zabelin və Ülviyyə Həmzəyeva bu qanun layihələrinin əhəmiyyətindən danışıblar.

Fikir mübadiləsinin yekununda müzakirə edilən məsələlərin Milli Məclisin plenar iclasına tövsiyə olunması qərara alınıb.

***AZƏRTAC***

# Müxtəlif cinayət əməlləri törətmiş dəstə üzvləri həbs ediliblər

Polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində ədalət mühakiməsinin həyata keçirilməsinə mane olmaq məqsədilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşib müxtəlif cinayət əməlləri törətmiş dəstə üzvləri həbs ediliblər.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə istintaqı tamamlanmış və təqsirləndirilərək barəsində həbs qətimkan tədbiri seçilmiş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq əməkdaşı Vüsal Əliyevin digər cinayət əməlləri də ortaya çıxıb.

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, Vüsal Əliyev işlədiyi dövrdə yol verdiyi qanun pozuntularının aşkar olunmasının və anasına saxta sənədlər əsasında təqaüd təyin etdirməsi faktının üzə çıxmasında səbəbkar kimi işlədiyi nazirliyin adı təhlükəsizlik səbəbindən açıqlanmayan məsul əməkdaşını günahkar bildiyindən onu döydürüb cəzalandırmaq qərarına gəlib. O, bu yolla həmin şəxsi məhkəmədə ifadəsindən imtinaya məcbur etməyə nail olmaq istəyib.

Vüsal Əliyev cari il martın 19-da barəsində keçiriləcək məhkəmə prosesində həmin əməkdaşın şahid qismində iştirakının qarşısının alınması üçün keçmiş iş yoldaşının döyülməsini təcridxanada onunla eyni kamerada qalan Cinayət Məcəlləsinin quldurluq maddəsi ilə təqsirləndirilən Mirafiq Bəşirova pul müqabilində sifariş edib. Mirafiq Bəşirov isə öz növbəsində azadlıqda olan qardaşı Nurlan Bəşirovla əlaqə saxlayaraq həmin şəxsin məhkəmə iclasında şahid qismində iştirakının qarşının alınmasının vacib olduğunu diqqətə çatdırıb. Nurlan Bəşirov isə tanışları Zaur Cəlilli, Bəhruz Əhmədov, Sərxan Çobanov, İsamuddin Babayev və Fariz Daşdəmirov ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək sifarişi yerinə yetirmək üçün əvvəlcədən plan hazırlayıblar.

Belə ki, həmin şəxsə məxsus zəruri məlumatlar cinayətkar qrupun üzvü Bəhruz Əhmədov vasitəsilə əldə edildikdən sonra Sərxan Çobanov və İsamuddin Babayev martın 19-da zərərçəkənin yaşadığı evin yaxınlığında idarə etdiyi avtomobili saxlatdırıb ona müxtəlif dərəcəli bədən xəsarətləri yetiriblər. Hadisədən sonra Nurlan Bəşirov, Zaur Cəlilli, Fariz Daşdəmirov, Sərxan Çobanov və İsamuddin Babayev görüşüb vəd edilmiş pulu aralarında bölüblər.

Baş İdarənin əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində həmin şəxslər saxlanılıblar. Onlardan dördünün üstündən narkotik vasitə və psixotrop maddə aşkar edilərək götürülüb.

Araşdırma zamanı, həmçinin müəyyən olunub ki, Vüsal Əliyev bu hadisədən bir qədər sonra kamera yoldaşı Mirafiq Bəşirova bu dəfə keçmiş iş yoldaşının bıçaqlanması cinayətini sifariş edib. Bu sifariş əsasında Mirafiq Bəşirov tanışı Namiq Alagözov vasitəsilə cari il aprelin 22-də həmin şəxsə yaşadığı evin qarajında bıçaqla müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməsini təşkil edib. Namiq Alagözov da həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Faktlarla bağlı Zaur Cəlilli, Bəhruz Əhmədov, Nurlan Bəşirov, Fariz Daşdəmirov, Sərxan Çobanov, İsamuddin Babayev və Namiq Alagözov təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda həbsdə olan Vüsal Əliyevə və Mirafiq Bəşirova da Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan olunub. Cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Biz birlikdə güclüyük!

## Aztəminatlı ailələrə birdəfəlik yardım davam edir

### Buna görə vətəndaşlar dövlət başçısına minnətdarlıqlarını bildirirlər

Dünyanı bürümüş koronavirus epidemiyası bütün ölkələrin yaşam tərzinə öz təsirini göstərməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına əsasən ölkəmizdə bu bəla ilə qətiyyətlə mübarizə aparılır, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, habelə rifah halının yaxşılaşdırılması istiqamətində müxtəlif formatlı tədbirlər həyata keçirilir.



İctimai rəydə rəğbətlə qarşılanan bu işlər ölkə vətəndaşlarının həyat səviyyəsinə mənfi təsirlərin azaldılmasına, xalqın sağlamlığına və sosial müdafiəsinin gücləndirilməsinə olan qayğının bariz nümunəsidir. Respublikamızda sosial müdafiə tədbirləri əsasən üç istiqamətdə - sosial təminat, sosial yardım və sosial dəstək qaydasında həyata keçirilir. Sosial yardımlar əsasən əhalinin heç yerdə işləməyən qrupu üçün nəzərdə tutulur. Azərbaycan Prezidentinin aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi və əhvali-ruhiyyəsinin yaxşılaşdırılması istiqamətində atdığı bu addımlar nəinki respublikamızda, eləcə də xarici ölkələrdə ictimai rəydə yüksək qiymətləndirilir. Bunu beynəlxalq təşkilatların, tanınmış dövlət və ictimai xadimlərin Azərbaycan Prezidentinə ünvanladıqları təşəkkür məktublarından, eləcə də son günlər istər poçt vasitəsilə aldığımız məktub və teleqramlardan, istərsə də internet vasitəsilə "Azərbaycan" qəzetinə ünvanlanmış mesajlardan görmək mümkündür.

Göranboy rayonu Dəlməmmədli şəhəri, Vidadi küçəsi, ev 6-da yaşayan Sevda Məhərrəm qızı Mahmudovanın redaksiyamıza göndərdiyi məktubda deyilir: "Hörmətli redaksiya, həyat yoldaşım Ağdamda böyümüşdü, müharibənin ilk günündən erməni silahlılarına qarşı vuruşmuşdu. Dəfələrlə ağır yaralanmışdı, bədənindəki qəlpələrin ağrı-acısına dözməyərək üç il bundan öncə doğma ata yurduna qayıtmaq həsrəti ilə həyatdan vaxtsız köçdü.

Hörmətli redaksiya, heç yerdə işləmirəm, azyaşlı övladımla tənha yaşayıram. Amma çox şükür edirəm ki, bu ölkəyə dünya şöhrətli siyasətçi Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev rəhbərlik edir. Bu gün Azərbaycan qadınlarının fəxri sayılan Birinci vitse-prezident Mehriban xanım Əliyeva kimi ümid yerimiz, dayağımız var. Bu rəhbərlərin diqqət və qayğısı sayəsində ölkəmizdə aztəminatlı ailələrin problemləri geniş şəkildə həll edilir. Bunu karantin rejimi günlərində daha yaxından hiss etdik. Mən, eləcə də mənimlə eyni küçədə yaşayan qonşularım Şahnaz Rüstəmova, Yeganə və Təranə Ələkbərovalar, Rəşad Akdaş və Zahid Qazıyev Azərbaycan Prezidentinin sərəncamına əsasən aprel ayında 190 manat birdəfəlik yardım aldıq. May ayında veriləcək yardım üçün xüsusi hesab açdırmışıq. Bundan başqa, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığına əsasən mənə və adını qeyd etdiyim aztəminatlı ailələrə dəfələrlə əlavə ərzaq yardımları edilmişdir.

Ölkənin başı üzərində qara buludların dolaşdığı bu çətin vəziyyətdə aztəminatlı ailələrin rifah halının yüksəldilməsi üçün göstərilən maddi və mənəvi dəstək bizləri bir daha səmimi-qəlbdən qürurlandırdı. Xalqın hər bir nümayəndəsinə, əsasən də aztəminatlı insanlara göstərilən diqqət bir daha sübut etdi ki, möhtərəm İlham Əliyev hər bir vətəndaşın Prezidentidir. Bizlərə olan yardımlara və qayğıya görə cənab Prezidentə, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Allahdan böyük kömək diləyirik. Ümidvarıq ki, onların rəhbərliyi ilə xalqımız mövcud çətinliklərin öhdəsindən layiqincə gələcək".

Aprel ayında birdəfəlik 190 manat yardım alan Siyəzən rayonu, Səttar Xeyrullayev küçəsi, ev 12-də yaşayan Ülviyyə Mirabbas qızı Əhmədova bacıları Fərqanə və Samirə ilə birlikdə imzaladıqları məktubda yazır: "Hörmətli redaksiya, mən bir neçə ildir ki, Azərbaycan Dövlət İqtisad Universitetini fərqlənmə diplomu ilə bitirmişəm, hələlik işsizəm. Məni bu məktubu yazmağa sövq edən Azərbaycan Prezidentinin aztəminatlı ailələrə göstərdiyi diqqət və qayğısıdır. Aprel ayında bu qayğıdan mən də bəhrələndim, may ayı üçün də bankda hesab açdırmışam. Buna görə biz sevindik, dövlət başçısı çıxışında qeyd etdiyi kimi, yardım üçün müraciət edənlər yenə var, Allah onları da sevindirsin.

Onu da bildirməyi özümə borc hesab edirəm ki, ölkəmizin şimal bölgəsində, o cümlədən rayonumuzda milli həmrəylik yüksək səviyyədədir. Siyəzənlilər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın koronavirusa qarşı mübarizədə həmrəy olmaq, birlikdə bu bəladan qurtulmaq çağırışına canla-başla əməl edirlər.

Bu karantin günlərində dövlətdən 190 manat birdəfəlik yardım alan siyəzənlilər adından dövlət başçısına, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirik".

Birdəfəlik yardım alan Binəqədi rayonu Biləcəri qəsəbəsinin sakini, 19 yaşlı Tərlan Vaqif oğlu Əlimanov qəzetimizin adına ünvanladığı teleqramda ürək sözlərini belə ifadə edir: "Mən bir vətəndaş olaraq Prezident İlham Əliyevlə qürur duyuram. Dünyanı başına götürən koronavirus pandemiyasından ölkəmizi qorumaq üçün onun tapşırığı ilə əvvəlcədən qabaqlayıcı tədbirlər görülmüş, bütün qüvvələr səfərbər edilmişdir. Prezidentimiz bu çətin günlərdə aztəminatlı ailələri və işsiz vətəndaşları nəzərə alaraq dövlət tərəfindən 190 manat birdəfəlik ödəmələr üçün vəsait ayırdı. Bu vəsait 200 min insana şamil edilirdi, lakin Prezidentin təşəbbüsü ilə bu say 600 minə çatdırıldı. Dövlət başçısının tapşırığı ilə əvvəlcədən görülmüş profilaktiki tədbirlər nəticəsində Azərbaycanda koronaviruslu xəstələrin sayı digər ölkələrə nisbətən xeyli azdır. Dünyanın ən böyük və güclü ölkələri belə koronavirus pandemiyası qarşısında çarəsiz qaldığı halda Azərbaycan Prezidentinin müdrikliyi sayəsində respublikamızda səmərəli tədbirlər görüldü. Əminik ki, dövlət başçısının qabaqlayıcı tədbirləri sayəsində bu bəladan az itkilərlə qurtulacağıq. Cənab Prezidentin dediyi kimi, "Biz birlikdə güclüyük!" Mən də bir Azərbaycan gənci olaraq Prezidentimizin bu çağırışına qoşulur və bütün xalqımızı dəstək olmağa çağırıram".

Şəmkirdən, Gəncədən, Ağdamdan, Bərdədən, Mingəçevirdən, Naxçıvandan Sumqayıtdan, Qubadan, Qusardan, Lənkərandan, bir sözlə, ölkəmizin bütün bölgələrindən, eləcə də Bakıətrafı qəsəbələrdən gələn bu qəbildən olan məktub, teleqram, müraciət və mesajların sayı minlərlədir. Bu müraciətlərin hamısında aldıqları birdəfəlik yardıma görə Prezidentə, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıq, habelə "biz sevindik, gözəgörünməz koronavirus bəlasından qələbə ilə çıxaq ki, hamı sevinsin" kimi istək və arzu ifadə edilir.

**Rəhman SALMANLI,**
**"Azərbaycan"**

## Qazandığımız nailiyyətlər laqeydliyə yol açmamalıdır

Dünyanın kabusuna çevrilmiş COVID-19 bəşəriyyəti iflic vəziyyətdə saxlamağa davam edir. Əksər ölkələrdə dövlət sərhədləri bağlanıb, gediş-gəliş məhdudlaşdırılıb, fövqəladə rejim, karantin tətbiq olunub, beynəlxalq tədbirlər təxirə salınıb. İnfeksiyanın yayılmasının qarşısının alınması üçün müxtəlif tibbi-profilaktik tədbirlər həyata keçirilir.

Dövlət rəhbərləri vətəndaşlarını qorumaq üçün lazımi addımlar atdığı zamanda dünyanın müxtəlif elmi laboratoriyaları, dərman şirkətləri, alimlər, həkimlər də paralel olaraq COVID-19-u məhv edəcək dərman, peyvənd axtarışına çıxıblar. Bu yolda müsbət nəticələr, nailiyyətlər əldə olunsa da, hələ də pandemiyanın qarşısını ala biləcək peyvənd ixtira olunmayıb. Və bu peyvənd tapılmayana qədər planetimiz taclı bəlaya qarşı təhlükədə qalmaqda davam edəcək. Azərbaycan da infeksiyanın xaricdən idxalının qarşısını almaq üçün dövlət sərhədlərini bağlayıb. Ölkədə yanvar ayından etibarən xəstəliyin aşkarlanması, virusun yayılmasının qarşısının alınması üçün çevik, qabaqlayıcı tədbirlər görülməyə başlanıb. Qısa zaman ərzində dövlətin bütün imkanları pandemiyaya qarşı səfərbər olundu. Artıq nəticə də göz qabağındadır. Prezident İlham Əliyevin sərəncamları, çoxsaylı tapşırıqları, gündəlik nəzarəti altında həyata keçirilən səmərəli tədbirlər nəticəsində koronavirusla mübarizədə uğurlar qazanırıq. Məhz pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində dövlət tərəfindən vaxtında atılan mühüm addımlar, karantin rejiminin tətbiqi ölkədə koronavirusa kütləvi yoluxma hallarının qarşısını alıb. Dünya dövlətləri ilə müqayisədə Azərbaycanda COVID-19-a yoluxma və ölüm halları nəzərəçarpacaq dərəcədə azdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən də Azərbaycanda aparılmış bu tədbirlər digər ölkələrə nümunə göstərilir. Bu, bir daha onu göstərir ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilmiş işlər səmərəli və effektiv olub.

### Epidemiyanın ikinci dalğası xəstələnməyən insanların yoluxması nəticəsində yarana bilər

Koronavirusla mübarizədə müsbət tendensiya əldə edilməsindən sonra mayın 4-dən karantin rejiminin bəzi məhdudiyyətlərinin aradan qaldırılmasına, bir sıra sahələrin fəaliyyətinə icazə verilib. Lakin bu, təhlükənin sovuşduğu anlamına gəlməməlidir. Yəni yumşalma o demək deyil ki, vətəndaşlar əvvəlki həyat tərzlərinə geri dönməlidirlər. Əksinə, indi daha məsuliyyətli və ehtiyatlı olmaq lazımdır.

ÜST-ün Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı ölkəmizdə karantin rejiminin yumşaldılmasına münasibət bildirərkən deyib ki, insanlar pandemiya bitdi deyərək köhnə həyatlarına qayıdarlarsa, xəstə sayında artım olacaq.

O, karantin rejiminin yumşaldılması ilə əlaqədar əhalidə təhlükənin sovuşduğu əhvali-ruhiyyəsi yarandığını və bu səbəbdən virusdan qorunma qaydalarına riayət edilməsə, təxminən 7-10 gün sonra xəstə sayında artım ola biləcəyinə dair xəbərdarlıq edib.

"Əhali bilməlidir ki, COVID-19 xəstəliyi uzunmüddətli prosesdir. Bu səbəbdən mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir. İnsanlar ən sadə qaydalara - azı 1 metrlik məsafəni saxlamağa, əl gigiyena qaydalarına riayət etməyə və maska taxmağa davam etməlidirlər. Əgər pandemiyanın qarşısının alınması üçün gördüyümüz tədbirlərin səmərəsi az olarsa, yeni yoluxma dalğaları baş verə bilər. Bu dalğalar yavaş-yavaş, kiçik halda yaranarsa, səhiyyə sistemi onların öhdəsindən gələ bilər. Epidemiyanın ikinci dalğası birinci dalğada xəstələnməyən insanların yoluxması nəticəsində ortaya çıxa bilər. Ən önəmli məsələ budur ki, özümüzü qoruyaq, virusun insandan-insana keçməsinin qarşısını alaq", - deyən H.Harmancı karantin rejiminin qaydalarına ciddi yanaşmağı tövsiyə edib.

### Yoluxma sayı artsa, karantin rejimi yenidən sərtləşdiriləcək

Ancaq görünən odur ki, son zamanlar insanlar arasında infeksiyaya qarşı laqeydlik, qeyri-ciddilik, xəstələnməyəcəyinə dair arxayınlıq yaranıb. Ola bilsin ki, əhalinin müəyyən qrupu COVID-19-un necə təhlükəli olduğunu tam anlamır, qəbul etmək istəmir. Halbuki koronavirus təhlükəli infeksiyadır və ona dırnaqarası münasibət göstərmək olmaz.

Əvvəllər vətəndaşlar koronavirusa yoluxacağına görə qorxu, təlaş keçirirdilər deyə, qaydalara daha ciddi əməl etməyə çalışırdılar. Hazırda isə o qorxu hissi azalıb, insanlarda psixoloji arxayınlıq yaranıb. Əslində buna da səbəb elə ölkənin koronavirusla mübarizədə əldə etdiyi nailiyyətlərdir. Amma bu nailiyyətlər laqeydliyə yol açmamalıdır. Laqeydlik, arxayınlıq da məsuliyyətsizliyə gətirib çıxarır. Məsuliyyətsizlik isə yoluxma sayının artması deməkdir. İstənilən məsuliyyətsiz davranış xəstəliyin yayılmasına, epidemiyanın ikinci dalğasına səbəb ola bilər. Bunu nəzərə alaraq özümüzə məsuliyyət hissini aşılamalı, psixoloji cəhətdən möhkəm olmağı, qətiyyən arxayınlaşmamalı, karantin rejimi bitsə belə, gigiyena qaydalarına ciddi əməl etməliyik.

Hər kəs sosial məsuliyyətdən irəli gələn tədbirlərə, sanitar-epidemioloji və zəruri profilaktik qaydalara, şəxsi gigiyenaya riayət etməlidir. Çölə çıxarkən tibbi maska və əlcək taxmağa laqeyd yanaşmaq olmaz. Əlləri tez-tez və 20 saniyədən az olmamaq şərtilə sabunla, spirt tərkibli antiseptik vasitələrlə yumaq lazımdır. Vətəndaşlar əvvəlki dövrdə olduğu kimi, 2 metrlik distansiya tələbinə riayət etməlidirlər. Öskürərkən və ya asqırarkən ağızı bükülmüş dirsək və ya salfet parçası ilə örtməli, daha sonra isə həmin salfet parçasını bağlı zibil qutusuna atmalıdırlar. Virusa yoluxma sürətinin qarşısını almaq üçün kütləvi tədbirlərin yenə də təxirə salınması vacibdir. Pandemiya şəraitində heç bir kütləvi toplaşma hallarına yol vermək olmaz.

SMS icazə sistemindən suiistifadə edilməməlidir. Bu sistem yalnız zəruri ehtiyac yarandıqda evdən çölə çıxmaq üçündür, küçədə gəzmək üçün yox. Karantin rejimi yumşaldılmazdan öncə olduğu kimi, indi də zərurət olmadığı halda bayıra çıxmamağa diqqət olunmalıdır.

Vətəndaşlar bu qaydalara əməl etməsələr, yoluxma sayı artarsa, epidemioloji vəziyyət nəzərə alınaraq karantin rejiminin yenidən sərtləşdirilməsi, müvafiq məhdudiyyətlərin təkrar tətbiqi qaçılmazdır. Tətbiq edilən qadağalar, həyata keçirilən tədbirlər yalnız ölkə ərazisində epidemioloji salamatlığı qorumaq üçündür. Dövlətin qəbul etdiyi bütün qərarlar vətəndaşları maksimum qorumaq məqsədi daşıyır. Əhalinin sağlamlığı naminə karantin rejiminin sərtləşdirilməsi gərək olsa, dövlət bunu mütləq edəcək. Ona görə də bu infeksiyaya və onun fəsadlarına qeyri-ciddi yanaşmaq olmaz.

Unutmayın, təhlükə hələ sovuşmayıb, koronavirusa yoluxma halları davam edir. Belə bir vəziyyətdə hər şey vətəndaşların özündən asılıdır. Vətəndaşlar qaydalara riayət etməsələr, yoluxma hallarının sayı artsa, ikinci dalğa başlaya, nəticədə çəkilən bu qədər zəhmət hədər gedə bilər.

Havaların isinməsi istər-istəməz insanları təbiətə yönəldir, amma durumun nə qədər riskli olduğunu anlamaq lazımdır. Hazırda ən əsası cansağlığıdır. Pandemiya bizə bir daha xatırlatdı ki, bu həyatda sağlamlıqdan başqa hər şey mənasız və yalandır. Bu çətin və təhlükəli dövrdə həyatımızı, gündəlik vərdişlərimizi evlərə sığdırmağa çalışaq. Çünki hazırda ən təhlükəsiz yer elə öz evimizdir. Evimizdə qalaq, sağlam qalaq!

**Xəyalə MURADLI,**
**"Azərbaycan"**

## Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət ümidvericidir

### Buna görə məhdudiyyətlər mərhələli şəkildə yumşaldılır

Pandemiya elan edilən yeni növ koronavirusa (COVID-19) qarşı mübarizə yer üzərində davam edir. COVID-19 infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri təhlil edilərək ölkədə tətbiq olunan xüsusi karantin rejimi mayın 31-dək uzadılıb.

Bununla yanaşı, ölkəmizdəki xəstə sayı və yoluxma sürəti əsas götürülərək, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə məhdudiyyətlərin yumşaldılması da həyata keçirilir.

Koronavirus pandemiyasının bütün dünyanı bürüdüyü bir vaxtda atılan qabaqlayıcı addımlar nəticəsində ölkəmizin bu bəladan cüzi itkilərlə çıxmaq üzrə olmasına görə,

vətəndaşlardan Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıq məktubları gəlməkdə davam edir.

### Məhdudiyyət tətbiq olunan müxtəlif sahələrin fəaliyyəti bərpa edilib

Ötən gündən etibarən xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilib. Həmçinin bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti, bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət də bərpa olunub.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Xüsusi karantin rejimində qeyd edilən fəaliyyət sahələrində çalışan şəxslərin bir qismi qeydiyyatda olduqları bölgələrə gediblər. Həmin şəxslərin Bakıya necə qayıda biləcəyi ilə bağlı açıqlama verən Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib ki, həmin şəxslər əməkdaşı olduqları qurumun vəsiqəsi və işə çağırılması barədə iş yerindən arayışla rahat şəkildə Bakıya gələ bilərlər: "Rəhbərlik imza və möhürlü arayış verir ki, bu şəxs bizim əməkdaşdır və işə çağırılır. Dövlət qurumlarında yox, özəl işlərdə çalışanlar isə (bərbərxana, gözəllik salonu və s.) Bakıya işləməyə qayıtmalıdırsa, icaze.gov.az-da qeydiyyatdan keçməlidirlər. Həmin şəxslə bağlı da arayış verilə bilər ki, hansısa ünvanda gözəllik salonu, bərbərxana, fərdi tədris mərkəzi və s. yerdə çalışır".




### İnsanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır

O cümlədən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonundan başqa, ölkənin digər ərazilərində rayonlar və şəhərlərarası gediş-gəliş 4 may saat 00.00-dan bərpa olunub.

Lakin Operativ Qərargahdan bildirilib ki, bu qərar ictimai nəqliyyatla sərnişindaşıma xidmətinə aid deyil. Yəni rayonlar və şəhərlərarası ictimai nəqliyyatla sərnişindaşıma mayın 31-dək qadağandır.

Operativ Qərargahın qərarına əsasən, xüsusi karantin rejimində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, eyni zamanda, ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır.

### Ünvanlı dövlət sosial yardımı proqramına əlçatanlılıq artırılır

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ünvanlı sosial yardım üçün müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayı xeyli azaldılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı proqramına əlçatanlığının artırılması üçün növbəti addım kimi, sosial yardım üçün müraciət proseduru daha sadə şəkildə qurulur.

Bu məqsədlə nazirlik tərəfindən yeni layihə hazırlanıb. Layihəyə əsasən, vətəndaşlar ünvanlı yardım üçün elektron qaydada müraciət edərkən onlardan e-sistemdəki ərizə bəyannamədə qeyd etmələri tələb olunan məlumatların sayı xeyli azaldılacaq.

Müraciət zamanı əmək haqları, pensiya və müavinətlər, Prezidentin təqaüdləri ilə təmin edilib-edilməmək, məcburi köçkün statusuna malik olma ilə bağlı məlumatların qeyd edilməsi istənilməyəcək.

I və II dərəcə əlillik, kommunal xidmətlərə görə illik xərcin məbləği, işsizlik statusunun olub-olmaması, nəqliyyat vasitəsi ilə bağlı məlumatların da vətəndaşlar tərəfindən daxil edilməsinə ehtiyac qalmayacaq.

Müraciət zamanı vətəndaşlardan istənilməsi tələb olunmayacaq bütün məlumatlar aidiyyəti orqanların elektron informasiya sistemlərindən əldə ediləcək. Beləliklə, müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayının xeyli azaldılması aztəminatlı ailələrin proqramdan faydalanmaq üçün daha rahat və sadə şəkildə müraciət edə bilmələrinə, onların proqrama əlçatanlığının artmasına imkan yaradacaq.

### Karantin qaydalarını pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 03.05.2020-ci il saat 00:00-dan 04.05.2020-ci il 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 1049 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən verilən məlumata görə, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 47477 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### Dünyanın koronavirus mənzərəsi

Dünyada ümumilikdə 3 555 338 insanın koronavirus analizlərinin nəticəsi müsbət olub. Ayrı-ayrı ölkələrdə 247 631 nəfər pandemiyanın qurbanı olub. Dünyada koronavirusdan 1 150 482 insan sağalıb.

Hazırda 2 157 225 COVD-19 xəstəsinin müalicəsi davam etdirilir. Onlardan 50 041 pasiyent ağır vəziyyətdədir.

Virusun yayıldığı Çində isə son 24 saat ərzində 3 koronavirusa yoluxma hadisəsi qeydə alınıb. Bu barədə ölkənin Səhiyyə üzrə Dövlət Komitəsi məlumat yayıb.

Bildirilib ki, son sutkada daha 53 xəstə sağalaraq evə buraxılıb, ölüm hadisəsi olmayıb. Yoluxma hallarının ikisi Şanxayda, biri isə Şandonq əyalətində aşkar edilib.

### Ehtiyatı əldən verməyək

Azərbaycanda karantin rejimi yumşaldılsa da, Operativ Qərargah əhalini diqqətli olmağa, ehtiyatı əldən verməməyə və qoyulan qaydalara ciddi riayət etməyə çağırır.

Qurumun məlumatında deyilir ki, elan olunduğu kimi, COVID-19 virusu zəminində ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək mövcud vəziyyətə uyğun qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə əlaqədar ölkədəki ümumi vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür: "COVID-19 virusuna qarşı bütün tədbirlər əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin edilməsi naminə həyata keçirilir. Ötən müddət ərzində ölkə ərazisində virusun geniş yayılmasının qarşısını məhz dövlət-vətəndaş həmrəyliyinin nəticəsində almaq mümkün olmuşdur. Bu baxımdan hər bir şəxsi sosial məsuliyyətdən irəli gələrək dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək olmağa, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq".

Həmçinin COVID-19-la bağlı hazırkı vəziyyətdə hamı şəxsi gigiyenaya, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırılır. Koronavirusla mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzi kimi tövsiyə edilir.

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

# "Azercell" yeni balans köçürmə imkanlarını təqdim edir

## "Azercell Telekom" MMC "Mobil ödəmə" və "Paycell" xidmətləri çərçivəsində yeniliklərə imza atır

Abunəçilərin gündəlik həyatını müasir texnologiyalar və rəqəmsal həllər vasitəsilə asanlaşdırmağı hədəfləyən "Azercell" şirkəti yeni balans köçürmə imkanlarını təqdim edir.

Mobil operator innovativ "Mobil Ödəmə" xidmətinin funksionallığını növbəti dəfə genişləndirir. Artıq Fakturasız Xətt (SimSim) istifadəçiləri bu servisdən yararlanaraq öz nömrələrinin balansından həm Fakturalı, həm də Fakturasız Xətt nömrələrə 1 AZN-dən 50 AZN-dək vəsaiti hədiyyə edə bilərlər. Ay ərzində isə bir nömrədən digər nömrələrə köçürülən ümumi məbləğ 500 AZN həcmində təyin edilib.

Xatırladaq ki, "Mobil Ödəmə" xidmətini aktivləşdirmək üçün "Azercell"in çoxfunksiyalı "KABİNETİM" mobil tətbiqini "Playstore" və ya "Appstore"dan yüklədikdən sonra qeydiyyatdan keçərək müvafiq elektron müqaviləni imzalamaq lazımdır.

Eyni zamanda "Azercell" "Paycell" xidməti çərçivəsində də yeniliklərə imza atıb. Odur ki, 23 apreldən etibarən "Paycell" xidməti vasitəsilə istənilən Fakturasız Xətt nömrənin balansına 0.2 AZN, 0.5 AZN və 1 AZN-dən əlavə, həm də 2 AZN və 5 AZN vəsaiti hədiyyə qismində yükləmək mümkündür. Yeni təklifdən yararlanmaq üçün SMS mətnində vəsaiti qəbul edən nömrəni qeyd edib, 2 AZN məbləğində köçürmələr üçün 2206 qısa nömrəsinə, 5 AZN üçün isə 2208 qısa nömrəsinə mesaj göndərmək kifayətdir.

Hazırda koronavirus pandemiyası ilə əlaqədar ölkə ərazisində elan edilmiş xüsusi karantin rejimi dövründə "Azercell" "Mobil Ödəmə" və "Paycell" xidmətləri vasitəsilə icra edilən balans köçürmələri üçün əlavə xidmət haqqı tətbiq etmir.

## B İ L D İ R İ Ş

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2020-ci il üçün xərclər smetasında "Proqram təminatlarına xidmət haqlarının ödənilməsi" (222340) maddəsinə ayrılmış vəsaitlər hesabına SERP proqram təminatının modullarına illik texniki dəstək xidmətlərini kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.05.2020-ci il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, S.Əsgərova küç.85**
**Telefon: (012) 594-17-26**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Dəftərxana ləvazimatları, təsərrüfat malları, katric və tonerlərin satın alınması məqsədilə 14 aprel 2020-ci il tarixdə keçirdiyi elektron tender prosedurunda "OfficePro" Məhdud Məsuliyyətli Cəmiyyət qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan informasiya sistemlərinin proqram platformalarının dəstəklənməsi, habelə printer və surətçıxaran aparatlar üçün katriclər və toner tozunun satın alınması ilə bağlı tenderin nəticələrinə dair bildiriş

Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan Elektron xidmətlər portalının, Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin, Maliyyə savadlığı portalının və Menecment informasiya sisteminin proqram platformalarının dəstəklənməsi ilə bağlı "Azərbaycan" qəzetinin 12 mart 2020-ci il tarixli nömrəsində elan edilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderin nəticələrinə görə Tender komissiyasının 17 aprel 2020-ci il tarixli qərarına əsasən "GTSolutions" şirkəti tenderlərin qalibi müəyyən edilmişdir.

Mərkəzi Bankda istifadə olunan printer və surətçıxaran aparatlar üçün katriclər və toner tozunun satın alınması ilə bağlı "Azərbaycan" qəzetinin 12 mart 2020-ci il tarixli nömrəsində elan edilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderin nəticələrinə görə Tender komissiyasının 17 aprel 2020-ci il tarixli qərarına əsasən "İNFİNİTECH" şirkəti tenderin qalibi müəyyən edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən AZ1025, Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti, 37 "Demirchi Tower" 20-ci mərtəbə ünvanında yerləşən ofisinə fiber optik xətt üzərindən internet xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 19.03.2020-ci il tarixli qərarına əsasən "Bravo Online Systems" MMC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 01.05.2020-ci tarixli müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 11 mart 2020-ci il və 09 aprel 2020-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə elektrik lampalarının satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 07 may 2020-ci il saat 16.00-a, təkliflərin açılışı isə 08 may 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müxtəlif adda kitabların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07 may 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2020-ci il üçün kotirovka sorğusu elan edir

- İnventarların satın alınması

Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 21 may 2020-ci il saat 13:00-dək qəbul olunur.
Tələb olunan sənədlər:
- nizamnamənin surəti (notarial qaydada təsdiq olunmuş);
- kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında məlumat (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması (malgöndərən təşkilatın kommersiya qurumunun dövlət reyestrindən çıxarışlarının və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması barədə məlumat (malgöndərən təşkilat tərəfindən hazırlanır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (malgöndərən təşkilatın uçotda olduğu vergi orqanından);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.

**Ünvan: AZ1005 Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**
**Əlaqələndirici şəxs: Nəsimi Kərimzadə.**
**Telefon: (+99451) 207-59-12; (+99412) 497-41-70.**

*Tender komissiyası*

# Paşinyan Ermənistanı kriminal qaydalarla idarə edir

## İşğalçı ölkədə daxili qarşıdurma daha da dərinləşir

Ermənistanda son dövrlərdə kriminal müstəvidə proseslərin inkişafı daha radikal xarakter almağa başlayıb. Xüsusən də Qavarda baş verən hadisələr bunun real təsdiqi qismində çıxış edir. Ermənistanın "Milli Gündəm" partiyasının həmtəsisçisi Avetik Çalabyan bu xüsusda bildirib ki, Qavarda baş verən qan tökülməsi çoxlarımız üçün ağır zərbədir. Dörd erməninin həyatına son verilib, iki böyük icma arasında qarşıdurma astasında başlayıb. Hüquq mühafizə orqanları zorakılığın yeni dalğasının qarşısını almaq üçün qabiliyyətsiz olub, hətta polis rəisinin və xüsusi polis bölməsinin nümayəndəsi kömək etməyib.

Xatırladaq ki, Qavar rayonunda qeydə alınan silahlı insident nəticəsində 4 nəfər öldürülüb, daha 4 nəfər yaralanıb. Bildirilir ki, Qavar şəhəri və Noratus kəndinin gənc sakinləri naməlum səbəblə mübahisə ediblər. Nəticədə baş vermiş atışmada hərbi müstəntiq Zorik Paronikyan və onun dostu Vahe Avetisyan qətlə yetirilib. Məlumata görə, atışmada öldürülən hərbi polisin müstəntiqinin qohumları və Avetisyanın qardaşının başçılığı altında olan dəstə xəstəxanaya gələrək silahlı insident zamanı yaralanan və Qavardan olan iki şəxsin boğazlarını kəsməklə onları qətlə yetiriblər.

Qeyd edilir ki, xəstəxanada öldürülən şəxslər Armen və Xaçik adlı qardaşlardır. Məlumata görə, rayonda nəzarət altından çıxmış vəziyyəti idarə etmək üçün hadisə yerinə Qavar polisinin rəisi Arman Sarkisyan gəlib. Amma xəstəxanada vəziyyət elə gərginləşib ki, hətta müstəntiqlər ora daxil ola bilməyiblər.

"Armlur.am" saytının verdiyi xəbərə görə, dəmir alətlərlə silahlanmış bir qrup şəxs polis əməkdaşlarının olduğu xəstəxanaya hücum çəkiblər. Onlar xəstəxananın əmlakını dağıtmağa başlayıblar, bundan sonra polis kordonunu yararaq palataya giriblər və yaralıların boğazını kəsiblər. Dəstə üzvləri bundan sonra xəstəxananı tərk ediblər.

Yerli qubernator Qnel Sanosyan isə bildirib ki, xəstəxanaya 500-ə yaxın insan hücum edib. Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan baş verənləri belə şərh edir: "Ermənistanın baş naziri Nikol Paşinyanın səriştəsiz rəhbərliyi nəticəsində polis hüquq mühafizə orqanı kimi hazırkı şəraitdə mövcud deyil. Qavarda baş vermiş hadisələr bu həqiqəti tamamilə təsdiqləyir".

Bu fonda o da məlum olub ki, belə mövqeyi səbəbindən Ermənistan baş nazir Nikol Paşinyan hüquq mühafizə orqanlarından Artur Vanetsyana qarşı cinayət işi açmağı tələb edib. Vanetsyan bu xüsusda bildirib: "Paşinyan hüquq mühafizə sisteminin nümayəndələri ilə çox pis görüş keçirib. Bu zaman hər hansı bir bəhanə ilə mənə qarşı cinayət açmalarını və məni cinayət məsuliyyətinə cəlb etmələrini tələb edib. Əgər qanun pozuntusuna yol verdiyimə əmindirlərsə, qoy Nikol Paşinyan prokurorluğa müraciət etsin, günahkar olsam, məsuliyyət daşımağa hazıram, günahkar olmadığım məlum olsa, deməli o, yalan mühakiməyə görə cinayət məsuliyyətinə cəlb olunmalıdır".

O qeyd edib ki, hüquq mühafizə sisteminin nümayəndələri nəinki ona qarşı bu və ya digər əməliyyatları həyata keçirməkdən imtina ediblər, eyni zamanda, söyləyiblər ki, əməliyyat-axtarış fəaliyyətləri nəticəsində Vanetsyanın işində hər hansı qeyri-qanuni əməl tapılmayıb: "Nəticədə baş nazir cavab verib ki, siz bu məsələni həll edə bilmirsinizsə, özüm həll edəcəm. Və gecə saat 12-də mətbuat katibinin bəyanatı çıxır. Bu cümlə ilə çox aydın və birbaşa şəkildə hüquq mühafizə orqanlarına bu cinayətləri aşkara çıxarmaq istiqamətində tədbirlər görmək göstəriş verilir".

Onun sözlərinə görə, Nikol Paşinyanın səriştəsiz idarəetməsi nəticəsində polis hüquq mühafizə orqanı hazırkı şəraitdə sadəcə mövcud deyil: "Bu səbəbdən Ermənistan hüquq mühafizə orqanlarının tarixində görünməmiş hadisə baş verdi: bir qrup şəxslər polis qüvvələrinin mühafizəsi altında olan əraziyə hücum etdilər və öz cinayətlərini başa çatdırmağa çalışdılar. Günahkar Nikol Paşinyanın timsalında ölkənin siyasi hakimiyyətidir. Həmçinin hesab edirəm ki, bəli, polisimizin, ümumi hüquq mühafizə sistemimizin ciddi və dərin islahatlara ehtiyacı var, bu qanun layihəsi ilə təklif olunan isə populist niyyətlərlə dəyişiklikdir".

Qeyd edək ki, bu qanun layihəsinin qəbul olunması ilə Ermənistan Daxili İşlər Nazirliyi yaradılmalıdır. Vanetsyanın sözlərinə görə, bu qanun layihəsini oxuyanda anlaşılır ki, dövlət açıq şəkildə formalaşdırılmamış dəyişikliklərin həyata keçirilməsi üçün 16 milyard dram xərcləyir: "Bu səlahiyyətlilər düşünülmüş və keyfiyyətli dəyişikliklər həyata keçirməyə qadir deyillər".

Bundan dərhal sonra "Mənim Addımım" blokunun deputatı, Nikol Paşinyanın qayını Qraçya Akopyan Vanetsyana qarşı hücuma keçib: "Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyan Nikol Paşinyana əhəmiyyətsiz suallar verməyə başlayıb ki, özünün korrupsiya əməllərini diqqətlərdən yayındırsın. Yəqin bir gün Vanetsyanın vəzifədən xarici xüsusi xidmət orqanları tərəfindən təsir altına salındığına görə çıxarılması aydınlaşacaq. Bəlkə də baş nazir Nikol Paşinyan təzyiq altında ona xarici xüsusi xidmət orqanları tərəfindən casusluğa cəlb edildiyini etiraf etdirə bilib?"

Akopyanın sözlərinə görə, Vanetsyan Serj Sarkisyanın kürəkəni Mikayıl Minasyana sərvəti qarşılığında onun həbs edilməyəcəyi və Respublikaçılar Partiyasını gələcəkdə Ermənistanda hakimiyyətə gətirəcəyi vədini verib: "Çoxları deyə bilər ki, əgər bütün bunlar həqiqətdirsə, Vanetsyana münasibətdə niyə cinayət işi açılmır. Dünya praktikası belədir ki, xarici agentlər yalnız ölkələrlə münasibətlər pozulmaq istəyəndə həbs edilir. Əgər münasibətləri pozmaq istəmirlərsə, onu sadəcə neytrallaşdırırlar ki, fəaliyyət göstərə bilməsin. Ermənistan indi heç bir ölkə ilə münasibətini pozmaq istəmir".

Bu vəziyyətdə Ermənistanda daxili qarşıdurmanın daha da dərinləşməsi gözlənilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Britaniya koronavirusla mübarizəyə 338 milyon funt pul ayıracaq

Böyük Britaniya donorlar konfransı çərçivəsində yeni tip koronavirusun yayılması ilə mübarizəyə 338 milyon funt sterlinq yönəldəcək. Baş Nazir Boris Consonun dəftərxanasından verilən məlumata görə, vəsait vaksinin hazırlanmasına, həmçinin virusun mövcudluğunu müəyyənləşdirmək üçün testlərin keçirilməsinə sərf ediləcək.

Britaniya hökumətinin başçısı martın axırlarında COVID-19 sətəlcəminə yoluxduqdan bir ay sonra iş başına qayıtmışdır. Müalicə zamanı bir neçə gün reanimasiya şöbəsində qalmış Conson vaksinin tapılmasını "həyatımızda ən təxirəsalınmaz birgə səy" hesab edir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq İdarəsinin rəisi Nemət Əvəzova anası

**TANYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Günel Zeynalovaya atası

**HƏSRƏT ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevə atası

**SƏLİM QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi iş yoldaşları Vəfa Ələkbərovaya atası

**ƏDALƏT BƏDİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevə atası

**SƏLİM QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7554
Sifariş 1188
Qiyməti 40 qəpik